*İnsan hər şeyini itirəndə itirmək sırası özünə gəlir.*



# BULUDLAR

## SARA RƏHİMOVA

*Sara Rəhimova*

# *Buludlar*

ROMAN

Bakı – 2021

## *Mündəricat:*

Ön söz…….....................................................3
I Fəsil............................................................6
II Fəsil……....................................................45
III Fəsil…….................................................101
Epiloq..........................................................158

## *Ön söz*

Həyatımızda çox az insanlar özlərini xoşbəxt hiss edirlər, çox az sayda insanlar həyatlarından razıdılar. İnsanlar daim həyatlarının daha gözəl olması üçün çalışırlar. Arzu etdikləri həyatı yaşamaq üçün o dərəcədə əllərindən gələni edirlər ki, nə yaşadıqlarını anlayırlar, nə də ki, əllərində olan xoşbəxtliyi görürlər. İnsanlar həyatlarının daha yaxşı olması üçün bəzən heç bir zaman etmərəm dedikləri hərəkətləri edirlər və bu hərəkətlər həyatlarının məhvinə səbəb ola bilir. İnsan yaşadığı həyatı anlamalı və hiss etməlidir. Malik olduğu xoşbəxtliyi anlayıb və ondan zövq alandan sonra daha da xoşbəxt, daha da uğurlu insan olmaq üçün düzgün yol ilə çalışmalıdırlar.

Yanımızda olanların hər zaman yanımızda olacaqlarını düşünürük. Doğmalarımıza, dostlarımıza daim inanırıq və güvənirik. Onlara olan güvənimizin tək səbəbi isə bizim onlara olan sevgimizdir. Biz onları sevirik, onlar bizim doğmalarımızdı və dostlarımızdı. Biz düşünürük ki, biz nə etsək belə onlar bizə inanmalıdılar. Əslində isə inam, güvən insanın səmimiliyindən asılı olaraq formalaşır.

İnsan özünün təsəvvür belə etmədiyi ağır şəraitdə olanda hər vəziyyətə uyğunlaşır. Hər bir insan ağır vəziyyətə hazırlıqlı olmalıdır. Empatiyasız insanın həyatı anlaması, sağ qalması ağır və əzablıdır. Bəzən adi məişət problemi səbəbindən ağlayırıq, dünyanın sonu imiş kimi əzab çəkirik. Halbuki həyatda şirin bir gülüşə, isti bir qucağa ehtiyacı olan sonsuz sayda insanlar var. Cəmiyyətimiz həbsxanada cəza çəkən və ya cəzasını bitirərək azadlığa çıxan insanları özündən kənarlaşdırır. Biz düşünmürük ki, biz də dəhşətli faciələr yaşaya

bilərik. Nələrin baş verdiyini anlamadan insanlara qiymət vermək, tənqid etmək düzgündür? Biz cəmiyyətimizdə bu problemi yoluna qoymadan valideynlər belə öz övladlarına güvənməyəcəklər.

Uşaqların ağır şəraitdə böyüməsi onların yeni formalaşmaqda olan psixologiyasını pozur, həyata baxışlarını başqa səmtə yönəldir. Bu zaman uşaqlar imkansızlıq, çarəsizlik, çətinlik dolu kin-qəzəb ilə böyüyürlər. Qəlblərinə dolan kin onlar ilə birgə böyüyür. Neçə yaşına çatmaqlarına baxmayaraq, daxillərində olan qəzəb bitmir. Həmin kini, qəzəbi onun bədbəxtliyində günahı olmayan birinə boşaltdıqda sanki öz qisaslarını almış sayırlar. Uşaqlıqda toplanan qəzəb ilə özlərini, ətrafdakılarını zəhərləyirlər, boş qisasçılıq oyunlarını oynayırlar, qisas zəncirini uzadırlar və bu zəncir dövr edib özlərində qapanır.

Bu qaralama şəklində yalnız bir dəfə oxunaraq düzəliş edilib ərsəyə gələn əsərdir. Bu əsəri təcrübəli yazıçı ərsəyə gətirməyib, hər cümlə, hər ifadə ani olaraq sanki öz istəyi ilə vərəqlərə həkk olunub. Bu əsər gecələr yuxuya dalarkən digər insanların ağrılı, əzablı şəraitini göz önünə gətirilərək yazılıb. Biz ətrafımızda olan insanları düşünmürük. Kriminal xəbərlərdə gördüyümüz insanlara qarşı beynimizdə neqativ fikirlər formalaşır, onları ən alçaq insan kimi qəbul edirik. Biz ictimai nəqliyyatda bizim ilə birgə yol gedən insanlar ilə yol yoldaşlığı etmirik. Onları görünüşlərinə, geyimlərinə görə tənqid edirik. Biz digər insanları anlayaraq onların ağrılarını, acılarını azaldaraq və onlara dəstək olaraq bəşəriyyəti daha da gözəlləşdirə bilərik.

Həyatın möhtəşəmliyini anlamaq üçün səmaya tamaşa etmək

kifayətdir. Qaçışan buludların gözəlliyini anlamaq üçün səmaya tozlu pəncərədən baxmağa ehtiyac yoxdur. Biz məhz buludlarda görmək istədiklərimizi görə bilirik.

## *I Fəsil*

### I

İş həftəsinin son günü – cümə günü idi. Yorğun dörd iş gündən sonra səhər tezdən yuxudan oyanmağın əzablı olmasına baxmayaraq, yoldaşımın xoş nəvazişi bunu yüngülləşdirdi. Hər gün olduğu kimi bu səhər də mətbəxdə səhər yeməyi hazır süfrədə idi. Oğlum Cavad da yeməyinə toxunmadan məni gözləyirdi. Ailəmizdə səhər yeməyi, ümumiyyətlə şam yeməyi də çox vacib idi. Səhər yeməyi bizim kiçik ailəmizdə günümüzün gözəl başlanması simvolu idi, həm də bu bizi daha da yaxınlaşdırır, daha da mehriban və doğma edirdi.

Yay günlərində Bakıda səhər gözəl olur. Günəş qəlbi isidən şüalarını pəncərədən mətbəxə paylayırdı, sanki səhər günəşi məhz bizim üçün sevgi saçırdı. Pəncərədən həyətdəki güllərin xoş qoxusu otağa yayılırdı, bu gün xoş meh var idi. Bu yay günlərinin əvəzolunmaz yüngül, zərif mehlərindən idi.

Hər gün olduğu kimi həmin gün də ilk öncə oğlum–Cavadı bağçaya aparacaqdım, daha sonra isə işə gedəcəkdim. Yoldaşım Almaz isə ev işləri ilə məşğul olacaqdı, nahar hazırlayacaq, rəfiqələri ilə görüşəcəkdi.

– Sağ ol, ata. Sabah həftəsonudu, verdiyin sözü unutma. – Cavadı bağçaya yola salarkən dedi.

– Yaxşı, oğlum. Sən də çantanı unutma. – Deyərək, havalı öpüş göndərdim.

Cavad mənim hər şeyimdi. Bəzən elə hiss edirəm ki, aramızda olan bağ ata-oğul münasibətlərindən daha dərindi. Oğlum çox ağıllı, yaşına görə çox dərrakəli uşaqdı. Cavad çimərliyi çox sevir, yayda hər həftəsonu bizi oraya getməyə məcbur edirdi. Lakin buna digər uşaqlar kimi ağlayaraq deyil, öz şirinliyi ilə nail olurdu.

Ofisə daxil olarkən həftənin son iş günü öz ağırlığı ilə üzərimə çökdü. Çox yorğun idim, tək təsəllim o idi ki, sabah həftəsonudu, doyunca yuxumu alacaqdım, ailəm ilə birgə çimərlikdə dincələcəkdim. Yalnız valideynləri də unutmaq olmazdı. Mən də, Almaz da ailəmizin tək övladlarıyıq. Bu səbəbdən də hər iki ailə həftəsonu bizi gözləyirdi. Həyatım monoton formada davam edirdi: həftənin beş gününü işləyirdim, iki gününü isə ailəmə sərf edirdim. Amma şikayətçi deyildim, xoşbəxt idim və gözəl ailəm var idi. Bir qızımın dünyaya gəlməyini çox istəyirdim. Gözəl, nazlı, Almaza bənzər bir qızımızın olmağını çox istəyirdim. Çox istəyirdim ki, mənə baxaraq şirin-şirin gülümsəsin, mən isə onun daim nazını çəkim. Cavadımı çox sevirəm, onun yeri qəlbimin ən başındadı, qızımın yerinin də onunla yanaşı olmağını çox istəyirdim.

Qəflətən tanımadığım bir nömrədən zəng gəldi.

– Alo, İlkin bəydi? – təxmini 50 yaşlarında olan tanış olmayan bir kişi səsi duydum.

– Bəli İlkindi. Buyurun, sizi eşidirəm.

– Mən Qara bəyəm, şəxsi şirkətimi işlədirəm. Sizin profilinizə linkedin sosial şəbəkəsində rast gəldim. Sizə iş təklifim var. İstəyirsinizsə, sizə göndərəcəyim məkana sabah gəlin.

– Sadəcə sabah mənim istirahət günümdü. Həm də sizdə nə işdi?

– Bizdə də iş qrafiki beş günlükdü. Sadəcə sizinlə iş günü olmayan sakit bir gündə ətraflı söhbət etmək istəyirəm. Bizdə vakansiya sizin hal-hazırda işlədiyiniz iş ilə eynidi.

– Çox sağ olun, Qara bəy. Sizin məkanı göndərin və saatı deyin. Mən sabah gələcəm.

– Yaxşı, o zaman sizə göndərəcəyim məkanda saat 10-da olarsız. Görüşənədək, sizi səbrsizliklə gözləyəcəyəm.

– Hələlik, Qara bəy. Görüşənədək.

Düzü çox sevindim. Bəlkə əmək haqqı daha çox olacaqdı, Cavadın gələcəyi üçün daha gözəl olardı və artıq qızımız da olacaqdı. Digər tərəfdən isə Cavada bu həftə çimərliyə gedə bilməyəcəyimizi necə anladacağımı düşünürdüm. Çimərliyə getməyi Cavad çox istəyirdi. Onu üzgün vəziyyətdə görməyə tab gətirə bilmirdim. Çətin olsa da dözməli idim, bunu onun üçün edirdim, Cavadın gələcəyi üçün edirdim. Sevincək Almaza zəng etdim. Axı Almaz həm həyat yoldaşım, həm də tək sirdaşım idi.

– Alo, gəlirsən, həyatım? – Almazın şirin səsini duydum.

– Gəlirəm, gəlirəm, ürəyim. Şad xəbər ilə gəlirəm. Evə nə lazımdı? Bir də ki, qapını döyəndə Cavad ilə birgə gəl.

– Nə xəbər? Nə olub?

– Sürprizdi. Gələndə bilərsən. De görüm, yolüstü nəsə alım?

– Hər şey var, həll etmişəm. Tez gəl, ürəyim partladı.

– Gəlirəm, gəlirəm. Cavada nəsə alım gəlirəm.

Almaz mənim dediyim kimi elədi, qapını açan hər ikisi oldu.

– Mən gəldiiiim. Bu da Cavada hədiyyə. – Aldığım şirniyyatları Cavada verib, qucağıma aldım.

– Çox sağ ol, ata. Sabah dənizə gedirik. Çox sevinirəm. Yupiiii!!! – sevincək qışqırdı.

Bir qolum ilə Cavadı qucağımda rahatlayıb, digər əlim ilə isə Almazın belindən qucaqlayaraq hər ikisinə baxaraq dedim:

– Məni yeni işə çağırıblar. Bəlkə də daha çox maaş oldu. Bu iş yerim məni artıq təngə gətirib. Zəng edib danışan elə müdirin özü idi. Həm də çox xoş danışırdı.

– Nə yaxşı, ata. Sevəcəyin iş olsun, daha yorulma. – Deyərək Cavad yanağımdan öpdü. – Sabah çimərlikdə qeyd edərik, birlikdə qumdan ev tikərik. – Cavad gülərək davam elədi.

– Amma oğlum, məni sabah çağırıblar. Sabah gedim işimi həll edim. Gələn şənbə qeyd edərik, olar Cavadım?

– Axı mən artıq neçə gündür ki, şənbəni gözləyirəm. – Cavad üzülərək cavab verdi.

– Həyatım, bəs şənbə günü də işləyəcəksən? – Almaz soruşdu.

– Yox, ürəyim. Mənə dedi ki, sabah iş günü deyil, sabah rahat danışmaq istəyir.

– Yaxşı. Yalnız sabah Cavadla mən səni buraxırıq. – Almaz deyib gülümsədi. – Oğlum, sən də atanı anla. Atan bizim üçün çalışır. Atana bir dəfəlik icazə ver. Hələ yay bitmir. – Cavadın saçlarını sığallayaraq başa saldı.

– Yaxşı, ana. – Cavad kefsiz halda qucağımdan düşdü və get-

di. – Bəs bazar günü də nənələrə, babalara getməyəcəyik? – arxaya çönüb kefsiz hədiyyələrini bağrına basaraq sual verdi.

– Gedəcəyik, oğlum, oraya getməsək olmaz ki. Nənələrin, babaların evinə getmək lazımdı. Çimərliyə bir həftə getməsək olar. Nənələrin, babaların isə daim yanında olmaq, baş çəkmək lazımdı. – Əyilib Cavadın əlindən tutub dedim.

– Bilirəm, ata. Nənələrə, babalara gedək, darıxmışam onlar üçün.

– Ağıllı oğlum mənim. – Başından öpüb, ipək saçlarını sığalladım. Cavadın cəmi dörd yaşı var idi, ancaq çox ağıllı idi.

Həmin gün Cavad çox kefsiz idi. Almaz isə əksinə çox sevinirdi. Mənim üçün xüsusi günlər üçün ayrılmış olan kostyumumu ütülədi, kostyuma uyğun köynək seçdi. Almaz çox sevinirdi və oğlunu da sevindirməyə çalışırdı. Cavad isə bizi sadəcə yola verirdi. Cavada hər gecə nağıl danışmasam yatmazdı. Bu gecə isə nağılı tam danışmamış yuxusunun gəldiyini, yatmaq istədiyini dedi. Halbuki bundan əvvəlki gecələr Cavadın yatmağı üçün bir nağıl yetməzdi. İnanırdım ki, oğlum məni anlayacaqdı, gələn həftə dənizə gedəndə mənimlə əylənəcəkdi, incikliyi gedəcəkdi.

## II

Qara bəyin göndərdiyi ünvan bir plazanın daxili idi. Plazaya daxil olub onun adını dedim. Gözəl bir qız yaxınlaşdı:

– İlkinsiniz?

– Bəli mənəm.

– Mənim adım Gültəkindi. Qara bəyin şəxsi katibəsiyəm. Mən sizi onun yanına aparacağam. Buyurun. – Deyərək irəli addımlayaraq məni onun izləməsini gözlədi.

– Çox sağ olun, Gültəkin xanım. – Gedə-gedə dedim.

Gültəkin arxaya çönərək gülümsədi və yoluna davam elədi. Qapını tıqqıldatdı və açdı.

– Oooo İlkin bəy. – Qara bəy mən otağa daxil olanda ayağa qalxdı. – Gəlin, əyləşin. – Boş oturacağı göstərib dedi.

– Salam, Qara bəy, çox sağ olun. – Dedim.

Qara 50 yaşlarında olardı. Boyu balaca, qarınlı, kök kişi idi, üzü təmiz qırxılmışdı. Əynində son modelə bənzər brend kostyum var idi. Saatı o böyüklükdə idi ki, sanki insanın gözünə girirdi.

– Çay istəyirsiniz? Yoxsa kofe, bəlkə su? – Rahat kreslosundan əyilərək soruşdu.

– Təşəkkürlər, bir şey istəmirəm. – Utandığımı bildirməməyə çalışaraq dedim.

– Elə isə söhbətə başlayaq. – Əllərini bir-birinə vuraraq, sanki önündə dadlı yemək varmış kimi dedi. – Bu vaxta qədər bir çox işlərlə məşğul olmuşam. Sizin sadə bir ofisdə səhərdən axşama qədər az əmək haqqı qazandığınızı bilirəm. Çünki sizin işlədiyiniz şirkəti tanıyıram. – Ayağa qalxıb mənimlə üzbəüz əyləşdi. Əllərini bir-birinin içində tutaraq əyildi və gözlərimə baxaraq davam etdi. – Mənə güvəniləcək adam lazımdı, sizə güvənə bilərəm?

– Əlbəttə. – Çaşqın, təəccüblü vəziyyətdə dedim, hiss eləyirdim ki, qızarmışam, hətta tərləmişdim də.

– Elə isə bilin ki, iş təmiz iş deyil.

– Üzrlü sayın. – Deyərək ayağa qalxdım. – Mən istəmirəm belə iş.

– Dayanın, İlkin! – Qara yerində qamətini dikəldərək dedi. – Maaşınız çox olacaq, siz sadəcə işinizi görəcəksiniz. Həm də iş saatınız azalacaq. Cavansınız, sizin, ailənizin gələcəyi var. Siz sadəcə işinizi görün, siz mənimlə işləməsəniz də mənim işim gedəcək. Siz sadəcə təmiz iş görəcəksiniz.

– İstəmirəm, Qara bəy. Mən evə belə yol ilə qazandığım pulu apara bilmərəm. Mən vicdanlı insanam.

– Ha-ha. – Qara qəhqəhə çəkdi. – Birincisi səndən ancaq təmiz işləmək tələb olunur, mənə güvənəcəyim işçi lazımdı. İkincisi vicdanlı olub nə etmisən? Səhərdən axşama kimi it kimi yorğunluqla evinə 5 qəpik aparırsan.

– Olsun 5 qəpik ilə yaşayırıq, amma xoşbəxtik.

– Övladın var?

– Oğlum var.

– Sabah oğlun məktəbə gedəcək və çox şey istəyəcək. Hər gün bir şey istəyəcək. Sən isə ona yox deyib onu məyus edəcəksən. Hələ əlavə bir uşağın da dünyaya gəlsə lap çətin olacaq. Borc içində qalacaqsan. Bəs oğlunun gələcəyi? Eh, elə sənin kimi olacaq, ofis qurdu olacaq. Özünü düşünürsən heç? Sən qocalanda nə olacaq? Kim səni işdə saxlayacaq? Oğlun sənə köməklik edəcək? Necə etsin ki, sən ona belə gələcək verirsən. Kömək edə bilməyəcək sənə. Necə ki, sən atana kömək edə bilmirsən.

Düşündüm ki, əslində düz deyirdi. Qara alçaqcasına iş görürdü, mən onunla iş görməsəm də işlərinə davam edəcəkdi. Polisə şikayət etməyə qorxurdum. Qara özü başıma oyun aça bilərdi. Cavada doğurdan da gözəl gələcək bəxş etmək istəyirdim. Mənim oğlum çox ağıllı uşaqdı və gözəl gələcəyə layiqdi. Həm də Almazın daha yaxşı təmin olunmasını, heç nədə qıtlıq çəkməyini istəmirdim. Qızımızın olmağını çox istəyirdim. Atama, anama kömək olmaq istəyirdim. Əgər bu işə razılaşsam bütün bunlar əlimdən gələrdi. O zaman niyə də yox? Qara özü dedi ki, mən sadəcə öz işimi görəcəkdim.

– Yaxşı o zaman, sizinlə işləməyə razıyam. Amma dediyiniz kimi sadəcə öz işimi görəcəm.

– Dayan, dayan. Dərhal işləməyə keçmə. Birincisi mən sənin işin öhdəsindən gəlib və ya gəlməyəcəyini bilmirəm. Sənə növbəti həftə bazar ertəsindən cümə gününə kimi sınaq müddəti verirəm. Əgər güvənimi qazansan işləyərsən. Güvənimi qazanmasan isə öz işinə qayıdarsan.

– Bəs əmək haqqı nə qədər olacaq?

– Ha-ha. – Qəhqəhə çəkdi. Nə qədər maaş alırsan?

– 900 manat.

– Mən sənə verirəm 2000 manat.

Düzü çox sevindim. Lakin sevincimi gizlətməyə çalışırdım. Qara isə tərs-tərs üzümə baxırdı. Sanki məni satın almışdı.

– Oldu. Razıyam.

– Oldu o zaman. Bazar ertəsi saat 10-da burada ol.

– Sağ olun, Qara bəy.

– Sağ ol, İlkin. – Çiynimə vuraraq dedi. – Ümidvaram ki, biz yaxşı yola gedəcəyik və bir-birimizi anlayacağıq. Həm də ümidvaram ki, nə mən peşman olacam, nə də sən. Təki güvənimi boşa çıxartma.

Başım ilə təsdiq edib otaqdan çıxdım. Maşına minəndə bir müddət donub qaldım. Qərarımın düzgün olduğunu bilirdim və bundan əmin idim. Almaza, ailəmə bütün bunları deməməli idim. Əsasən də Cavada heç bir zaman deməyəcəkdim. Məni pis bir ata hesab etməsin, çox istəyirdim ki, oğlum mənim ilə fəxr etsin. Mən ki, əsas onun üçün çalışırdım, onun gələcəyi üçün, Qara demiş mənim kimi ofis qurdu olmaması üçün çalışırdım.

Evdə Almaz məni sevincək qarşıladı, Cavad da sevincək qarşıma çıxdı. Artıq çimərlik söhbətini unutmuşdu.

– Nə oldu, ata? Nə oldu? – Cavad önümə qaçdı.

– Atanı rahat burax oğlum. İmkan ver ki, ayaqqabısını soyunsun. – Almaz Cavadı kənarlaşdırdı.

– Yaxşı keçdi. Bir həftə sınaq müddəti olacaq, işim də eyni işdi.

– Cavad, sən get salfetləri boşqabların kənarlarına düz, atan da acdı. – Almaz Cavada dedi.

– Gedirəm, mən də acam. Baxın, qarnım da balacalaşıb. – Əli ilə qarnını sığallayıb getdi.

– İlkin, bəs maaş?

– 2000 manat.

– Nə? Əladı ki.

– Hə əladı. İndi qızımız dünyaya gələ bilər? – göz vuraraq de-

dim.

– Olar. Niyə də olmasın ki? Cavad da darıxır.

– İş məsələsini hələ valideynlərə deməyək.

– Hə yaxşı. Sınaq müddətini keç, evdə qonaqlıq edərik. Onlara da sürpriz edərik. – Deyib öpdü. – İndi isə gedək yeməyə.

Özümü pis hiss edirdim. Almaz mənim ən yaxın sirdaşımdı. Mən isə ondan ən vacib olanı gizlədirdim. Görəsən bilsəydi nə deyərdi? Orada işləməyimə razılaşardı? Ya da gözündən düşərdim ya da ki, sadəcə orada işləməməyimi məsləhət verərdi. Qərarım o idi ki, Almaza deməyəcəkdim. Almaz bu işə aid olmasın. Ən azından onun vicdanı rahat olsun. Bu ağır yükü tək daşıyacağam. Ailəmizin gələcəyi üçün məcbur idim.

## III

Bizim ailədə bazar günü valideynlərə qonaq getmək günüdür. Əslində necə də qəribədi ki, böyüdüyün, boya-başa çatdığın, həyatının ən önəmli illərinin keçdiyi yerə qonaq kimi gedirsən, üstəlik hər gün də saatlarla gördüyün, səni böyüdən insanlar necə də uzaqdılar… Həftədə cəmi bir gün, ayda cəmi dörd gün ayırıb onlara baş çəkməyə gedirdik. Otuz günün qarşısında dörd gün nədir ki? Onlar illərlə hər gün bizim əziyyətimizi çəkiblər. Sonda da Qara deyən kimi “ofis qurdu” olasan. Daha çox əmin olmağa başlayırdım ki, Qara təklif elədiyi işi istəyirdim. Oraya getdiyim gün tərəddüd etsəm də artıq qəti fikirdə idim. Gün boyunca çox fikirli idim, çox az danışırdım. Onsuz da heç kəs bunu hiss etmirdi. Mənim fikirlərim hər kəsə hami-

şə boş gəlirdi. Susqunluğum da artıq adi hal idi.

– İlkin, sən niyə belə solğun görsənirsən? – anam üzümü ovuclarının içinə alaraq narahat formada dedi.

– Yox, yaxşıyam. Bildiyin vəziyyətdi. İş yorur.

– Ah İlkin, sənə yeni iş tapmaq lazımdı. Özünü çox yorursan.

– Hər şey yaxşıdı, ana. – Əllərindən öpərək dedim.

– Oooo oğul balam, Ulduz xanımın əllərindən öpür, atasına isə heç baxmır. – Atam zarafat ilə başını yana çevirərək dedi. Sanki incimişdi.

– Sizin də əllərinizdən öpək Ayxan bəyimiz. – Yaxınlaşıb əllərindən öpdüm. – Siz mənim hər şeyimsiniz, mənim böyüklərimsiniz.

– Oğlum, sən də bizim hər şeyimizsən, gözümüzün ağı-qarası olan birdənəcik oğlumuzsan. Sənə canımız qurban. – Anam şirin səsi ilə məni kövrəltdi.

– Elə demə mənim sizə canım qurban. Gəlin, sizi bərk-bərk qucaqlayacağam. – Sağ qolum ilə atamı, sol qolum ilə isə anamı bərk qucaqlayaraq yanaqlarına öpücük verdim.

– Mən də istəyirəm, mən də. – Cavad qucağımda oturdu.

– Həyatım, gəl. – Almaza baş hərəkətlərim ilə gəlməyinə işarə etdim.

Çox xoşbəxt idim. Həmin anda ən böyük istəyim bir qızımızın dünyaya gəlməsi və yanımızda olması idi. Kaş işim Qaranın dediyi kimi olsun, buraya tez-tez gələ bilim. O zaman Cavad üçün dünyanın ən yaxşı atası ola bilərdim.

Hər həftə olduğu kimi həmin həftə də valideynlərimdən vidalaşaraq evimizə getmək istəmirdim. Onlar üçün çox darıxırdım və vicdan əzabı çəkirdim ki, onlarla çox zaman keçirdə bilmirəm. Çox istərdim ki, onlarla birlikdə evlənməmişdən əvvəl olduğu kimi birgə çox vaxt keçirdərdim. Ailə qurandan sonra onları necə çox sevdiyimi anlamışdım. Həftədə bir günün cəmi bir neçə saatı ilə onlara doya bilmirdim. Bilirdim ki, onlar da mənim üçün darıxırlar. Hər həftə onlara gedəndə valideynlərim Cavada hər dəfə xüsusi hədiyyə hazırlayırdılar. Anam hər bazar günü xüsusi yemək hazırlamağa artıq vərdiş etmişdi. Valideynlərimin maddi vəziyyəti də yaxşı deyildi, onlara kömək ola bilməməyim məni sıxırdı. Qaranın dediyi işə həqiqətən ehtiyacım var idi.

## IV

İlk iş günümdə çox həyəcanlı idim. Ofisə gələrkən məni bir oğlan qarşıladı və mənə aid olan bütün işləri bir neçə saat sərf edərək anlatdı. İş rahat idi, çox rahat öhdəsindən gələcəyimə əmin idim. Bundan əvvəl işlədiyim ofisdəki kimi ağır iş şəraiti yox idi. Üstəlik şəxsi kabinetim var idi.

– Salam, İlkin. – Qara otağıma daxil oldu. – Üzrlü say qapını döymədim.

– Salam. Problem yoxdu, buyurun.

– Necə gedir? Bəyəndin işi? Bacara bilirsən? – Arxamda dayanıb kompüterə baxaraq soruşdu.

– Hər şey əladı, bacarıram.

– Çox gözəl, saat 4-də gedə bilərsən.

– Belə tez?

– Bəli, dincələrsən.

– Yaxşı, Qara bəy. Çox sağ olun.

– Bir də ki, sabah axşam 8-də gəl. – Başını əyərək üzümə baxıb dedi.

– Niyə belə gec?

– İş saatının belə olacağını sənə demişdim axı. Narazısan?

– Yox, razıyam. 8-də buradayam.

– Elə isə, işlə.

– Sağ olun, Qara bəy.

– Sağ ol. – Deyərək qapını çırpdı.

Növbəti iş günləri də belə formada keçdi. Qara hər dəfə müxtəlif saatlarda məni işə çağırırdı. Almaz vəziyyəti normal şəkildə qəbul edirdi. Mən Almaza iki seçim vermişdim: ya normal işim əvəzində az maaş, ya da saatı bilinməyən iş əvəzində isə çox maaş. Həyat yoldaşım gözümdən düşmüşdü. Heç bir zaman düşünməzdim ki, mənim gecə yuxumdan pul onun üçün daha önəmlidi. Özünə bir söz söyləmirdim, düşünürdüm ki, Almaz da düz düşünür – pul vacibdir. Cavad isə pis olmuşdu. Artıq ona nağıl oxuya bilmirdim. Əvəzində Cavada şənbə günü çimərliyə getməyi söz vermişdim. Oğlum hər gün çimərlik haqqında danışırdı, çox səbrsizlənirdi.

Cümə günü Qara axşam saatlarında məni işə çağırdı. Bu gün sınaq müddəti bitirdi və Qara mənim işləməyim ilə bağlı dəqiq fikrini deyəcəkdi.

– Gəl! – Qaranın sevincli səsi gəldi. – Gəl, İlkin. Əyləş!

– Salam, Qara bəy.

– Salam, salam. Sən işinin nə vəziyyətdə olmağını bilmək istəyirsən?

– Bəli, sınaq müddətim bu gün bitir.

– İşini bəyəndim. Səni işçim kimi qəbul edirəm. Ofisdən gedib sənədlərini götürə bilərsən.

– Çox sağ olun, Qara bəy.

– Sən sağ ol. Bu gün mənim kefim yerindədi. Bəlkə əylənməyə gedək?

– Gedək. Sadəcə haraya? Bəlkə mənə uyğun olmadı?

– Ha-ha-ha. Mən verirəm qonaqlığı. – Qara qəhqəhədən uğundu.

– Yox. Siz məni səhv anladınız. Sadəcə necə bir yerə gedirik?

– Bəyənəcəksən, İlkin. Mənim zövqümə inan. Düş aşağı, maşınımın qabağında gözlə.

– Oldu, Qara bəy.

Qaranın maşını son model, bahalı maşınlardan idi. Özünün şəxsi sürücüsü var idi. Özü arxada əyləşdi, məni də yanına əyləşdirdi.

Qaranın çox tərif lədiyi məkana çatdıq. Məkan çox səs-küylü və qaranlıq idi, yalnız dekorasion işıqlar yanırdı. Havadan müxtəlif tünd qarışmış ətir, içki qoxuları gəlirdi. Sanki musiqi beynimi içdən dağıdırdı. Qara yuxarı başa doğru gedirdi və mənim qolumdan tutub

özü ilə aparırdı.

– Qara bəy, mən…

– Sakit ol! – Qara sözümü kəsdi. İndi içkilər gələcək, sakitləşəcəksən, əylənəcəksən.

– Belə yerlərə heç öyrəşməmişəm.

– Sadəcə iç, dincəl, əylən. – Deyərək Qara içkini qabağıma qoydu.

Qara məni dayanmadan içizdirirdi. Uzun müddət idi ki, içmirdim. Həm də alkoqol içəndə də çox az miqdarda içirdim. Qara gülə-gülə müxtəlif söz yığını ilə məni şirnikləndirib içizdirdi. Qara elə düşünürdü ki, mən sadəcə ondan utanırdım. Musiqinin səsi çox ucadan idi, bu səbəbdən Qaranın nə danışdığını çox böyük çətinliklə anlayırdım. Başım ağırlaşırdı, ətrafımda olan hər şey fırlanırdı. Sanki beynim dumanlı idi. Son yaddaşımda qalan iki qadın idi. Daha sonra nələr olduğunu xatırlamırdım.

Gözlərimi açanda tanımadığım və ilk dəfə gördüyüm otaqda idim. Qalın qara pərdələrin arasından otağa daxil olan nazik Günəş şüası gözümü deşirdi. Otaqdan siqaret, içki qoxuları gəlirdi. Özümü paltarsız hiss eləyirdim, başım hələ də dumanlı idi. Özümə gələndə yataqda tanımadığım bir qadın ilə paltarsız uzandığımı gördüm.

Saatı bilmək üçün telefonumu axtarırdım, telefon çarpayının yanında olan balaca masada idi. Telefona baxan kimi Almazdan gələn təhqir dolu mesajları gördüm. O an şokda idim və nə olmuşdu, necə olmuşdu xatırlamırdım. Sadəcə özümün iyrənc videolarımın Almaza göndərildiyini gördüm.

– Dur, tez elə! – qadını saçlarından dartaraq qışqırdım. – Sən kimsən? Nə etmisən? Bu videolar nədi? Niyə Almaza göndərilib?

– Yadında deyil, həyatım? – saçlarını yolmağımdan sırtıqcasına həzz alaraq dedi.

– Sən nə danışırsan? Həyatım nədi?

Saçlarını buraxdım və baş verənlərə aydınlıq gətirməsi üçün gözlədim.

– Dünən sən özün mənimlə sevişmək istədin. Mən də səni otağa gətirdim. Videoları da mənə çəkdirdin ki, arvadına göndərəsən. Deyirdin ki, ondan bezmisən.

– Nə çərənləyirsən? Səni öldürməmiş rədd ol burdan!

Sözlərimdən həzz alırmış kimi güldü, paltarlarını bir göz qırpımında geyindi və getdi.

Cəld paltarlarımı geyindim və otaqdan çıxdım. Nə etməli olduğumu bilmirdim. Almaza nə deyəcəkdim? Baş verənləri xatırlamadığımı desəm mənə inanmazdı. Sanki ürəyim ağzıma gəlirdi. Utanc dolu göz yaşlarımı tuta bilməyərək evə yollandım. Özümə nifrət edirdim. Bütün bunları necə edə bilərdim axı? Mən bunları Almaza necə edə bilərdim? Kaş ölərdim, amma Almaza bunları yaşatmazdım.

## V

– Aç qapını, Almaz! Cavadın səsi gəlir, bilirəm ki, evdəsən. – Qapını döyəcləyərək qışqırırdım. – Mən nə baş verdiyini xatırlamıram. Müdirim məni aparmışdı. Çox içkili idim. Dünən baş verənlər-

dən heç nə xatırlamıram. Qapını aç, heç olmasa söhbət edək. Bir dəqiqə məni dinlə! – yenidən qışqırırdım.

Çox çalışmağıma baxmayaraq, Almaz qapını açmadı. Yerə yıxılaraq qapının önündə qalmışdım. Cavadı düşünürdüm. Yəqin ki, çox pis olub, bütün baş verənlər ona pis təsir edirdi. Onun anası ilə pıçıltı ilə danışmağını eşidirdim. Hələ çimərlik söhbəti var idi. Bu gün səhər çimərliyə getməli idik. Necə də səbrsizliklə gözləyirdi.

Almazın atası pilləkanlardan qalxırdı. Məni görən kimi üstümə hücum etdi və ağır şilləni üzümə yapışdırdı. Qəfil şillədən yerə sərildim. Almazın anası Solmaz da onun arxasında dayanmışdı, Yaşarı sakitləşdirirdi.

– Rədd ol burdan, qanacaqsız! – Almazın atası – Yaşar məni təpikləyərək evin içərisinə daxil oldu.

Almaz atasına qapını açdı. Yerdə sürünərək Almaza baxırdım. Almaz çox ağlamışdı, gözləri şişmişdi. Onu bu halda görüb bir söz belə söyləyə bilmədim. Yaşar evə daxil oldu, Solmaz isə mənə yuxarıdan aşağı baxaraq dedi:

– Niyə bunu qızıma etdin? Almaz mənim tək qızımdı. Biz səni yaxşı oğlan kimi tanıdıq, sən isə...

– Solmaz xanım, məni ora müdirim aparmışdı. Çox içmişdim və nə baş verdiyini xatırlamıram. Qızınızı çox sevirəm.

– Bəs iyrənc videolarının izahı var? Almazın nələr çəkdiyini bilirsən? Bəs oğlundan da utanmadın?

– Sərxoş idim. Özümdə deyildim.

Qadın nifrət dolu baxışları ilə məni süzüb evə daxil oldu. İçəri-

dən gələn səslərdən aydın olurdu ki, evdəki əşyaları toplayırdılar. Almazımı, Cavadımı aparırdılar. Nə etməli olduğumu bilməyərək aciz vəziyyətdə qalmışdım. Almaza nə qədər yalvarsam da məni dinləmirdi. Artıq baş verənləri anlatmağa çalışsam da faydası yox idi.

– İtil! Əşyaları yığırıq maşınlara. Bir saatdan sonra xarabana gələrsən. – Yaşar üzümə belə baxmadan söylədi. Hətta mənə bir söz deməyə belə imkan vermədi.

Məhəllədə binamız ilə üzbəüz yolun kənarında səkidə oturdum. Yaşar üç fəhlə ilə birgə bütün evi boşaldırdı. Çox qızğın iş gedirdi. Yaşarı sakit, təmkinli insan kimi tanıyırdım. İndi isə tamamilə əks xarakterdə idi. Mənim qızıma bu cür davransaydılar mən də sakit dayanmazdım. Hiss olunurdu ki, mənə əl qaldırmamaq üçün özünü sıxırdı, özünü çətinliklə sakit saxlamağa çalışırdı. Almazın anası – Solmaz isə çarəsiz görsənirdi. Bəlkə də onunla söhbət edə bilsəm vəziyyəti düzəldə bilərdim. Sadəcə Yaşar nəinki Solmaz ilə danışmağıma, hətta binaya tərəf gəlməyimə belə imkan verməzdi. Atam, anam baş verənlərdən xəbərləri olanda mənə nifrət edəcəkdilər. Bəs Cavad da görəsən mənə nifrət edəcəkdi?

Bir neçə saat sonra evi boşaltmaq işi bitənə bənzəyirdi. Almaz ilə Cavad Yaşarın maşınına əyləşdilər. Onların yanlarına getməmək üçün özümü çox böyük çətinliklə saxlayırdım. Ayaqlarım sözümə qulaq asmırdı, onları yerində sabit saxlamaq üçün çox çalışırdım. Bütün qonşular bizə tamaşa edirdi, qadınlar artıq boş qeybətlərinə başlamışdılar. Artıq uzun müddətlik qeybət mövzuları hazır idi.

Yaşar əsəb, hirs, nifrət dolu yerişi və baxışları ilə mənə tərəf

gəlirdi.

– Açarını al! – evin açarlarını üstümə atdı. – Qızım səndən boşanacaq! Artıq hərəkətini görməyim! Qızımın fikrini dəyişməyə belə çalışma! Yola gətirə bilməyəcəksən. Yola gətirməyi bacarsan belə mən səni öz əllərim ilə boğaram. Qızımdan uzaq dur! Almaza zəng belə eləmə! Yalnız vəkillər ilə danışacaqsan. Düzü Cavada sənin kimi ata lazım deyil. Cavad ilə yalnız mənimlə əlaqə saxlayaraq həftədə bir dəfə görüşə bilərsən. Başa düşdün?

– Başa düşdüm. Son dəfə bir dəqiqəlik Almaz ilə danışmaq olar?

– Olmaz! – deyib geriyə çöndü.

– Yalvarıram sizə, son dəfə Almaz ilə danışım. Cavadın xatirinə.

– Yalnız Cavadın xatirinə. Gözlə burada! – deyib maşınına tərəf getdi.

Yaşar qızı ilə uzun-uzadı danışdı. Almaz maşından çıxmaq istəmirdi, mənimlə danışmaq istəmirdi. Almazın yerində hər kim olsaydı eyni hərəkəti edərdi, hələ o iyrənc videolar dəhşətli idi. Almazı artıq itirmişdim və bunu qəbul etməli idim. Almaz gözləri şişmiş, ağlamaqdan yorulmuş vəziyyətdə, amma gözəl qamətini pozmayaraq yanıma gəldi. Yaşar bizdən bir neçə metr məsafədə dayanmışdı.

– Nə istəyirsən, əclaf? – hirsli şəkildə soruşdu.

Almazdan ilk dəfə idi ki, belə tərzdə söz eşidirdim. Sanki o an məni parçaladılar. Dünənə kimi ürəyimdən ağır söz deməyən Almaz mənə əclaf deyirdi. Elə bilirdim ki, yuxudayam və yuxumun tez bit-

məyini istəyirdim.

– Ey, sözünü de! – donduğumu görərək dedi.

– Almaz, dünən mən sərxoş idim. Ora məni müdir aparmışdı. Nə baş verdiyini xatırlamıram. Bəlkə müdirə zəng edim? Yəqin ki, dediyimi təsdiqləyər.

– Cəhənnəmə ol sərxoş. Nə olduğunu xatırlamaq üçün videolara bax. İyrənc videolarda olanları mənə necə edə bildin? Hələ üstəlik mənə nələr deyirdin…

– Almaz, mən nə etdiyimi bilmirdim, özümdə deyildim. Çox böyük qələt elədiyimi boynuma alıram. Səhvim çox böyükdü. Mən iyrənclikləri edərkən ağlım yerində deyildi. Mən heç bir zaman elə şeylər etmək istəməmişəm.

– Hər şey bitdi, İlkin.

– Bəlkə bir dəfə şans verəsən? Yenə səhvim olarsa ayrılarsan.

– Sənə nifrət edirəm. Atam məcbur şəkildə məni maşından çıxartdı ki, son dəfə səninlə danışım. Səni nə görmək, nə də eşitmək istəmirəm.

– Nə vaxtsa bacarsan məni bağışla.

– Artıq vecimə belə deyilsən. – Deyib getdi.

– Bitdi söhbətiniz? – Yaşar yaxınlaşdı.

– Bitdi.

– Qızımı narahat edəcəksən?

– Etməyəcəm.

– Vəkillər ilə əlaqə saxlayarıq. Evdə bizə aid olanları götür-

dük. Xaraban nə qızıma, nə də nəvəmə lazım deyil. Oğlunu məhkəmə təyin edəcəyi şərtlərə əsasən görə bilərsən. Ayağın evimə dəyməsin.

– Oldu.

Yaşar iri addımlar ilə uzaqlaşdı. Bəlkə də qonşular olmasaydı məni döyərdi. Yaşarın çox geniş ətrafı, tanışları var. Tanış vəkilləri çoxdu. Bu işi daha tez və asan yol ilə həll etməyə çalışacaq. Bundan sonra tez və ya gec heç bir fərqi yoxdu. Almaz mənə nifrət edirdi. Mən o iyrənc videolarda mundar hərəkətlər edirdim. Üstəlik Almaz haqqında da xoş olmayan ifadələr işlətmişdim. Necə də mundarlıq idi. Mən bütün bunları necə edə bilərdim? Almazdan başqa qadın həqiqətən də istəmirdim. Almaz haqqında da elə düşünmürdüm. Məgər sərxoş olanda insan istəmədiyi, həzz almadığı hərəkətlər edir?

Qaraya zəng etmək qərarına gəldim. Bəlkə də Qara mənim nə etdiyimi bilərdi. Fikirləşəndə ki, bunun nə faydası var idi? Almazı artıq itirmişdim. Yenə də nə baş verdiyini bilmək istəyirdim.

– Alo. Salam, Qara bəy.

– Salam, İlkin. Dünən nə oyunlardan çıxdın? Səndə də az yoxdu aaa.

– Qara bəy, mən dünən nə etdiyimi, nə baş verdiyini xatırlamıram. Yadımda son qalan yanımıza iki qadının gəlməyi idi. Siz mənim nə etdiyimi, ümumiyyətlə nə baş verdiyini deyə bilərsiniz?

– Gələn qızlardan biri səni otağa apardı. Məni də o biri gözəlçə yan otağa apardı. Sizin səsləriniz aləmi basmışdı.

– Bağışlayın, Qara bəy. Mən uzun müddət idi ki, içmirəm. İçən

zaman da çox az içirəm.

– Eybi yox, cavansan. Əsas evdəki bilməsin.

– Artıq bilir. Dünən videolar göndərmişəm.

– Eh, de ki, zibilə düşmüsən.

– Elədi, ailəm dağıldı.

– Narahat olma, düzələr.

– Yaxşı, Qara bəy. Çox sağ olun.

– Sən sağ ol. Bazar ertəsi səhər 10-da gələrsən. Sənədlərini gətirməyi də unutma.

– Baş üstə, Qara bəy.

Yeni müdirimin yanında da biyabr olmuşdum. Əslində boş şey idi. Almazdan, Cavaddan ayrılmaq ilə müqayisədə tamam boş idi. Artıq saatlar idi ki, bina ilə üzbəüz yolun kənarında oturmuşdum. Donmuşdum, tərpənə bilmirdim. Hələ də olanlara inana bilmirdim. Bir tərəfdən fikirlər beynimi yeyirdi, digər tərəfdən də qonşu qadınların mənə baxaraq pıçıldamaqları əsəblərimi pozurdu. Onlara baxanda başlarını kənara çevirdilər. Guya ki, saatlarla baş verənlərə tamaşa edən onlar deyildilər.

Yerdən ayağa dura bilmirdim, mənim üçün artıq zaman durmuşdu. Çox çarəsiz və aciz idim.

## VI

Evə daxil olanda özümü digər bir evdə hiss edirdim. Ev necə də boş və səssiz idi. Sanki onu da cəzalandırıblar, onu da tənhalığa

qərq ediblər. Evdə yalnız köhnə mebellər, paltarlarım, mətbəxdə köhnə qab-qacaqlar qalmışdı. İlk dəfə idi ki, bu evdə sanki yad idim, ev mənə yad, mən də evə yad idim. Hər bir evi gözəlləşdirən, hər bir evin yaraşığı orada yaşayan ailədir, həmin mehriban ailənin xoş gülüş səsləridir. Düzdür, bəzən hər bir ailədə qəmli hadisələr də baş verə bilir. O zaman da evdən səs gəlir. İndi isə evdə ümumiyyətlə səs yox idi, ev susmuşdu. Bu isə çox dözülməz və ağır idi.

Özüm üçün çox sayda içkilər və tez hazır olan yarım konservant yeməklər aldım. Dünənə kimi hər bir ailəyə nümunə ola biləcək şam yeməkləri gözümün önünə gəlirdi. Almaz, hər gün necə də gözəl və qayğıkeş idi. Cavad necə də sevincli, mehriban idi. Hər günümüz necə də gözəl keçirdi. Bu evdə qəmli, davalı günlər olmamışdı. Bu ev ancaq xoş günlər görmüşdü. Mən bunu necə edə bildim axı? Sevdiyim qadına bunları necə yaşada bildim? Almaz baş verənlərdən sonra çox əzab çəkirdi. Heç bir zaman məni bağışlamayacaqdı. Onun yerində hər kim olsaydı məni bağışlamazdı.

İçki dünən olduğu kimi başımı dumanlandırırdı. Almaz ilə birgə olan gözəl günlərimiz gözümün önünə gəlirdi. Onun ilə tanış olduğumuz günlərdə necə də xoşbəxt idim. İlk görüşümüz isə əvəzolunmaz görüş idi. Almaz çox gözəl idi. İndi də çox dəyişməyib, hələ də gözəl idi. Bu illər ərzində Almazı belə vəziyyətdə heç bir zaman görməmişdim. Onu son dəfə görəndə tək istəyim onu bərk-bərk qucaqlamaq və onu heç bir zaman buraxmamaq idi.

Qapı çox bərk döyülürdü, sanki qapını qırmaq istəyirdilər. Atamın əsəbi səsini eşitdim:

– Aç qapını, tez ol! – atam qışqırırdı.

Qapını açar-açmaz atam yumruğunu ilişdirdi. Arxası üstə yıxıldım.

– Ay insan, mən sənə belə tərbiyə vermişəm? Yaşar bilirsən mənə nələr dedi? Sən mənim boyumu yerə soxdun.

– Ata…

– Səsivi kəs! – qışqıraraq sözümü kəsdi. – Mənə daha ata demə! Belə oğul olmaz olsun. O nə videolar idi? Nə halda idin? Heç utanmadın? İndi guya nə gündəsən? Leş iyi verirsən.

Anam atamın arxasında dayanmışdı və ağlayırdı.

– Çox içmişdim.

– Zəhrimar içmişdin. – Atam qışqırdı. – Niyə içirsən?

– Bilmirəm. Müdir apardı.

– Sən həmişə belə olmusan. – Anam söhbətə qoşuldu. Həmişə öz uğursuzluqlarını, səhvlərini başqalarının üstünə atmısan. Sənin ailən var axı. Almaza da söz ola bilməz. – Davam etdi.

– Bağışla, ana.

– Anan ilə mən gedirik. Bir daha bizə gəlmə! Mənim kimi kişini uşaq kimi danladılar. Yaşar mənə dişinin dibindən çıxanı dedi. Sənin kimi oğlum daha yoxdu.

– Sənin kimi oğlumuz yoxdu! – anam ağlayaraq sakit səslə dedi.

– Dayanın, yalvarıram sizə. – Yerdə sürünərək qışqırırdım.

Valideynlərim artıq getmişdilər və məni eşitmirdilər. Onları

anlayırdım və çox utanırdım. Üzlərinə necə baxacağımı belə bilmirdim. Tək-tənha qalmışdım.

Bütün gecə boyu içdim. İlk dəfə idi ki, bu qədər alkoqol qəbul edirdim. Gözümə yuxu getmirdi. Almaza bütün bunları etməyimə baxmayaraq, məni düşünmüşdü. Yatmağım üçün divanı və üzərində olan ədyalı saxlamışdı. Mən belə bir qadını itirmişdim. Almaz mənim gecə yuxusuz qalmağım müqabilində evə çox pul gətirməyimi istəmişdi. Bəli, pulu çox sevirdi. Bəlkə də bu səbəbdən sərxoş olanda ona elə ifadələr demişdim.

## VII

– Alo. Salam, İlkin.

– Salam, Qara bəy.

– Sabah səhər saat 10-da sənədlərlə birgə gəlməyi unutma.

– Baş üstə, Qara bəy.

Bəlkə də sabah işdə başım qarışacaqdı. Güman edirdim ki, Yaşarın əsəbi gələn həftəsonuna kimi azalardı, Almaz da mənə qarşı yumşalardı. Cavadı görmək istəyirdim. Tək istəyim onların buna icazə verməsi idi. Cavadın nələr çəkdiyindən xəbərim belə yoxdu. Yalnız anasının ağlamağı onun pis olmağına bəs edərdi. Onun anasına bunları yaşatdığıma görə bəlkə də mənə nifrət edirdi. Kaş həftəsonu onu görə bilsəydim. Oğlum üçün çox darıxmışdım.

Qaradan xahiş etdim ki, çox işləyim. Evdə tək sıxılırdım, düşüncələrim məni rahat buraxmırdı. Qara buna razılaşdı və əlavə əmək haqqı ödəyəcəyini bildirdi. Həftəiçi günləri yalnız işləyirdim,

evə çox gec saatlarda yalnız yatmağa gəlirdim. Yatmaq üçün isə içki içməyə məcbur olurdum. Ev hələ də mənə yad gəlirdi, bu səssizliyə, tənhalığa öyrəşə bilmirdim.

Valideynlərim mənimlə danışmırdılar. Hətta mobil telefonlarında nömrəmi qara siyahıya əlavə etmişdilər. Ev telefonlarına zəng edəndə isə səsimi eşidən kimi dəstəyi üzümə qoyurdular. Hələ ki, evlərinə getməyə risk etmirdim, üstəlik onların qarşısına çıxacaq üzüm də yox idi.

Yaşar məhkəmə işlərinin başlandığını bildirmək üçün zəng etdi. Mənim cəmi bir imzamın lazım olduğunu bildirdi. Hətta məni hədələdi ki, narazı olsam və ya imza çəkməsəm videolarımı məhkəməyə, tanışlarıma göstərəcəkdi. Həm də Cavadı görməyəcəyim ilə qorxutdu. Qısaca imza çəkməsəm biyabr olacaqdım və oğlumu itirəcəkdim. Əsas Cavada görə razılıq verdim. Onsuz heç bir qüvvə bu vəziyyəti düzəldə bilməyəcəkdi.

Telefonumda olan Cavad, Almaz ilə birgə olan videoları seyr edirdim. Heç bir zaman düşünməzdim ki, ailəm məni tərk edər. Almaz ilə nigahımız olanda çəkdiyim imzanı xatırlayırdım. Həmin an çox həyəcanlı idim və əllərim əsirdi. Düşünmək belə çətin idi ki, mən boşanmaq üçün imzamı necə çəkəcəkdim. Artıq beş il idi ki, Cavad dünyaya gəldiyi zamandan savayı bir gün belə Almazdan ayrı, uzaqda qalmamışdıq. Bir gündə hər şeyi məhv etmişdim.

## VIII

Yaşara zəng etmək qərarına gəldim. Bu gün artıq həftə bitirdi və Cavadı görmək üçün səbrsizlənirdim.

– Salam, Yaşar əmi.

– Əmi yox, əmi getdi.

– Yaxşı, Yaşar bəy. Sabah Cavad ilə görüşmək istəyirəm.

– Hələ ki, bu həftə döz! Məhkəmə olsun sonra görərsən.

– Siz dediz ki, rahat həll edəcəksiz. Mən sizinlə tam razıyam. Sadəcə oğlumu görmək istəyirəm.

– Bəlkə Cavadın beyninə müxtəlif fikirlər ilə dolduracaqsan?

– Yox. Cavad mənim oğlumdu. Mən oğluma qarşı elə hərəkət etmərəm.

– Sabah Cavadı görmək alınmayacaq. Atangil də məndən onunla sabah görüşməyi xahiş edib. Ayxan kişi səndən fərqlidi, atan yaxşı insandı. Yazığın oğul cəhətdən bəxti gətirmədi.

– Cavad ilə valideynlərimin görüşməyinə razı olduğunuz üçün çox sağ olun. Bəs bazar günü Cavadı görsəm olar? Sizə yalvarıram.

– Yaxşı. – Uzun fasilədən sonra cavab verdi. – Tək şərtim odur ki, nəvəmin başını gic-gic fikirlərlə doldurma! Yoxsa son görüşünüz olacaq.

– Narahat olmayın.

– Bazar günü səhər zəng edərsən.

– Çox sağ olun, Yaşar bəy.

Yaşar sağollaşmadan dəstəyi qoydu. Yenə də sağ olsun ki, Cavad ilə görüşməyə icazə verdi. Həm də valideynlərimin də Cavadı görməklərinə şərait yaradır. Yəqin ki, az da olsa məni anlayır.

Bu səhər tez oyandım və gün boyu içki içməməyə qərar verdim. Sabah oğlumu görəcəkdim və sərxoş olmamalı idim. Üstəlik Cavadı görməyə səbrsizlənirdim və sevinirdim. Əl-üzümü yudum və yemək yemədən evdən çıxdım. Cavadın sevdiyi oyuncaqlardan, geyimlərdən, şirniyyatlardan alacaqdım. Cavadın həmişə getməyə can atdığı oyuncaq mağazasına getdim. Oradan müxtəlif xoşuna gələ biləcək oyuncaqlar aldım. Daha sonra isə uşaq geyimləri mağazasına yola düşdüm. Oğlum bağçaya gedir və orada səliqəli geyinməyini çox istəyirdim. Bir neçə dəst paltarlar aldım. Ümidvaram ki, xoşuna gələcək və əynində gözəl görsənəcəkdi. Şirniyyatlardan da ən çox sevdiklərindən aldım. Hədiyyələri qablaşdırmaq üçün müxtəlif bəzəkli qutular, lentlər axtarırdım. Artıq onları harada tapacağımı bilirdim. Cavadın ad günlərində və bayramlarda da ona hədiyyələr alırdım və qablaşdırırdım.

Özümə söz vermişdim ki, bu gün içki içməyəcəkdim. Baş verənlər ilə öyrəşməli olacaqdım və vəziyyəti düzəltmək üçün əlimdən gələni edəcəkdim. Oğlum üçün yaşayacaqdım, onun gələcəyinin gözəl olması üçün çalışacaqdım. Cavadın xoşbəxtliyi, onun üzündəki xoş gülüş, onun sevinci mənim üçün həyatda ən öndə gəlirdi.

Bütün gecə boyu oyuncaqları, geyimləri, şirniyyatları bəzəkli qutulara səliqə ilə yerləşdirdim. Rəngbərəng bantlar ilə qutuları bağladım. Görüşümüz üçün çox səbrsizlənirdim. Sanki Cavadı aylar

və illər idi ki, görmürdüm. Oğlum üçün çox darıxmışdım.

Anlayırdım ki, Cavad məndən Almazın ağlamasının, evimizdən getməklərinin səbəblərini soruşacaq. Ona nə deyəcəyimi bilmirdim. Düşünürdüm ki, oğluma nə deyə bilərəm ki, onun qəlbini sındırmayım, onda özümə qarşı nifrət yaratmayım. Çox qorxurdum ki, oğlum mənə nifrət edər. O zaman mənim həyatım məhv olardı.

## IX

Səhər oyanan kimi hədiyyə qutularını maşına topladım. Özümü formaya saldım, yuyundum, rahat paltar geyindim. Çox sevinirdim ki, Cavad ilə görüşməyə gedirdim. Nəhayət oğlumu görəcəkdim və könlünü alacaqdım.

Həyəcan ilə Yaşara zəng etdim.

– Salam, Yaşar bəy.

– Salam. – Yaşar yorğun və məndən danışmaqdan bezmiş tərzdə dedi.

– Cavad ilə görüşməyə görə zəng etmişəm.

– Bilirəm.

– Hara gəlim?

– Yarım saat sonra məhəlləmizin başında gözlə.

– Baş üstə.

Cəld hazırlaşıb evdən çıxdım. Yaşar dediyi məkanda 1 saatdan çox müddət gözlədim. Ona bir daha zəng etməyə ürək etmirdim. Bəlkə görüşməyə icazə verməzdi. Böyük ehtimal ki, məni cəzalandır-

maq üçün bu qədər gözlədirdi. Nəhayət Cavad ilə Yaşarın əl-ələ gəldiklərini gördüm. Onları qarşılamaq üçün cəld maşından çıxdım. Yaşar üzümə belə baxmadan bir neçə addım kənarda Cavadı yanımda qoydu və getdi.

– Oğlum, Cavadım. – Deyib Cavadı bağrıma basdım. Onun qoxusu üçün belə darıxmışdım. Saçlarını qoxladım, çoxlu-çoxlu öpdüm. – Necəsən oğlum?

– Yaxşı. – Cavad baxışlarını yerə dikib qəmli səsi ilə cavab verdi.

– Bəs sən məni öpməyəcəksən?

– Cavad mənə yaxınlaşıb sakit yanağımdan öpdü.

Amma bu Cavada xas olan hərəkət deyildi. Adətən Cavad məni çoxlu-çoxlu öpər və var gücü ilə qucaqlayardı. Həmişə üzündə gülüş olan uşağın gözlərindən belə qəm yağırdı. Mən necə də alçaq idim ki, oğlumu bu vəziyyətə düçar etdim.

– Oğlum, min maşına gedək. – Cavadı maşına mindirdim.

– Bunlar nədir? – Cavad bəzəkli qutuları göstərərək soruşdu.

– Sənin hədiyyələrindi.

– Hamısı mənimdi?

– Hə, oğlum. Hamısı sənindi.

– Mənim ad günüm deyil axı. Bayram da deyil.

– Bilirəm. Səbəbsiz aldım.

– Çox sağ ol.

– Sən sağ ol, Cavadım. Əlavə nə istəsən mənə de. Hara getmək

istəyirsən?

– Bulvara.

– Əla fikirdi. Yelləncəklərdə də yellənərik.

– Yaxşı.

– Acsan? Bəlkə yemək yeyək sonra bulvara gedək? Sevdiyin pizzadan istəyirsən?

– İndi yox.

– Yaxşı, oğlum. Aç bax hədiyyələrinə.

Cavad balaca əlləri ilə səliqəli şəkildə qutuları açırdı. Hamısının içərisinə baxırdı və qutuları yenidən bağlayırdı.

– Bəyəndin?

– Hə, çox sağ ol. Sevdiyim hər şeyi almısan.

– Bəs niyə sevinmədin?

– Sən mənə deyirdin ki, oyuncaqlar, şirniyyatlar əsas deyil. Əsas doğmalarındı.

– Doğmaların yanındadı. – Qəhər məni boğurdu. Ağlamaqdan özümü çox böyük çətinliklə saxlayırdım.

– Yaxşı. – Deyib məni yola verdi. Cavadın hələ 4 yaşı olmağına baxmayaraq, çox ağıllı idi və baş verənləri anlayırdı.

– Çatdıq Cavad. Ehtiyatla düş.

– Yaxşı.

– Ürəyin nə istəyir?

– Karusel.

– Yaxşı, oğlum.

Cavad karuseldə cəmi üç dövr fırlandıqdan sonra ondan düşdü. Adətən beş dövr belə Cavada yetməzdi. Karuseldə çox əylənərdi və ondan əl çəkməzdi.

– Daha istəmirsən?

– Yox.

– Bəlkə başqasına gedək?

– Yox. İstəmirəm.

– O zaman yeməyə gedək?

– Ac deyiləm.

– Yaxşı. Onda oturub söhbət edək.

Cavad başı ilə təsdiqlədi.

– Cavad, sən məndən küsmüsən?

– Hə. Həm anam çox ağladı. Həm də səni neçə gündür ki, görmürəm. Üstəlik çimərliyə getməyi söz vermişdin, aparmadın.

– Böyüklər arasında belə hadisələr bəzən baş verir. Mən hər zaman sənin yanında olacağam. Mən sənə söz verirəm.

– Yoxsan axı. Biz babagildə qalırıq.

– Hər gün olmasam da həftədə bir-iki dəfə görüşəcəyik. Hələ ki, belə olacaq. Daha sonra isə hər şey əvvəl necə idi elə də olacaq.

– Anamla barışacaqsınız?

– Hə, oğlum. Ananla barışacağıq. Sən bir az səbr et.

– Yaxşı.

– Səndən tək xahişim var ki, belə üzgün olma. Çox pis oluram. Sən gülümsəyəndə çox yaxşı oluram.

– Belə? – Cavad gülümsəyərək soruşdu.

– Hər zaman gülümsə oğlum. – Qucaqlayıb ipək saçlarını öpdüm. Amma Cavad dəyişmişdi, mənə qarşı çox soyuq idi. Mənim onu qucaqlamağıma, öpməyimə qarşılıq vermirdi və hərəkətsiz idi.

– İndi gedək əylənməyə? Bəlkə yemək istəyirsən? Ürəyin nə istəyir?

– Evə gedək, ata.

– Çox tezdi axı. Ata-bala əylənməyək? Mənim üçün darıxmamısan?

– Yoruldum.

– Yaxşı, oğlum. Gedək evə. Evdə hələ hədiyyələrini yerləşdirməlisən. Gələn dəfə görüşmədən əvvəl yaxşı yatarsan ki, çoxlu gəzə bilək.

– Yaxşı, ata.

Yol boyu Cavad bir söz belə söyləmədi, danışmadı. Bu bir həftədə Cavad məndən çox uzaqlaşmışdı. Sanki məni daha sevmirdi və mənə qarşı çox soyuq idi. Ona mənimlə darıxdırıcı və sıxıcı idi. Adətən olduğu kimi gülümsəmirdi, zarafatlar etmirdi, şirinlik etmirdi. Heç məni öpmürdü, qucaqlamırdı.

Cavadı götürdüyüm yerə çatanda Yaşara zəng etdim. Evlərinə tərəf getməyə icazə vermirdi.

– Alo, salam, Yaşar bəy. Cavadı gətirmişəm. Səhər görüşdüyümüz yerdəyəm.

– Gözlə, gəlirəm.

Cavad nə mənə, nə də hədiyyələrə baxmırdı. Harasa uzaqlara,

buludlara baxırdı. Bəlkə də anasını istəyirdi.

– Baban gəlir indi.

– Sən niyə babagilə getmirsən?

– Ananın məndən küsdüyünə görə.

– Bəlkə bu gün barışasınız?

– Hələ tezdi oğlum. Anan indi barışmaq istəməz.

– Yaxşı.

– Sən üzülmə, oğlum. Bir neçə vaxt baban ilə, nənən ilə vaxt keçirt. Sonra evimizə gedəcəyik.

– Yaxşı, ata.

Yaşar artıq gəlirdi və uzaqdan silueti görsənirdi. Maşından düşdüm və yerdə oturub Cavadın əllərindən tutub gözlərinə baxdım:

– Oğlum, mən səni, ananı çox sevirəm. Bilmədən səhvlər etdim. Bil ki, mən sadəcə dünyanın ən yaxşı atası olmaq üçün çalışıram.

– Sən əvvəl dünyanın ən yaxşı atası idin, indi deyilsən. – Dedi və bizə yaxınlaşmaqda olan Yaşara tərəf qaçdı. Oğlum gözümün önündə əllərimi buraxdı və məndən qaçdı. Üstəlik məni daha yaxşı ata hesab etmədiyini bildirdi. Qeyri-ixtiyari özümü itirdim və göz yaşlarımı saxlaya bilmədim.

– Yaşar bəy, bunlar Cavadındı.

Qutuları maşından çıxartdım və Yaşara verdim. Səsim titrəyirdi, dolmuş gözlərim ilə baxışlarımı yerə dikmişdim.

Yaşar qutuları götürdü və Cavad ilə birgə getdilər. Cavad arxaya belə baxmadı. Yerə diz çökdüm. Sanki dünyam məhv olmuşdu. Oğlum daha məni sevmirdi. Mənim həyatımın tək mənası olan oğlum belə məndən əlini üzmüşdü. Mən ki, onu görmək üçün necə xəyallar qurmuşdum. Cavad mənim tək ümidim idi. Artıq oğlum da məni atdı, tək-tənha qalmışdım. Elə hiss edirdim ki, məni ürəyimdən bıçaqlamışdılar, ürəyim sıxılırdı, boğulurdum. Yola çıxar-çıxmaz hayqırtı ilə ağlamağa başladım. Necə maşını sürdüm, necə evə çatdım özüm belə bilmədim. Evdə də ağlamağımı saxlaya bilmirdim. Artıq qonşuların nə düşündükləri də mənə maraqlı deyildi. Bəlkə də deyirlər ki, əclafam, xəyanətkaram, zəifəm. Artıq onlar məni düşündürmürdülər. Onlara sadəcə qeybət etməyə, boşboğazlıq etməyə mövzular lazım idi.

Cavad ilə görüşməyimin, onu məni anlaması ümidi ilə bu səhəri açmışdım. Bu ümid ilə artıq iki gün idi ki, içkidən uzaqlaşmışdım. Cüzi ümidim var idi ki, Cavad ilə aramızda olan bağ Almaz ilə bizi yaxınlaşdırar. Ümid edirdim ki, bəlkə zaman keçdikcə Almaz Cavada görə məni bağışlayardı. Cavad isə məni daha sevmirdi, mənimlə vaxt keçirtmək istəmirdi və məni yaxşı ata hesab etmirdi. Geriyə ancaq xəyal qırıqlığı qalmışdı. Çox içdim, çox ağladım. Bərbad idim, sərxoş idim, tək-tənha idim, kimsəsiz idim…

## X

Səhər təxmini saat 9 olardı ki, telefonuma zəng gəldi. Yuxulu vəziyyətdə zəng edənin adını çətinliklə oxudum və dəstəyi açdım.

– Alo, salam, İlkin.

– Salam, Qara bəy.

– Sənin ilə əylənməyə getdiyimiz yerin ünvanı yadındadı?

– Bəli, yadımdadı.

– Yarım saata orada ol!

– Yaxşı, amma niyə?

– Təcili iş var. Mən də orada olacam.

– Yaxşı, Qara bəy.

Cəld yerimdən durdum, əl-üzümü yudum, əzilmiş paltarlarımı geyindim və maşına qaçdım.

Demək olar ki, Qara zəng edəndən sonra 30 dəqiqə keçmişdi və mən orada idim. Məkanın qapısı açıq idi. Qapının açıq olmasına baxmayaraq, içəridə hava ağır idi. Qapıdan uzaqlaşdıqca ətraf qaranlığa qərq olurdu. Telefonun fənəri ilə ətrafa baxdım.

– Qara bəy, mən buradayam.

Amma səs gəlmədi, içəridə heç kəs yox idi. Otağın bir küncündə yerə yıxılmış qan içində olan bir nəfəri gördüm. Vəziyyətinin necə olduğunu anlamaq üçün yaxınlaşanda müəyyən etdim ki, nəfəs almırdı və ölmüşdü. Diksindim və arxaya getdim. O anda kişi səsləri eşidildi və işıq yandı.

– Sən nə etdin? – Qara əsəbi şəkildə qışqırdı və cəld addımları

ilə mənə tərəf gəldi. Qaranın arxasınca beş-altı nəfər də içəri daxil oldu.

– Mən heç nə etməmişəm. Elə mən də indi gəldim. Bunu gördüm. – Qorxumdan tir-tir əsirdim.

– Deməli sən etməmisən, hə? – Qara dedi və adamın öldüyünü yoxladı.

– Əlbəttə ki, mən etməmişəm. Siz dediniz ki, yarım saata burada olum. Mən də gəldim.

– Mənim adamım niyə ölüdü? – nifrət dolu baxışları ilə gözümün içinə baxırdı.

– Bilmirəm. Mən də siz gəlməmişdən iki dəqiqə əvvəl gəldim.

– Mən sənə güvəndim, işimi sənə tapşırdım, sənə yaxşı pul da verdim. İndi səni öldürdüyün adamın gününə salardım, amma salmıram. Bilirsən niyə?

– Yox. Amma mən…

Şillə vuraraq sözümü kəsdi. Müvazinətimi saxlaya bilmədim və yerə yıxıldım.

– Səni öldürmək mənim əlimdədi. Öz adıma görə etmirəm.

– Xahiş edirəm ki, bir dəqiqə mənə qulaq asın. – Yerdə sürünərək yalvarırdım.

– Polisə zəng elə! – Qara yanındakı adamına əmr etdi.

– Qara bəy, sizə yalvarıram…

Bu dəfə isə qarnımdan təpik vurdu.

– Kim sənə bunu tapşırıb? – yuxarıdan aşağıya üzümə baxaraq

soruşdu.

– Mən etməmişəm. Mənə heç kəs bir söz də deməyib. – Bu dəfə sözümü bitirməyə imkan verdi.

– Mən sənə demişdim ki, mənim güvənimi boşa çıxartma. Sən isə mənim işçimi öldürürsən. Nankorluğa bax hələ… Dua elə ki, səni öldürmürəm.

– Mən etməmişəm. Kameralarınız olmamış olmaz onlara baxın.

– Özün də çox gözəl bilirsən ki, kameralarımız yoxdu. Mənim üçün artistlik etmə! Sənin kimiləri mən yaxşı tanıyıram. Nankor, əclaf. – Dedi və bu dəfə də təpik vurdu.

– İşığı yandırın! Polislər hələ gəlməmiş bunun dərsini verin! Çalışın ki, üzünə vurmayasız. – Öz adamlarına əmr etdi.

Hər iki tərəfdən məni ayaqüstə saxladılar. Digər üç və ya dörd nəfər isə növbə ilə məni yumruqlayırdılar və təpikləyirdilər.

– Saxlayın! Bəs eləyir! İndi polislər gələcəklər. – Qara beş-altı dəqiqədən sonra əmr etdi.

Qaranın adamları məni yerə tulladılar. Məni döymələri çox az davam etdi. Amma bu beş-altı dəqiqədə sanki içimi dağıtmışdılar. Sümüklərim sızıldayırdı. Mən ömrüm boyu heç döyülməmişdim. Bu səbəbdən ağır gəlirdi.

– Mən sənə xəbərdarlıq etmişdim. Hansısa itin tapşırığı ilə mənim adamımı öldürdün. İndi türmədə çürü!

Sözümü demək istəsəm də növbəti dəfə döyülməmək üçün səsimi çıxartmırdım.

– Siz gedin! Bircə polisə zəng edən qalsın. İki nəfər olaq, bilməsinlər ki, biz döymüşük. Elə bilsinlər ki, rəhmətlik edib. – Qara öz adamlarına əmr etdi.

Polis maşınlarının səsləri gəlirdi. Qaranın ayağından tutdum və yalvarmağa başladım:

– Mən etməmişəm, yalvarıram, mənə inanın. Məni içəri salmayın. Mənim ailəm var, mənim oğlum var.

– Rədd ol! – dedi və ayağı ilə itələdi.

Ümid edirdim ki, bəlkə polislərə desəm onlar məni anlayardılar.

Polislər içəri daxil oldular. Qara onların önünə çıxdı və danışmağa başladı:

– Mənim işçimi öldürdü. Mən gələndə işçim ölü idi, bu da burada onun yanında idi.

– Mən etməmişəm. – Qışqırdım.

Polislər qollarımı bağladılar və məni maşına tərəf apardılar.

Digər polislər Qara ilə danışırdılar. Yalnız bu sözləri eşidə bildim:

– Başında problemləri var. Arvadına xəyanət edərkən videolar göndərib. Özünün yadında belə deyildi.

Mən isə yalnız "Mən etməmişəm" qışqırırdım. Başımı aşağı saldılar və maşına mindirdilər. Maşında hər iki tərəfimdə polis əməkdaşları əyləşmişdilər. Ürəyim çox tez döyünürdü və ağrıyırdı, başım fırlanırdı. Bir anlıq özümü sanki boşluğa atılmış kimi hiss etdim. Huşumu itirmişdim.

## *II Fəsil*

### I

Polis əməkdaşları məni polis bölməsinə apardılar. Üzərimi yoxladılar və əşyalarımı götürdülər. Dayanmadan məni sorğu-sual edirdilər və ifadəmi aldılar. Bir nəçə dəfə eyni hadisəni eyni formada onlara izah edirdim. Onlar isə mənə inanmırdılar. Mənə eyni sualları hər dəfə daha uca səslə verirdilər. Nə danışacağımı belə bilmirdim. Hadisəni olduğu kimi onlara danışırdım. Nə və necə yalan danışım, bilmirdim.

Bir neçə saatlıq sorğu-sualdan sonra həkimlər məni yüngül müayinə etdilər. Daha sonra isə məni müvəqqəti saxlanma məntəqəsinə apardılar. Yol boyu həyəcandan ürəyim bulanırdı.

İlk dəfə idi ki, cinayət etdiyimə görə məni ilk cinayətləri olan məhbuslar olan kameraya yerləşdirməyə qərar verdilər. Cüzi rahatlıq gəldi ki, az cinayəti olan məhbuslar ilə birgə yaşayacaqdım. Buna baxmayaraq çox qorxurdum. Mən qatil deyiləm və qatillər olan yerdə sağ qalmaq üçün nə etməli olduğumu bilmirdim. Dəhşətli həyəcanlı idim və panik vəziyyət yaşayırdım. Özümə təsəlli verirdim ki, bu çətinliklər müvəqqəti idi. Günahsızlığım sübut olunacaq və mən buradan çıxacaqdım. Cinayətkarın kim olduğunun bilinəcəyinə, ədalətin qalib gələcəyinə inanırdım.

Həbsxana gözətçiləri məni kameraya gətirdilər. İçəridə məndən əlavə səkkiz nəfər var idi.

– Hər kəsə salam. – Qapının qarşısından hər kəsi salamladım.

– Salam. – Bir neçə nəfər salamımı aldı, digər məhbuslar isə başları ilə salam verdilər.

Mənə yatağımı göstərdilər. Həyatım boyunca belə iyrənc yataq görməmişdim. Ümumiyyətlə, otaq çox iyrənc idi. Ətrafdan tər, çirk qoxuları gəlirdi. Otağa Günəş işığı çox az daxil olurdu, otağın havası da boğanaq idi. Bu ümumi abu-hava fonunda bütün məhbusların üzündə qəm, kədər, ümidsizlik var idi.

Otağın ortasında köhnə, rəngi getmiş bir masa var idi. Bütün məhbuslar masanın ətrafında əyləşmişdilər. Bir oturacaq isə boş idi. Məhbuslardan ən yaşlısı mənə tərəf çöndü:

– Əyləş, cavan oğlan! – boş oturacağı əli ilə göstərərək dedi.

Həyəcanlı vəziyyətdə əyləşdim. Çox sıxılırdım.

– Özünü təqdim elə! – həmin məhbus dedi.

– Adım İlkindi. Əslində günahsızam.

Hər kəs qəhqəhə çəkdi.

– Hamı belə deyir. – Həmin məhbus dedi. Digər məhbuslar isə danışmırdılar və onu dinləyirdilər.

– Mən Turqutam. Bu kamerada hər şeydən xəbərdar olmalıyam. Baş verən hər bir hadisə mənə deyilməlidi! Gündəlik işləri də mən bölürəm.

– Sizi başa düşdüm.

– Bunu Balaca çağırırıq. – Yanında əyləşmiş balaca, cılız, uşaq üzlü oğlanı göstərdi. – Digər məhbuslarla istəsən özün tanış olarsan.

– Yaxşı, Turqut bəy.

– Çox gözəl. Hamımız burada həmişə qalmayacağıq. Bir müddət sonra hər kəs daimi saxlanma məntəqəsinə gedəcək. Azad olunanlar da olacaq. Hər kəs bir-birini yola verməli, yola getməlidilər. İndi isə dincəl. Sabah səhər sənə də iş verəcəm.

– Yaxşı.

Turqut yatağına tərəf getdi. Onun ardınca hər kəs ayağa durdu və işlərini davam etdilər.

Ayaqyolunun vəziyyəti çox iyrənc və dözülməz idi. Məhbuslar burada necə yaşayırdılar? Onlar bunu necə bacarırdılar? Çarəsizlik tədricən üzərimə çökürdü. Özümü sakitləşdirməyə çalışırdım ki, istintaq ədalətli keçəcəkdi və mən tezliklə öz evimdə yaşayacaqdım.

Gecə yerimdə nəinki yata bilmirdim, uzanmağa belə əziyyət çəkirdim. Gecə ərzində çox az, bəlkə iki-üç saat yata bildim. Düşüncələr məni rahat buraxmırdı. Nələrin baş verdiyini, nələr yaşadığımı anlaya bilmirdim. Almazı, Cavadı itirmişdim, əlavə də bu cinayət hadisəsi qarşıma çıxmışdı. Etmədiyim, xəbərim olmadığım cinayətə görə cəza çəkirdim. Görəsən ailəm necə vəziyyətdə idi? Cavada yaxşı ata olmaq istəyərkən başıma gəlməyən pis hadisə qalmadı. Ümid edirdim ki, ailəm mənə inanacaqdı. Hər kəs məni yaxşı biri kimi tanıyırdı. Heç kəs mənim cinayətkar olduğuma inana bilməzdi. Cavad da məni çox gözəl tanıyırdı, inanırdım ki, oğlum məni anlayacaqdı.

Hələ səhər açılmamışdı və mən artıq oyaq idim. Bədənim əsirdi, hayqırtı ilə ağlamaq, bağırmaq istəyirdim. Son iki-üç həftə əvvəl yaşadığım həyatıma geri qayıtmaq istəyirdim. Valideynlərim, Almaz, Cavad üçün çox darıxmışdım. Atamgilə getdiyimiz son günə

qayıtmaq istəyirdim. Həmin gün necə də gözəl gün idi, hamımız necə də xoşbəxt, mehriban idik. Kaş Qara ilə işləməyə razı olmazdım. Kaş yaşadığım bütün bu hadisələr yuxu olardı və səhər oyananda yanımda Almazı görərdim.

Məhbuslar yuxudan oyanmağa başlayırdılar. Onlar bir-biri ilə danışmırdılar, ünsiyyət qurmurdular. Yalnız Turqut danışırdı, hər kəs onu dinləyirdi. Gün boyu bütün məhbuslar məşğul olduqları işləri ilə başlarını qarışdırırdılar. İşləri bitəndə isə öz yerlərinə gedərdilər və öz daxilindəki dünyalarına səyahət edirdilər.

– Gəl bura, İlkin! – Turqut oturduğu yerə məni çağırdı.

– Buyurun, Turqut bəy.

– Hamam-ayaqyolu işi sənlikdi. Balaca sənə ləvazimatları göstərəcək, işə başlayarsan.

– Yaxşı.

– Görünür narazısan?

Əslində narazı idim. Həm təmizlik işini bacarmırdım, xüsusən də ayaqyolunun təmizlik işini heç bacara bilməzdim. Üstəlik belə bir ayaqyolundan çox iyrənirdim. Qorxu hissim isə daha güclü idi və bu səbəbdən narazı olduğumu deyə bilmədim.

– Xeyr, sizi başa düşdüm.

– Çox gözəl.

Kameraya həbsxana gözətçiləri daxil oldular və ətrafı, məhbusları yoxladılar. Onlar çox soyuqqanlı və ciddi idilər. Onlar məhbuslara aşağılayıcı tərzdə baxırdılar.

Çox ac idim, amma heç nə yeyə bilmirdim. Sadəcə çay içə bil-

dim. Gözümün önünə ayaqyolunun son halı gəlirdi. Necə təmizləyəcəyimi bilmirdim. Yalnız onu bilirdim ki, təmizləməliyəm və təmizləyəcəkdim. Bəlkə bu düşüncələr səbəbindən heç nə yeyə bilmirdim.

Valideynlərimə görə çox narahat idim. Özlərini necə hiss edirdilər? Mənim həbsxanada olduğumu bilirdilər? Onlara baş verənləri necə anladacaqdım? Bütün bunlar məni sıxırdı. Telefon ilə danışmaq icazəsindən istifadə etməyə qərar verdim və atama zəng etdim.

– Alo. – Atamın səsindən hiss olunurdu ki, yaxşı deyil.

– Salam, ata.

– Sən… – Atam danışığına fasilə verdi. – Sənin zəng etməyə də üzün var?

– Ata, sənin xəbərin var?

– Var, İlkin. Mənim oğlum xəyanətkar, cinayətkar, qatildi. Sənin müdirin zəng etdi. Bilirsən mən nə halda idim?

– Ata, mən günahsızam.

– Hə, hə, günahsızı tutub basıblar türməyə.

– Doğurdan deyirəm. Sən necəsən? Anam necədi? Almaz, Cavad bilir?

– Oğlumuzun sayəsində çox yaxşıyıq. Onlardan xəbərim yoxdu.

– Ata, sən mənə inan.

– Sənə vəkil lazımdı?

– Sualıma cavab ver. İnanmırsan mənə?

– İlkin! – atam qışqırdı. – Sənə vəkil lazımdı?

– Hə.

– Yaxşı. Danışacam.

– Çox sağ ol, ata.

– Bir daha zəng eləmə. Anan da, mən də səninlə danışmaq istəmirik. Sən bizim boyumuzu yerə soxdun. Biz əziyyət ilə səni böyütdük. İndi də zibilin çıxdı.

– Ata…

Atam artıq dəstəyi yerə qoymuşdu.

Sanki bütün beynim donmuşdu. Valideynlərim mənə inanmırdılar, məni qatil hesab edirdilər. Atamın dediyi kəlmələr bıçaq kimi idi və məni yaralayırdı. Nə etməli olduğumu bilmirdim. Atam, anam mənə nifrət edirdilər. Tək-tənha qalmışdım, kimsəsiz idim. Kimə zəng edə bilərdim? Kim ilə dərdimi bölüşə bilərdim? Kim mənə inanardı? Həyatımı tam ailəmə həsr etmişəm. Artıq çox uzun müddət idi ki, dostlarımdan uzaqlaşmışdım. Artıq uzun müddət idi ki, onları görmürdüm. Mənim üçün yalnız ailəm var idi. Cavad həmişə mənə deyərdi ki, "Mənim əmim niyə yoxdu? Bəs sənin niyə dostların yoxdu? Onlar mənim əmilərim olardılar." Almaz evləndikdən sonra yalnız var-gücüm ilə işləyirdim. Qeyri-iş saatlarımı isə ailəm ilə keçirtməyə sərf edirdim. Artıq son beş il idi ki, görmədiyim, axtarmadığım insanlara necə zəng edə bilərdim? Köhnə iş yoldaşlarım ilə də yaxın deyildim. Onlar adətən ayda bir neçə dəfə yığışırdılar, birlikdə vaxt keçirdirdilər. Onlar ilk aylarda mənə görüşlərə gəlməyi təklif edirdilər. Hər dəfə imtina etdiyimi görəndə isə artıq onlar məndən uzaqlaşırdılar. Qısası heç kəsim yox idi, sanki yetim bir uşaq idim.

## II

– Mənimlə gəl! – Balaca yaxınlaşdı və məni düşüncələrimdən ayırdı. Onun ardınca ayaqyoluna getdim. Döşəmədə xlor, plastik qablarda müxtəlif yuyucu vasitələr, bir neçə bozarmış əsgilər var idi.

– Bunlar ləvazimatlardı. Yorulmayasan.

– Yaxşı. Çox sağ ol.

Balaca qapıya tərəf gedirdi ki, qəflətən geri döndü.

– Çalış ki, işini hərtərəfli, tam gör. Sonra sənə problem olmasın.

– Yaxşı. Çox sağ ol.

Nədən başlayacağımı, nə edəcəyimi bilmirdim. Əsgilər o qədər iyrənc idi ki, onları əlimə götürə bilmirdim. Ayaqyolunda üfunət iyindən dayanmaq mümkün deyildi. İşə başladım, özümü saxlaya bilmirdim və ögüyürdüm. İşim çox ləng gedirdi. Həm təcrübəsizlikdən, həm də ətrafın iyrəncliyi səbəbindən cəld işimi görə bilmirdim. Heç bir zaman ayaqyolu təmizləyəcəyim ağlıma gəlmirdi. Hələ üstəlik həbsxana ayaqyolusunu təmizləmək ümumiyyətlə, ağlasığmaz idi. Yəqin ki, təmizliyə bir saatdan çox vaxtım getdi. Son mərhələdə döşəməni sildim. Balacanın məni xəbərdarlıq etməsini xatırladım və ətrafı diqqətlə yoxlamağa başladım. Ümidvar idim ki, heç nəyi unutmamışdım. Ayaqyolundan çıxmaq və Balacanın yanına getmək qərarına gəldim. İlk öncə onun baxmağını istəyirdim. Balaca Turqutu tanıyırdı və nəyə diqqət edəcəyini bilirdi. Lakin qapını açar-açmaz Turqut içəri daxil oldu. Sanki güdürdü ki, işi nə zaman bitirəcəkdim.

– Yaxşıdı, İlkin.

Başım ilə təsdiq etdim. Elə hiss edirdim ki, vacib imtahandan uğurlu keçmişəm və rahatlamışdım.

– Amma ki, tam yaxşı deyil. – Turqut güzgünü göstərdi.

– Onu unutmuşdum. – Dedim və başımı aşağı saldım.

– Eybi yox. – Dedi və boynumdan tutaraq üzümü güzgüyə sıxdı. – Yala güzgünü!

– Əsgi ilə silərəm. – Deməyi çətinliklə bacardım.

– Sənə dedim ki, yala! – Dedi və üzümü güzgüyə daha da sıxdı.

Məcbur yaladım. Özümü saxlaya bilmirdim və qaytarmağım gəlirdi.

– Yaxşı yala! Hər tərəfini yala! Ögümə!

Həyatım boyunca belə dərəcədə iyrənməmişdim. Bütün güzgünü yalayandan sonra Turqut məni buraxdı.

– Belə yalarsan. Bir işi görəcəksənsə təmiz gör. İndi götür əsgini güzgünü təmizlə! – əmr etdi və çıxdı.

Dəhşətli dərəcədə ürəyim bulanırdı. Dilimdə tük, sabun dadları var idi. Özümü saxlaya bilmədim və qaytardım. Yaxşı ki, mədəm boş idi. Güzgü işini bitirdim və oradan çıxdım. Yerimə gedəndə Balaca mənə təəssüflənmiş kimi baxırdı. Sanki baxışları ilə "mən sənə demişdim axı" kimi baxırdı. Bütün məhbuslar başlarını aşağı salıb işləri ilə məşğul olurdular. İşlərini bitirənlər isə tənha dünyalarına qapılırdılar.

Gözətçilər bizi hava almaq üçün gündəlik gəzintiyə apardılar.

Havanı ac gözlüklə udurdum. Mənə elə gəlirdi ki, artıq günlər idi ki, havaya çıxmırdım. Bədənim çox zəifləmişdi. Həm çox ac idim, həm də yuxusuz idim. İndi mənə nə versələr yeyərdim. Sonra isə harada desələr orada da yatardım.

Həyətdə belə məhbuslar bir-biriləri ilə danışmırdılar. Bütün məhbuslar özlərinin təyin etdiyi trayektoriya boyu gəzişirdilər. Tək mən oturmuşdum.

Turqut ilk baxışdan normal görsənirdi. Amma əsl üzü başqa idi. Artıq anlayırdım ki, niyə hər kəs ondan qorxurdu, çəkinirdi. Onun istintaq müddəti bitən gün məhbuslar bayram edəcəkdilər. Bəlkə də ondan sonra başqası gələcək və ondan daha mundar olacaqdı.

Yeməyin iyrənc olmağına baxmayaraq, onu acgözlüklə yedim. Bəlkə heç bir zaman belə iyrənc yemək yeməmişdim. Gözümün önünə valideynlərim, Almaz, Cavad gəlirdi. Mən daha onlara maraqlı deyildim və onlara lazım da deyildim. Bəlkə də mənsiz daha yaxşı yaşayardılar. Cavad bəlkə də böyüyəndə məni unudar, məni unutmasa da xoş günlərimizi unudar. Yəqin ki, bundan sonra onun gözündə əclaf, ən pis ata olacam. Bunu düşünə belə bilmirdim, sanki dəli olacaqdım.

O dərəcə yorğun idim ki, bu gecə səhərə qədər yatdım. Səhər oyanan kimi ayaqyolu işimi düşündüm. İşimdə çox diqqətli olmalı idim, Turqutun növbəti dəfə məni alçatmasına dözə bilməzdim. İşimi səliqəli və təmiz görməkdən savayı başqa çıxış yolum yox idi. Turqut məni alçatmaqdan əlavə, məni döyə də bilərdi. Turqut məni vur-

mağa çalışsa və ya vursa məhbuslardan heç kəs bir söz belə deməyəcəkdi. Bəs həbsxana gözətçiləri? Böyük ehtimal ki, onların veclərinə də olmazdım.

Dünən ayaqyolunu təmizləməyimə baxmayaraq, ətraf yenə də iyrənc vəziyyətdə idi. Bu gün də dünən olduğu kimi ögüyərək işimi gördüm. Güzgüyə isə xüsusi diqqət yetirdim. İşimi bitirəndən sonra oradan çıxdım. Turqut oraya daxil oldu və bir neçə dəqiqə sonra yerinə qayıtdı. Mənə heç bir söz demədi. Yəqin ki, gördüyüm işdən razı qalmışdı. Artıq alçalmaqdan və ya döyülməkdən qurtulmuşdum.

Gözətçi polis məni vəkilimin gözlədiyini bildirdi. Canım atam, mənə inanmasa da, məni qatil hesab etsə də, mənə kömək əli uzatmışdı.

– Salam, İlkin bəy. – Vəkil dedi və üzbəüz oturacağı göstərdi.

– Salam. Adınızı bilmirəm. – Əyləşərək dedim.

– Adım Elnurdu. Məni Ayxan bəy buraya göndərib.

– Bilirəm, Elnur bəy.

– Sizin işiniz haqqında məlumatım var. Sizin ifadədə yazılıb ki, siz cinayətdə günahkar olduğunuzu inkar edirsiniz.

– Bəli, inkar edirəm. Çünki, mən etməmişəm.

– O zaman hadisənin necə baş verdiyini danışın. Məndən heç nə gizlətməyin. Mən sizi müdafiə etmək üçün buradayam.

– Mən yeni işə düzəlmişdim. Hadisə baş verən gün müdir mənə zəng elədi və dedi ki, həmin yerə gedim və mən də getdim. Ətraf qaranlıq idi və işığın yandırılma yerini bilmirdim. Telefonumun fə-

nəri ilə ətrafa baxdım və ölü adam gördüm. Cəmi iki-üç dəqiqə sonra müdirim gəldi. Sonra baş verənləri bilirsiniz.

– Neçə müddət idi ki, yeni işinizdə işləyirdiniz?

– Bir həftə idi. Mənim qatil olduğuma dair heç bir sübut yoxdu. Onu başqası bıçaqlamışdı. Bıçaq ölünün yanında idi. Orada mənim barmaq izimi axtarın. Tapa bilməzsiniz.

– Silahda sizin barmaq izinizin olmamağı sizin günahsız olmağınızı sübutu ola bilməz. Siz silahı silə bilərsiniz, bu zaman barmaq izləriniz də silinə bilər. Üstəlik sizin müdiriniz gələndə adam yeni bıçaqlanmışdı.

– Mən gəlməmişdən bir neçə dəqiqə əvvəl başqa adam bıçaqlayıb.

– Sizin nə zaman gələcəyinizi yalnız müdiriniz bilirdi. Bunu ya müdiriniz edə bilər. Ya da ki, sizin müdirinizin nə zaman gəldiyini bilən adam edə bilərdi.

– Qara bəy niyə öz işçisini öldürsün? Adamı ölü görəndə çox pis olmuşdu.

– Sizin vəziyyətiniz ağırdı. Sizi meyid ilə təkbətək görüblər. Amma mən çalışacam ki, sizin günahsızlığınızı sübut edim.

– Elnur bəy, siz mənə inana bilərsiniz.

– Mən mütəmadi olaraq, yanınıza gələcəm. Sizin günahsız olduğunuzu sübut etmək üçün əlimdən gələni edəcəyəm. Siz də yaxşı fikirləşin. Mənə deməli olduğunuz hər hansı bir önəmli nüans yadınıza düşə bilər.

– Yaxşı, Elnur bəy. Çox sağ olun.

– Siz sağ olun.

Vəkil ilə görüşüm azadlığa çıxmaq ümidimi azaltdı. Sanki mənə teatr qurulmuşdu. Qaranın bunu etdiyinə dəqiq inanmırdım. Onun bu cinayəti etməsi ağılsızlıq olardı. Üstəlik bunu etmək ilə nə qazandı? Öz işçisi öldü, özünə zərər gəldi. Həm də mənə pislik niyə edərdi ki? Heç məni tanımır. Qara mənim ilə xoş davranırdı, mənə iş təklif etməklə yaxşılıq etmişdi. Qara pis insan deyildi, o an əsəbi ola bilərdi. Mən onunla danışmalı idim, bəlkə Qara mənə inanardı. Bəlkə doğurdan da onun düşməni var və həmin düşmən bu hadisəni edib. O zaman Qara öz düşmənini cəzalandırardı və mən azadlığa çıxardım.

Kaş sadəcə iki dəqiqə həmin yerə gec gedərdim. Ya da Qaranı gözləyərdim, onunla birgə içəri daxil olardım. Heç ağlıma da gələ bilməzdi ki, başıma belə fəlakət gələ bilərdi.

Atam ilə telefonla danışanda onun vəkil ilə danışacağını deməsi mənə çox böyük xəcalət vermişdi. İndi həmin vəkil gələndə bu xəcalət hissim ikiqat artmışdı. Mən atama mənəvi ağır zərbələr endirsəm də, bütün bu hadisələri ona yaşatsam da atam məni düşünürdü. Bəlkə zaman keçdikcə mənə inanardı. Bəlkə də vəkil mənim ona danışdıqlarımı danışardı, hadisənin gedişatını bildirər və atam mənə inanardı. Ən gözəli isə mənim günahsızlığımın sübut olunması olardı. O zaman nəinki atam, hətta hər kəs mənə inanardı.

## III

Növbəti gün telefon ilə danışmaq haqqımdan istifadə etmək qərarına gəldim. Atam ilə danışmalı idim, ona öz təşəkkürümü bildirməli idim. Ən çətin anımda yanımda olmuşdu, kömək etmişdi. Cavad üçün çox darıxmışdım, onu görmək üçün burnumun ucu göynəyirdi. Bəlkə atam oğlumu yanıma gətirməyə razı olardı. Düzdü, Cavadın buraya gəlməsini istəmirdim, onun atasını qatil kimi cəza aldığını bilməyini istəmirdim. Cavad mənə inanardı? Bəlkə də hələ anlamazdı həbsxana haradı, cinayət nədi.

– Salam, ata. – Atam ilk zəngdən dəstəyi götürdü.

– Salam.

– Necəsən? Vəkilə görə çox sağ ol.

– Sən sağ ol. Almazın da orada olduğundan xəbəri var, tezliklə vəkilini göndərəcək. Atası keçən həftədən demək olar ki, işi həll edib, imza çəkəcəksən.

– Cavad necədi? Onun xəbəri var? Baş verənləri başa düşür?

– Uşaq kefsizdi. Tam anlamır, amma çox şeyi başa düşür, böyüklərin danışdıqlarını eşidir.

– Cavad ilə görüşürsüz? Məni soruşur?

– Hə, bəzən görüşürük. Yox, səni soruşmur.

– Yaxşı. Bura Cavadı gətirə bilərsən?

– Dəli olmusan? Anası icazə verməz. Həm də türmə uşaq yeridi?

– Hamısını bilirəm. Sadəcə Cavadsız dözə bilmirəm. Anasından əvvəl Yaşar icazə verməz.

– Yaşar daha ona qarışmır. Almaz kirayə evə köçüb.

– Mənim evimə getsinlər, orada qalsınlar. Hələ ki, mən yoxam.

– Ay İlkin, heç nədən xəbərin yoxdu.

– Nə olub?

– Almaz özünə sevgili tapıb. Yaşarla da mübahisə edib. Almaz da onlardan çıxdı, uşaqla getdi kirayəyə. Sevgilisi də bəzən gəlir. Cavad deyir ki, çox mehriban kişidi.

– Nə danışırsan, ata? Elə şey ola bilməz. Almaz etməz.

– Bəs sən edəndə yaxşı idi? Bir-iki günə boşanır, azad qadındı.

Başım bərk ağrıdı. Son dəfə Cavad məndən üz döndərəndə bu vəziyyətdə idim. Almazı başqası ilə birlikdə düşünə belə bilmirdim.

– Alo, İlkin.

– Hə, ata, eşidirəm. Yalvarıram sənə Cavad ilə gəl bura. Cəmi bir dəfə gətir, səndən başqa heç nə istəmirəm.

– Olmaz!

– Sənə yalvarıram. Oğlumu görmək istəyirəm.

– Yaxşı, çalışaram.

– Çox sağ ol, ata, əllərindən öpürəm. Çox sağ ol.

– Sağ ol.

Hələ ki, telefon ilə danışma müddətim bitməmişdi. Almaza zəng etdim ki, nə baş verdiyini anlatsın. Bəlkə atam səhv anlamışdı. Bəlkə Almazın sevgilisi yoxdu.

– Alo.

– Salam, Almaz.

– Zəng eləmə mənə.

– Qapama telefonu, dayan. Sən niyə kirayədə qalırsan?

– Sənə dəxli yoxdu.

– Özünə sevgili tapmısan?

– Sən tapanda olar, mən yox?

– Mən sevgili tapmamışdım. Necə belə rahat özünə kişi tapa bildin? Dözə bilmirdin? Oğlundan utanmırsan? Sən necə anasan?

– Sən edəndə sənə ayıb olmadı?

– Mən sərxoş idim, özümdə deyildim. Heç nə xatırlamıram. Sən isə ayıqsan, həm də əclafı oğlunun yanına gətirirsən. Belə tez necə tapdın? Yəqin ki, əvvəldən var idi.

– Səsini kəs. Daha mənə zəng eləmə!

– Etməyəcəm. Mən azad olacam və Cavadı səndən alacam.

– Sən qatilsən, sənə uşaq verəcəklər?

– Mən günahsızam və sən bunu çox gözəl bilirsən. Məni çox yaxşı tanıyırsan. – Dedim və dəstəyi qoydum.

Çox əsəbi və hirsli idim. Sevdiyim, daim hörmət etdiyim, saf, təmiz qadın hesab etdiyim Almaz özünə sevgili tapmışdı. Mənim də səhvim var idi, razıyam çox böyük səhv etmişdim. İlk xəyanəti mən etmişdim. Sadəcə həmin an ayıq deyildim və etdiyim hər hərəkəti şüursuz şəkildə etmişdim. Almaz isə bunu şüurlu şəkildə etmişdi. Artıq ona nifrət edirdim və ondan tez boşanmaq istəyirdim. Sevdiyim qadın bir ay keçməmişdi və özünə sevgili tapmışdı. Üstəlik utanmadan sevgilisini oğlunun gözlərinin önündə evə gətirmişdi. Yazıq Cavadım indi nələr yaşayırdı. Kaş tez bir zamanda buradan çıxardım

və oğlumu tərbiyəsiz qadından xilas edərdim.

– İlkin! – Turqut məni səslədi.

– Bəli, buyurun.

– Gəl, əyləş! – əli ilə yanında olan boş oturacağı göstərdi.

– Buyurun, Turqut bəy.

– Yanına gələn olub?

– Atam vəkil göndərmişdi. Yəqin ki, özü də gələr.

– Sənə azuqə niyə göndərmirlər, gətirmirlər?

– Mənə qarşı çox əsəbidilər.

– Sən burada rahat yeyirsən, içirsən. Bizim sənə borcumuz var?

– Mən bilmirdim. Üzrlü sayın.

– O zaman elə et ki, ya sənə yemək gətirsinlər. Ya da işləməlisən.

– Ayaqyolu işi?

– Ayaqyolu işi başqadı. Sənin borcundu, yaşamaq üçün edirsən. Yemək üçün isə əlavə işləmək lazımdı. Heç kəsin sənə borcu yoxdu ki, öz yeməyini sənə versin.

– Nə işləmək?

– Buraya mənə pay göndərmək üçün bir nəfər gəlir. Sən onunla görüşməlisən və gətirdiyini mənə verməlisən. – Mənə daha da yaxınlaşaraq pıçıltı ilə dedi.

– Nə pay gətirir?

– Gülməli şey soruşursan. Fikirləş, başa düşərsən.

– Qadağandı axı. Mənə əlavə cəza verə bilərlər.

– Narahat olma. Sən özünü yandırma. Sakit görüşə get, söhbət et, həmin adam sənə elə verəcək ki, heç kəs hiss etməyəcək. Sən də onun mənə verdiyini tam formada mənə verəcəksən.

– Özünüz niyə etmirsiz?

– Məni onun üstündə tutublar. Sən qatilsən, amma səni mal sayırlar. Məndən incimə. Heç kəsin ağlına gəlməz ki, sən belə bir şey edirsən.

– Yaxşı, razıyam.

– Heç kəsə bir söz demirsən. Birdən çaşarsan, məni satarsan. Peşman olarsan.

– Yox, narahat olmayın.

– Görüş vaxtını əvvəldən deyəcəm.

– Yaxşı.

Həyatda sağ qalmağım üçün razılaşmağa məcbur idim. Çox az miqdarda yemək yeyirdim. Az yeməkdən də qalsam məhv olardım. İnsan məcbur olarkən hər bir şeyə razı olur. Çətinlik insanın mənliyini sındırır, insanın demərəm dediklərini elətdirir. Atamdan yemək gətirməyini xahiş edə bilməzdim. Həm də valideynlərimin maddi imkanları zəif idi, gəlirləri yalnız təqaüdləri idi. Üstəlik atam mənə vəkil də təşkil etmişdi. Bu da öz növbəsində pul idi. Bir övlad kimi xeyrimi görməyiblər, yalnız zərərimi görürlər və görməyə də davam edirdilər. Mən onlara ağrılar yaşatdım, onlara dərd, əzab verdim. Bütün bunlara baxmayaraq, atam mənə vəkil göndərmişdi, Cavad ilə yanıma gəlməyə də razılaşmışdı. Atamın etdikləri artıqlaması

ilə mənə yetərdi. Həqiqətən də həyatda valideynlərin yerini heç kəs vermir. Onlara ən çox ağrıları biz – oğullar veririk, gözəl qadın görəndə kor kimi oluruq və valideynləri unuduruq. Çətinliyə məruz qalarkən isə yalnız valideynlər yanımızda olurlar, onlar bizə kömək əli uzadırlar. Mən isə yaxşı ata ola bilmədim. Övladım üçün gecə-gündüz çalışdım, lakin sonda əksinə oldu. Mən ümumiyyətlə ata ola bilmədim. Hansı ata oğluna dərd verər? Üzündə daim gülüş olan uşağın içi qəhərlə dolmuşdu. Bəlkə də indi daha da pisdi. Həyat yoldaşı da ola bilmədim. Mən yaxşı həyat yoldaşı olsaydım, Almaz başqası ilə sevgili olmazdı. Mən dostluğu da bacarmadım. Bu səbəbdən də zəng etməyə bir dost tapa bilmirəm. Dərdləşəcək, kömək istəyəcək bir dostum belə yoxdu. Mən nə övlad, nə ata, nə həyat yoldaşı, nə də dost ola bildim. Mən heç kəs oldum, bir boşluq oldum. Xəyanətkar, qatil oldum. Bundan sonra həyatımda baş verəcəklərin nə önəmi var idi? Tək əlimdən gələn sağ qalmaq idi. Yaşamaq yox, yaşamağı bacarmırdım. Sadəcə nəfəs almaq, tək bacardığım o idi.

## IV

Gözətçilər məni atam ilə görüşməyə apardılar. Görəsən Cavad da gəlmişdi? Mən Cavada nə deyəcəkdim? Cavada bütün baş verənləri necə anladacaqdım? Otağa daxil oldum və atam ilə Cavadı gördüm. Cavad atamın qucağında oturmuşdu, çox mehriban görsənirdilər. Onlara yaxınlaşdım və üzbəüz əyləşdim.

– Necəsən, ata? Sən necəsən, Cavad?

– Yaxşıyam. – Atam dedi. – Cavad, atanla salamlaş. – Atam

Cavada baxaraq dedi.

– Salam, ata. – Cavad sakit səslə dedi.

– Necəsən, oğlum? Mənim üçün darıxmısan?

– Yaxşıyam. Hə, darıxmışam. Evimizə istəyirəm.

Cavad atamın qucağından düşmürdü. Son görüşdüyümüz gün olduğu kimi kefsiz idi. Onun bu kefsizliyi məni sıxırdı.

– Ata. – Cavad ciddi söhbətə başlayırmış kimi danışmağa başladı, – anamla başqa evdə qalırıq. Bizə arada bir əmi gəlir. Mən yatanda mənə nağıl danışır.

Sanki başıma qaynar su tökmüşdülər. Almaz öz tərbiyəsizliyinə oğlumuzu alət etmişdi.

– Mən istəyirəm ki, mənə ancaq sən nağıl danışasan. Başqa əmi istəmirəm danışsın.

– Danışacam, oğlum. Mən buradan çıxacam və biz evimizə gedəcəyik. Hər gecə mən sənə nağıl danışacam. Sən yetər ki, məndən üz döndərmə.

– Sən niyə buradasan? İşləyirsən?

– Hə, hə işləyirəm. Bura iş yerimdi. Cavad, sən dediyin əminin dediklərinə fikir vermə. İşim bitsin, səni evə aparacam. Bura gəldiyini anana deməzsən. Yaxşı?

– Sən yalançısan. – Cavad əsəbi, amma sakit səslə dedi.

– Ataya belə söz demək olmaz, Cavad. – Atam söhbətə müdaxilə etdi.

– Atam keçən dəfə də dedi ki, evimizə gedəcəyik. Amma get-

mədik. Anam deyir ki, atam yalançıdı. Deyir ki, həmin əmi mənə ata kimi olacaq.

Anidən ürəyim sancdı, çox bərk ağrıyırdım, ikiqat əyilmişdim. Cavadın sözləri məni öldürürdü.

– İlkin, yaxşısan? – atam narahat oldu.

Boğulurdum, ürəyim çox sürətlə döyünürdü.

– Hə, ata. Sağ ol, ata, sağ ol, Cavad. Sizi çox sevirəm.

Atam Cavadı oturacaqda otuzdurdu və narahat, qorxmuş halda yanıma gəldi:

– Yaxşıyam. Cavadı apar. Onun yanında ol. Çox sağ ol.

– Ata, mənim sözlərimə görə pis oldun? – Cavadın səsi titrəyirdi.

– Yox, oğlum. Belim ağrıyır, soyuq olub. Siz gedin, səni çox sevirəm. Babanın sözünə qulaq as.

Həbsxana gözətçisi mənə durmağa kömək etdi və kameraya apardı.

Baş verənləri anlaya, təhlil edə bilmirdim. Almaz başqası ilə sevgili idi, hələ də Cavada deyirdi ki, ona ata kimi olacaqdı. Bir ata üçün bundan ağır nə baş verə bilərdi? Mən artıq ata deyildim. Hələ Cavadın mənə yalançı deməsi məni məhv etmişdi. Həmin gün həyət gəzintisinə çıxmadım, yemək yemədim. Saatlarla uzandım və yaşadıqlarımı anlamağa çalışdım. Baş verənləri qəbul edə bilmirdim. Hadisələr nə qədər ağır olsa da, onları növbə ilə qəbul eləməyə başlamışdım. Amma bunu qəbul edə bilmirdim. Bir qığılcım ümidim belə qalmamışdı. Oğlum tamam əlimdən getmişdi. Bir atam qalmışdı.

Ona da ancaq dərd verirəm. Bəlkə də Cavada dünyanın ən yaxşı atası olmaq üçün çalışmasaydım indi bunlar baş verməzdi. Köhnə işimdə sakit işləyərdim. Artıq tamahım baş yarmışdı.

– İlkin, bu gün işini görməmisən. Turqut səs eləməmiş işini gör. Əksinə sənə pis olar. – Balaca yaxınlaşdı və xəbərdarlıq etdi.

– Düzdü, tamam unutmuşam. Çox sağ ol.

Toparlanmalı və işimi yerinə yetirməli idim. Düşüncələrimdən uzaqlaşmalı idim. Cavadın mənə yalançı deməsi qulaqlarımda dəfələrlə səslənirdi.

Turqutun güzgü məsələsini unutmamışdım. Məni bu dərəcədə alçaldan olmamışdı. İşimi görməli və daha alçalmamalı idim. Bəlkə də iş görərdim və məni yoran düşüncələrdən uzaqlaşardım.

Gündəlik işim daha mənə ilk gün olduğu kimi ağır gəlmirdi. Artıq öyrəşmişdim. İnsan həyatda qalmaq üçün, sadəcə nəfəs almaq üçün hər şəraitə öyrəşir və hər pisliyə razılaşır.

Bir anlıq güzgüdə özümə baxdım. Çox dəyişmişdim, sanki yaşımdan böyük görsənirdim. Gözlərimin altında torbacıqlar yaranmışdı. Üzüm arıqlamışdı, elə bədənim də arıqlamışdı. Şalvarımdan kəməri çıxartsam yəqin ki, əynimdən düşərdi. Normadan çox az və sağlıqlı olmayan yeməklər yeyirdim. Meyvə isə ümumiyyətlə yemirdim. Yanaqlarımda çuxurlar əmələ gəlmişdi. Məndə buraya gələndən dəyişiklik var idi. Yəqin ki, zaman keçdikcə daha çox dəyişəcəyəm. Qatil olmayan birisinə qatil damğasının vurulması və səbəbsiz cəza çəkməsi hər kəsi dəyişər.

İşimi bitirdim və ayaqyolundan çıxdım.

– İlkin, gəl bura! – Turqut məni yanına çağırdı.

– Çox pis vəziyyətdə içəri girdin. İşini də gec gördün. Elə bilmə ki, mən fikir vermirəm.

– Üzrlü sayın.

– Üzrlü saydıq. – Yanına qoyduğu dolu stəkanı uzadaraq dedi. – İç! Sakitləşdirəcək səni, özünə gələrsən.

– Bu nə çayıdır?

– Qorxma, ondan deyil. Çobanyastığıdı. Qorxduğun bahalıdı, sənə istəsən də vermərəm.

– Çox sağ olun. – Dedim və içdim.

Çobanyastığı çayı mənə həqiqətən də yaxşı təsir etdi. Beynim sakitləşdi, gərgin bədənim boşaldı. Çay sanki rahatlıq, hüzur verdi. Özümə gəlmişdim.

– Çay çox yaxşı təsir etdi. Çox sağ olun. – Bir neçə dəqiqədən sonra yaxınlaşdım və təşəkkür etməyi özümə borc bildim.

– Sən sağ ol. Bir daha işini gecikdirmə.

– Baş üstə. – Dedim və yerimə qayıtdım.

Sabah atama zəng etməli idim. Bu gün mənim vəziyyətimə görə pis olmuşdu və qorxmuşdu. Deyəcəm ki, gələndə paltarlarımdan gətirsin. Artıq mən də iyrənc qoxurdum. Artıq uzun müddət idi ki, eyni paltarlarda qalmışdım.

Anam üçün çox darıxmışdım. Anam məni çox sevirdi, hər zaman əzizləyirdi. Yəqin ki, vəziyyətimi atamdan maraqlanırdı. Oğlunun etdiyi mundarlıqları bağışlaya bilməməsinə görə onu qınamırdım. Təsəvvür edirdim ki, qohumlar valideynlərimə qarşı necə pis

rəftar edirdilər. Bunları düşündükcə özümə yer tapa bilmirdim. Mən nə edə bilərdim axı? Mən günahsız idim, mənim cinayəti etməyim sübut olunmamışdı. Məhkəmə qərar verməmişdi, sübut yox idi, hələ istintaq davam edirdi. Üstəlik daimi həbsxanada da deyildim. Onların sübutları olmayan halda mənə necə qatil hökmü oxuya bilərdilər? Sübutlar da heç bir zaman olmayacaqdı, çünki mən etməmişəm. Belə vəziyyətdə niyə mənə inanmırdılar?

Bir anlıq dərin yuxum gəldi, göz qapaqlarım ağırlaşdı. Eyni həbsxana şəraitinə, eyni üfunət qoxularına, xorultu səslərinə baxmayaraq, dərin yuxuya daldım. Yuxumda Cavadı görürdüm. Onu öpürdüm, qucaqlayırdım, bağrıma basırdım. Dəniz kənarında oynayırdıq. Cavad adətən olduğu kimi, gülümsəyirdi, hətta gülüşünün səsini də duyurdum. Cavad məni qucaqlayırdı, öpürdü. Suyu şappıldadırdı və ürəkdən gülürdü. İncə qolları ilə boynumdan yapışmışdı. Hətta onun gözləri belə gülürdü.

– İlkin, İlkin, dur İlkin! – Balaca məni silkələyirdi.

Qışqırdım və yerimdə hoppandım.

– Səhərdi? – Yanımda qışqıran Balacadan soruşdum.

– Hə, tez dur! Yoxlamağa gələcəklər.

Tez yerimdən durdum və hər kəs kimi başımı aşağı saldım, ayaq üstə dayandım. Yaxşı ki, Balaca məni yuxudan oyatdı. Məni cəzalandıra bilərdilər. Cəzanın nədən ibarət olduğunu isə bilmirdim. Turqutun verdiyi çay məndə şübhələr yaratdı. Çobanyastığı çayı bu dərəcədə təsir göstərə bilməz. Bəlkə dünən çox yorğun idim. Ona görə də yuxum dərin oldu. Turqut deyirdi ki, zəhər bahadı və mənə

onu verməz. Həqiqətən də adam ona həm pul verir, həm də buraya çətinliklə gətizdirir ki, mənə versin? Absurd bir fikir idi. Üstəlik çay mənə pis təsir etməmişdi, sadəcə sakitləşdirmişdi.

## V

– Salam, ata, necəsən? – atama zəng etmişdim.

– Yaxşı, sən necəsən? Özünə gəldin? – atamın narahat səsini eşitdim.

– Hə yaxşıyam. Narahat olma. Cavadın dedikləri ağır gəldi.

– Gələr də. Cavada tapşırdım ki, anasına deməsin. Yoxsa anası daha görüşməyimizə icazə verməz.

– Qələt eləyir. Mən çıxacam, Cavadı ondan alacam. Almaz ana deyil. Belə ana olmur.

– Yaxşı, yaxşı.

– Anam necədi? Mənə görə pis deyil ki?

– Yaxşıdı.

– Bəs qohumlar? Sizə artıq söz demilər?

– Ağızlarını bağlaya bilmərəm ki. Sayəndə hər şey deyirlər.

– Ata, mən günahsızam.

– Yaxşı, yaxşı.

– Mənə paltar göndərə bilərsən? Özün içəri girmə, bilirəm ki, məni burada görmək sənə ağır gəlir.

– Yaxşı, gətirərəm.

– Çox sağ ol, ata.

– Sağ ol.

– Səni, anamı çox sevirəm. Hər şeyə görə bağışlayın.

– Yaxşı, sağ ol, İlkin. İşim var.

– Sağ ol.

Günlərim monoton formada davam edirdi. İşimi görürdüm. Həyət gəzintilərində mən də artıq digər məhbuslar kimi öz trayektoriyam üzrə gəzirdim. Yay artıq bitmişdi, zaman sürətlə gedirdi. Özümü həbsxana şəraitinə uyğunlaşdırmağa çalışırdım. Artıq ümidim çox az idi. Daha vəkilim yanıma gəlmirdi. Onun mənə deyəcəyi sözü, edə biləcəyi yaxşılığı yox idi. Hələ istintaq davam edirdi. Yaşadığım mühitə öyrəşməyə məcbur idim.

Atam paltarlarımı çox tez göndərdi. Uzun müddət əynimdə olan çirkli paltarlardan sonra təmiz paltar geyinmək insana rahatlıq bəxş edirdi. Həm də artıq havalar sərinləşirdi.

Yeməyimi Turqut təşkil edirdi, işimi rahatlıqla görürdüm. Daha dəhşətli dərəcədə iyrənmirdim. Artıq gecələr də yata bilirdim. Həmin tər, çirkli corab qoxularına, xorultulara, çarpayıların cırıltı səslərinə öyrəşmişdim. Digər məhbuslara bənzəməyə başlamışdım.

– İlkin, gəl bura! – Turqut qaşqabaqlı halda məni yanına çağırdı.

Bir anlıq içimə qorxu düşmüşdü. Məgər səhvim var idi?

– Buyurun, Turqut bəy.

– Bu gün gələcək. Səni çağıracaqlar. Sadəcə söhbət edəcəksən, özünü yandırma, həyəcanlanma! Köynəyinin qolunu bacardığın qədər uzat, orada da əllərin masanın üstündə olsun. Köynəyinin qoluna

atacaq. Ayağa duranda ehtiyatlı ol! Düşürmə! Bu da odu. – Balaca əzilmiş şəkli mənə göstərdi.

– Birdən məni tutsalar nə edim?

– Tutmayacaqlar. Dediklərimi edərsən, heç nə olan deyil. Get özünü hazırlaşdır.

– Yaxşı, Turqut bəy.

Turqutun dediklərindən çox həyəcanlanmışdım. Bunu etməyə özüm razılaşmışdım və bu anın gələcəyini bilirdim.

Həbsxana gözətçisi məni görüş otağına apardı. Şəkildə gördüyüm simanı tez tanıya bildim. Turqutun dediyi kimi sakit formada əyləşdim və əllərimi masanın üzərinə qoydum.

– Necəsən? Vəziyyətin yaxşıdı? – adını bilmədiyim oğlan söhbətə başladı.

– Hə, yaxşıyam.

– Hə əla. Uşaqlar da sənə salam göndərirlər.

– Sağ olsunlar.

Qarşımdakı oğlan söhbəti uzatmağa və şübhəli vəziyyətin yaranmamağına çalışırdı. Mən isə əlavə söhbət aça bilmirdim. Çox qorxurdum, onun dediklərini belə çətinliklə cavablandırırdım.

– Yeməyin, içməyin yaxşıdı?

– Hə, çox sağ ol.

– Biz sənə inanırıq, bilirik ki, tezliklə çıxacaqsan. Sən dürüst uşaqsan. Belə şeylər olur. Əşi, keçəcək. – Ehtiyatla köynəyimin qoluna zəhəri atdı.

– Düzdü, düzdü.

– Deyəsən səni yordum, getmək istəyirsən?

– Hə, mən gedim. Gəldiyin üçün çox sağ ol.

– Sən sağ ol.

Ürəyim sürətlə döyünürdü, çırpınırdı. Sanki yerindən çıxacaqdı. Gözətçi məni kameraya aparırdı, yol boyu bədənimin əsməyini çətinliklə saxlayırdım, özümü sıxırdım. Çox şükür ki, gözətçi məndən şübhələnməmişdi. Kameraya daxil oldum və çiynimdə yükün yarısının azaldığını hiss edirdim. Turquta baxdım ki, bu yükdən təmamilə tez qurtulum. Turqut gözlərini bərəltdi və başı ilə ayaqyolunu işarə etdi. Orada onu gözlədim. Bir neçə dəqiqə gözləmək mənim üçün illərə bərabər idi. Turqut içəriyə daxil oldu.

– Hə, hanı?

– Qolumda.

– Çıxart, ver!

Özümü itirmişdim. Nə etdiyimi və nə etməli olduğumu bilmirdim. Qolumdan mənə dünyalar qədər ağır gələn yükü çıxartdım və Turquta verdim.

– Hə əla. Çox sağ ol.

– Siz sağ olun.

– Əl-üzünə su vur, özünə gəl.

– Sizdən bir söz soruşum.

– Soruş.

– Sizin mənə verdiyiniz çay…

– Eeee. – Turqut sözümü kəsdi. Elə çaydan tutub durmusan. Nə çay? Sənə bunu verəcəm? Pulum elə çoxdu? Bunu necə çətinliklə içəri soxdururam. Sənə görə bütün bunları edirəm? Sənin çayına bundan atsaydım bundan 10-15-i lazım idi. Həm də mən gicəm sənin üçün? Sən kimsən ki, sənə bunu edim? İstəsən də verən deyiləm. Yemək verirəm, qudurursan.

– Bağışlayın. Özümdə deyiləm.

– Axırıncı dəfə olsun ki, məni özümdən çıxardırsan.

– Yaxşı.

Çox qorxmuşdum, tir-tir əsirdim. Özümü pis hiss edirdim, qaytardım. Doyunca ağlamaq istəyirdim. Həyatda nifrət etdiyim insana çevrilmişdim.

Həbsxana gözətçisi məni çağırdı. Çox qorxurdum ki, onlar hər şeyi anlayıblar. Gözətçi yanıma vəkilin gəldiyini deyəndə çox rahatladım. Sevindiyimdən sanki ağlayacaqdım. Bütün hisslərim qarışmışdı, nə hiss etdiyimi özüm belə bilmirdim.

– Buyurun, əyləşin. Mən Almaz xanımın vəkiliyəm. Boşanma işinə görə gəlmişəm.

Vəkil xoş olmayan görünüşə malik olan kişi idi və məndə ona qarşı mənfi fikir formalaşdı və əsəbi şəkildə soruşdum:

– Hara imza atmaq lazımdı?

– Siz əvvəl məni dinləyin.

– Buyurun.

– Siz yoldaşınıza xəyanət …

– Bəsdirin! – deyərək sözünü kəsdim. – Mənə bunlar maraqlı

deyil. Mən boşanmaq istəyirəm.

– Yaxşı. O zaman oğlunuz ilə görüşdən danışım. Əgər məhkəmə sizə bəraət verərsə…

– Bunları da eşitmək istəmirəm. Almaza deyərsiniz ki, mən çıxacam, Cavadı da ondan alacam.

– Sizin ilə danışmaq mümkün deyil. Elə isə buyurun imza çəkin.

Əlindəki kağızları masanın üzərinə düzdü və imzamalı olduğum yerləri göstərdi.

– Məni dinləmək istəmirsiniz, bunu anladım. Oxuya da bilərsiniz. Bilmədiyiniz sənədə imza çəkirsiniz. – Vəkil qorxaraq dedi.

– Ehtiyac yoxdu.

– Keçmiş yoldaşınız mülkinizdən pay istəmir.

– Mənim evim Cavadındı.

– Oldu, sağ olun. – Dedi və getmək üçün ayağa durdu.

– Dayanın!

– Buyurun.

– Almaza deyərsiniz ki, ona nifrət edirəm. Analığa layiq deyil o. Buradan çıxacam və oğlumu ondan alacam.

– İlkin bəy, mənim işim söz gəzdirmək deyil.

– Sizin işiniz boşanma işini məhkəmə olmadan bir imza ilə həll etməkdi? Belə boşanma olur? Hanı məhkəmə? Mənə onunla boşanmaq sərf edir. Mən özüm bunu çox istəyirəm. Bu səbəbdən razılaşdım. Əks halda, belə rahat məndən boşana bilməzdi. Dediklərimi çat-

dırarsınız. – Dedim və cavabını gözləmədən otaqdan çıxmaq üçün ayağa durdum.

Kameraya daxil oldum və öz yerimdə oturdum. İçimdəki həyəcan, qorxu – əsəb, hirs ilə əvəz olunmuşdu. Almazı görsəydim nə edərdim? Yəqin ki, onu əlimdən ala bilməzdilər. Bəlkə də onu öldürərdim. O zaman doğurdan da qatil olardım.

## VI

Bu gecə də yuxumda Cavadı gördüm. Oğlumla birlikdə əylənirdik, oynayırdıq. Cavadın şirin gülüşünü görürdüm. Sanki onun xoşbəxtliyini hiss edirdim. Oğlumu bərk-bərk qucaqlayırdım, öpürdüm. Cavad da məni qucaqlayırdı, öpürdü. Cavad qaçırdı, mən isə onun ardınca qaçırdım. Çox xoş yuxu idi.

– İlkin, dur! Yenə yatıb bu. – Balacanın uzaqdan gələn səsini eşidirdim. – Dur! Bu niyə hər gün uyur?

Başım ağırlaşmışdı, çox böyük çətinliklə ətrafı nisbətən aydın görməyə başladım. Balaca mənə yatağımdan durmağa kömək etdi.

– Çox sağ ol, Balaca.

– Sənə nə olub? Neçə vaxtdır ki, beləsən. Nə məsələdi?

– Bilmirəm. Yorğunluqdandı.

– Ola bilər. Hələ bura öyrəşməmisən.

Həyət gəzintimiz eyni vəziyyətdə keçirdi. Hava nisbətən soyumuşdu, məhbuslar daha cəld gəzirdilər. Həyətdə qəflətən Cavadı görən kimi oldum. Önümdə soyuq üz ifadəsi ilə donmuş halda dayanmışdı. Ona tərəf yaxınlaşırdım və Cavad isə məndən uzaqlaşırdı.

– Cavadım, məndən qaçma! – qışqırdım və ona tərəf qaçdım. Həmin an bir məhbus Cavad ilə mənim ortamızdan keçdi. Ondan sonra Cavad yox oldu, sanki uçmuşdu. Ətraf olan hər kəs mənə dəli kimi baxırdı. Yerə oturdum, dizlərimi bükdüm və başımı əllərim ilə döyəcləməyə başladım. Həyatımda ilk dəfə idi ki, insanların içərisində ağlayırdım. Ağlamamalı idim, quldurların, canilərin arasında özümü zəif göstərməli deyildim. Sadəcə özümlə bacarmırdım, özümü idarə edə bilmirdim. Cavadın məndən getməsini, məni ata saymamasını qəbul edə bilmirdim.

– İlkin, dur! – Turqut başımın üstündə dayandı və əmr etdi. – Dur dedim!

– Dura bilmirəm, bacarmıram. – Ağlamağım azalırdı.

– Deyəsən dəlinin əlində qalmışıq. – Mənimlə üzbəüz havada oturdu.

– Oğlumu istəyirəm.

– Çox zəif adamsan. Bilirsən?

– Bilirəm.

– Dur ayağa! Vaxt bitir, özünə gəl!

– Yaxşı. – Göz yaşlarımı silə-silə ayağa durdum.

Məhbuslar mənə baxaraq başlarını çevirirdilər, mənə gülürdülər. Onlar doğurdan da məni anlamırdılar? Məgər onlar da doğmalarının həsrətini çəkmirdilər? Onların vəziyyətinin məndən fərqi yox idi. Əslində məni ən çox onlar anlamalı idilər.

İnsanlar məni qatil, zəif biri kimi hesab edirdilər. Artıq heç nə vecimə deyildi. Mən özümü idarə edə bilmirdim. Mən qatil deyildim,

sadəcə zəif idim. Zəiflik – atanın oğlunu sevməkdisə, bu cür zəif olmağa razı idim.

Telefon haqqımdan istifadə edəcəkdim, atama daha sonra Almaza zəng edəcəkdim. Almaza qarşı hirsli, əsəbi idim. Ona deyəcəyim çox sözlərim var idi. Zəhərimi ona tökməli idim. Ona nifrət edirdim və səsini eşitmək istəmirdim. Amma danışmaq istəməsəm də içimdə olan zəhərimi ona tökməli idim. Bu zəhər məni yox, onu zəhərləməli idi. Son bir ay əvvəl ondan boşanmaq ağlımın ucundan belə keçmirdi, dalaşdığımız gündən sonra isə boşanmamaq üçün əlimdən gələni etməyə hazır idim. Həmin an isə boşanmağımıza görə çox şad idim. Sadəcə mən səhv qadın seçmişdim, səhv qadını sevmişdim. İlk öncə atam ilə danışmalı idim. Mənim yeganə dayağım atam idi.

– Salam, ata, necəsən?

– Salam.

– Mən boşandım.

– Lap yaxşı.

– Səni narahat etdim? Danışmaq istəmirsən?

– Nə lazımdı? Yenə nəvəmi həbsxanaya gətirməmi istəyirsən?

– Yox gətirmə. Əsas sizin ilə çox vaxt keçirtsin.

– Yaxşı.

– Ata…

– Nədi?

– Bilirəm ki, sən mənə inanmırsan. Elə bilirsən ki, mən adam öldürmüşəm. Sən gələndə sənin mənə görə narahat olmağından başa düşdüm ki, hələ də məni düşünürsən.

– Məndən başqa kimin var? Ayda iki-üç dəfə yanına gəlməyə vaxt tapdığın adamdan başqa kimin var? Heç zəng də belə etmirdin. İndi türmədə olanda tez-tez edərsən. Oradan çıxandan sonra yenə bizi unudarsan. Daha sənə lazım olmarıq. Düzü çıxacağına inanmıram. Sən bizim boyumuzu yerə soxdun. Anana, mənə acılar yaşatdın. Bir nəvəmiz var, onu da bədbəxt etdin. Səni necə böyütdük, sənə necə tərbiyə verdik. Sənin xeyrini bir dəfə də görmədim.

– Bağışla, ata.

– Ancaq elə bağışla. İlkin, sən bizə acı yaşadırsan, bilirsən?

– Ata, mən adam öldürməmişəm. Mənə inan.

– Mən hər şeyi bilirəm. Sənin necə işə razılaşdığını da bilirəm. Müdirinlə bir daha danışdım, onun üstünə tüpürmək istədim. Sənin cinayətin ucbatından tüpürə bilmədim. Mənə nə dediyini bilirsən? Oğlun mənimlə işləməyə özü razılıq verdi. Sənin arvadına xəyanət edən, qatil oğlun var.

– Ata, mən oraya çox maaşa görə getdim. Həm də ki, Qaranın nə iş gördüyünü bilmirdim. Sadəcə işləyirdim.

– Mən nə iş olduğunu deyim? Camaatın balalarını zəhərləyirdi, sən isə ona işləyirdin. Mənim xəyanətkar, qatil, iyrənc, zir-zibil iş ilə məşğul olan oğlum var. Mən bu yükü daşıyıram. Mən, anan evdən çölə çıxanda başımız yerə girir, bizi hər kəs tənqid edir.

– Bağışla, ata.

– Səni bağışlamıram. – Dedi və dəstəyi qoydu.

Almaza zəng edə bilmədim. Üç-dörd sözü bir-birinə calaq edərək cümlə qura bilmirdim. Düşünə bilmirdim ki, atam da məni

tərk etdi. Artıq onun nifrət etdiyi insana çevrilmişdim. Atamın dediklərini beynim həzm etmirdi.

– Ey, boşsan? – həmişə sakit olan məhbuslardan biri yaxınlaşdı.

– Hə. Nə olub? – məni düşüncələrimdən ayırdığı üçün bu məhbusun məni danışdırmağı heç də xoş gəlmədi.

– Yanında otura bilərəm?

– Hə, buyur.

– Mənim adım Cabbardı. Səni son günlər yaman kefli görürəm. Gəzintidə də özündə deyildin.

– Hələ öyrəşməmişəm. Məni bu hala salan yorğunluq, əsəbdi.

– Mənə səndəkindən lazımdı. Qorxma, heç kəsə deməyəcəm. Yorğunluq boş söhbətdi. Məni yola vermə. Pul da verəcəm. Əsas sən ver.

– Nə verim? Mən elə şey istifadə etmirəm.

– Məni aldatma.

– Yoxdu məndə heç nə.

– Yaxşı, sağ ol. – Dedi və getdi.

Turquta Cabbarın dediklərini danışmalı idim. Bəlkə Cabbar hər şeyi bilirdi? Bəlkə Turqut doğurdan da mənə zibildən verirdi. Bu sualı bir daha ona verə bilməzdim. Bu dəfə mənim axırıma çıxardı. Üstəlik Turqut mənə yemək verməsə ac qalacaqdım.

– Turqut bəy, oturmaq olar?

– Otur, İlkin.

– Məhbuslardan biri – Cabbar məndən mal istədi. Dedi ki, neçə gündür ki, kefliyəm, guya istifadə edirəm. Mən isə istifadə etmirəm dedim. Bəlkə nəsə bilir? – pıçıltı ilə dedim.

– Bala, sən dəlisən? Sənin başında problem var? Sən niyə işləri qarışdırırsan? Sən kefli yox, dəlisən bu bir. İkincisi Cabbar mənim adımı çəkib? – Turqut da pıçıltı ilə lakin əsəbi tərzdə danışdı.

– Yox, çəkməyib.

– Bəs onda niyə mənim işimlə əlaqələndirirsən?

– Bilmirəm.

– Yoxsa yenə məndən şübhələnirsən? Mən sənə demişdim axı. Bir daha həmin söhbət açılsa, mən nə edərəm.

– Yox, elə düşünmürəm.

– Yaxşı, get.

– Mən doğurdan elə demək istəmirdim.

– Deyə də bilməzsən. Get, İlkin!

Turqut mənimlə məni it hesab edirmiş kimi danışdı, elə həmin tərzdə də məni qovdu. Baş verənlər bir-biri ilə çox əlaqəli idi. Turqutun mənə verdiyi tapşırıq, Cabbarın söhbəti, Qaranın işi – bəlkə bütün bunların başında Qara var? Niyə etsin ki? Onun işçisini öldürdüyümə görə edə bilərdi. Çəkdiyim əzablar yetmirdi ki? Turqut Qaranın adamı ola bilərdi? Ya da ki, Cabbarın Qaranın adamının olması ehtimalı var idi. Cabbar mənim üstümə şər atmağa çalışırdı. Eləyə biləcəyim bir şey yox idi. Sadəcə səbr etməli idim.

## VII

– İlkin, gəl yanıma! – Turqut əmr etdi.

Yanına getdim və əmrinə tabe olmağa hazır idim.

– Buyurun.

– Yenə həmin adamla görüşəcəksən.

– Belə görüşlər tez-tez olacaq?

– Narazısan? Cəmi bir dəfə getdin və daha getməməlisən? Bəs yeməyini hər gün yeyirsən.

– Yox. Elə demək istəmədim.

– Bu gün gələcək. Eyni hal təkrarlanacaq. Sən də eyni hərəkətləri edəcəksən. Həyəcanlanma. Sualın var?

– Yaxşı. Sualım yoxdu.

– Elə isə get, özünə gəl, rəngin ağarıb.

– Yaxşı. – Dedim və ayaqyoluna getdim.

Üzümün rəngi həqiqətən də ağarmışdı. Çox qorxmuşdum və həyəcanlı idim. Elədiyim iş çox təhlükəli idi. Düzdü, artıq həbsxanada idim. Günahsız idim və ümidim var idi ki, azad olacam. Bu iş səbəbindən məni tutsaydılar, o zaman mənim işimə mənfi təsir göstərəcəkdi. Digər yolum isə yox idi. İstintaq müddətində Turquta daim borclu olacaqdım və ona borclu qalmamaq üçün bu işi görməli idim. İstintaq müddətindən sonra həbsxanada qalsaydım, o zaman ona uyğun hərəkət etməli idim. Bu barədə düşünə bilmirdim və bu düşüncələr məni məhv edirdi. Ümid ilə gözləyirdim ki, bir gün Günəşin parlaq, isti şüaları məni də isidəcəkdi.

Otaqda həmin adam əyləşmişdi və məni gözləyirdi. Onunla danışmalı və söhbət etməli idim. Özümü itirirdim, çox həyəcanlı idim.

– Salam necəsən?

– Yaxşı, sən necəsən? – birinci dəfə olduğu kimi bu dəfə də əllərimi masanın üzərinə qoydum.

– Biz yaxşıyıq. Vəziyyət necədi?

– Hər şey yaxşıdı.

– Hə, belə de.

Adam sanki bu işin professionalı idi. İşini çox incəliklə və səliqə ilə görürdü.

– Yemək-içməyin necədi? – mən susduğumdan söhbəti davam etdi.

– Şükür, yaxşıdı.

– Uşaqlar da gəlmək istəyirdi. Özün bilirsən də işləri var.

– Hə, narahat olmasınlar.

– Sənə salamları var.

– Sağ olsunlar. Sən də salam göndər.

– Mən gedim. Məni bura sıxır.

– Hə, get. Çox sağ ol ki, gəldin.

– Sağ ol.

Bu dəfə də heç bir problem olmadan həbsxana gözətçisi məni kameraya apardı, məndən heç kəs şübhələnmirdi, heç kəs heç nə bilmirdi.

Turqut ilə danışmışdıq ki, ayaqyolunda onu gözləyim.

– Hə, ver görək. – Turqut mənə çox yaxınlaşmışdı, pıçıltı ilə danışırdı.

– Buyurun. – Bu dəfə də Turquta aid olanı ona verəndə çox rahatlandım.

– Hə, əla. Çox sağ ol.

– Siz sağ olun. Başqa sözünüz var?

– Yox, İlkin. Gedə bilərsən.

Turqut artıq işini görürdü. Həbsxana insanları düzəltmir, daha da qəddarlaşdırır, səhv addımlar atmağa məcbur edir. Cinayətkarlar nə olur olsun cinayətlərinə davam edirlər. Günahsızlar isə şəraitə uyğunlaşırlar və cinayət etməyə məcbur olurlar. Bəlkə də bunlar ümumi qanunlar deyillər və hər kəsə aid edilmirlər. Bəlkə də ümumiyyətlə, səhv anlayışdı. Sadəcə öz təcrübəmdən bu nəticələrə gəlirdim.

Atamın mənə söylədiklərindən hələ də özümə gələ bilmirdim. Atamı hər kəs sakit xasiyyətli, mülayim insan kimi tanıyır. Heç kəsin ağlına gəlməzdi ki, atam nə vaxtsa mənə bu dərəcədə əsəbi ola bilər. Düzdür, təmamilə haqlı idi. Amma, atam dəyişmişdi. Onu mən dəyişmişdim, mən atamı əsəbi, hirsli, kinli etmişdim.

Atam ilə danışdığım gün Almaza zəng etməyi də düşünürdüm. Düzdür, hər dəfə deyirdim ki, ona daha zəng etməyəcəm. Başıma gələnlərin səbəbindən mənim də içimdə əsəb var idi. Əsəbimi yalnız mənə qarşı haqsızlıq edən Almazın üzərinə püskürə bilərdim.

Almaz dəstəyi ilk zəngdən götürdü. Sanki zəngimi gözləyirdi.

– Almaz.

– Hə, İlkin. Nə istəyirsən? Yoxsa son danışığından sonra peşman olmusan? Üzr istəmək üçün zəng eləmisən?

Artıq anladım ki, Almaz niyə dəstəyi qoymurdu və mənimlə danışırdı. Üstəlik niyə ilk zəngdə dəstəyi qaldırdı. Almaz məndən üzr gözləyirdi, ürək sözlərimi eşitmək ona xoş gəlməyəcəkdi.

– Nə? Üzr istəmək? Oğlun yanında ola-ola evə kişi gətirən sənsən!

– Sən mənə xəyanət etmisən!

– Yaxşı etmişəm. Oğlun yanına kişi gətirmək nədi? Nə etmişəm, düz etmişəm. Sən onlara layiq imişsən.

– Elə eləmə ki, sənin başına oyun açım?

– Öldürəcəksən məni? Öldür, görək. Sən kimsən axı? Dua et ki, danışığımı eşidən var, yoxsa layiq olduğun sözləri sənə deyərdim.

– Mənə zəng eləmə!

– Nədi? Sevgilin qoymur? Ərə gedəcəksən ona?

– Sənə dəxli yoxdu. Biz boşanmışıq, bunu qəbul et!

– Mən boşanmağımıza görə sevinirəm. Sən bilmirsən ki, imzamı necə böyük sevinclə çəkdim. Oğlumu da sənin əlindən alacam.

– Sevinmirsən. Sadəcə başqa yolun yox idi. Cavad mənimdi, həmişə də mənim olacaq. Heç kəs qatilə uşaq verməz.

– Yolum yox idi? Qanunsuz yolla işi tezləşdirmisən. Məhkəmə belə olmadı.

– Çox sağ ol de ki, xarabanı əlindən almıram.

– Xaraba dediyin evdə beş il xoşbəxt yaşamısan. Orada sənin oğlun dünyaya gəlib. Hər anında sənin yanında olmuşam. Dostlarımı belə sənə görə silmişəm.

– Əl çək, İlkin, cəhənnəm ol!

– Səndən ürəyim getmir. Sənə olan nifrətim sonsuzdu. Sən mənim evləndiyim qadın deyilsən, həmin qadın saf, tərbiyəli idi. – Dedim və dəstəyi yerinə qoydum.

İçimin rahatlandığını hiss edirdim. Cavadı Almazın əlindən almaq üçün səbrsizlənirdim. İstintaq tez bitsəydi gözəl olardı. Ürəyim dəhşətli dərəcədə sıxılırdı.

Gecələr kamerada vəziyyət eyni idi. Əsəb pozan səslər, ürək bulandıran qoxular dəhşətli idi. Bu vəziyyətə uğurla öyrəşmişdim. Hətta öyrəşdiyimə belə təəccüblənirdim. Gecə yuxuda yenə də Cavadı gördüm. Bu dəfə birgə xoşbəxt idik. Oğlum üçün çox darıxmışdım. Əsasən də Cavadın gözlərinin belə güldüyü gözəl gülüşü üçün çox darıxmışdım. Yuxuda Cavad dayanmadan çox şirin səsi ilə "ata, səni çox istəyirəm." dedi. Qəlbim fərəhlə, sevinclə dolmuşdu. Onun səsi tədricən daha ucadan gəlirdi. Yuxuda olduğumu hiss edirdim və baş verənlərin real olmadığı üçün kədərləndim. Diksinərək yuxudan oyandım. Hələ də Cavadın səslərini eşidirdim. Bu dəfə "ata, ata…" çağırırdı. Ayağa durdum və ətrafa baxmağa başladım. Cavadı tapa bilmirdim.

– Cavad, haradasan? Cavaaad… – Pıçıltı ilə Cavadı çağırırdım. Cavadın səsi yenə də gəlirdi.

– Oğlum, Cavadım… – Bu dəfə normal səslə çağırırdım.

Cavadın səsini hər tərəfdə eşidirdim. Səs gah bir tərəfdən, gah da digər tərəfdən gəlirdi. Məhbusları yuxudan oyatmışdım. Mən isə artıq qışqırırdım:

– Cavaaad, Cavaaad…

Cavadın səsi isə hələ də gəlirdi, amma onu tapa bilmirdim.

– Sənə nə olub? – Turqut əsəbi şəkildə qışqırdı.

– Oğlum yanıma gəlib.

– Dəlisən?

– Eşitmirsiniz? Məni çağırır.

Bütün məhbuslar mənə gülməyə başladılar.

Hər kəsin qəhqəhə səsi Cavadın səsini boğurdu. Oğlumu daha eşitmirdim. Məhbusların qəhqəhəsi daha da artırdı. Yaxşı ki, həbsxana gözətçilərinin xəbərləri olmadı.

– Başdan xarab. Yıxıl yat! Bir daha bizi yuxudan durquzsan, özündən küs! – Turqut hirsli dedi. Turqut danışarkən məhbuslar gülməklərini kəsmişdilər və onu dinləyirdilər.

Tənbeh olunmuş balaca uşaqlar kimi başımı aşağı saldım və yerimə getdim. Cavadın səsi daha gəlmirdi. Nə baş verdiyini anlamırdım və səsin haradan gəldiyini bilmirdim. Başım sanki şişmişdi, çox ağrıyırdı. Digər tərəfdən də məhbusların məni cəzalandırmamaqları təəccüb doğurmuşdu. Çox qorxurdum ki, dəli olmuşam. Heç nə düşünə bilmirdim, beynim işləmirdi. Cavad üçün çox darıxmışdım.

## VIII

Tamam fərqli bir insana çevrildiyimi hiss edirdim. Xarici və daxili görünüşüm çox dəyişmişdi. Əvvəllər bədənimdə az da olsa əzələlər var idi, indi isə demək olar ki, sümük idim, çox arıqlamışdım. Üzümün rəngi solmuşdu, sanki dərim bozarmışdı. Bunlardan əlavə, psixologiyam da pozulmuşdu. Beynim tez-tez dumanlanırdı, başım fırlanırdı. Cavadın yanımda olduğunu hiss edirdim. Bəzən onu görürdüm, eşidirdim. Reallıq mənə çox uzaq gəlirdi. Məhbuslar mənə ruhi xəstə kimi davranırdılar. Mən isə hələ ki, səbr edirdim. Qərara gəlmişdim ki, mənə bəraət verilməsəydi, intihar edəcəkdim. On illərlə günahsız olan halda həbsxana həyatı yaşaya bilməzdim. Üstəlik məni gözləyən, mənimlə bir kəlmə söz danışan belə heç kəsim yox idi. Əgər mən bəraət qazansaydım, hər kəs mənim günahsız olduğuma inanardı və mənə geri qayıdardılar. İllərlə burada qalmağın mənası yox idi. Əgər səni istəyən bir kəs belə yoxdusa, sağ qalmağın mənası nə idi? Ölümüm belə çox az insana kədər gətirərdi. Valideynlərim yəqin ki, pis olardılar. Bəlkə də sonra keçər, məndən qurtulardılar. Cavad isə zaman keçdikcə məni unudardı. Zaman ötdükcə üz cizgilərim hafizəsindən silinərdi. Amma mən yaşamaq istəyirdim. Kimsəsiz, ümidsiz isə yaşamaq mümkün deyil. Azad yaşamaq mənim də haqqım idi.

– Yenə özünü gicliyə qoyacaqsan? – Cabbar öz axmaq sualı ilə fikirlərimdən məni uzaqlaşdırıb, yanıma gəldi.

– Nə deyirsən? Məndən nə istəyirsən?

– Çox ehtiyacım var. Mənə də ver.

– Məndə heç nə yoxdu. Nə verim? Haradan tapım?

– Özünü gic yerinə qoyma. Pulunu da verəcəyəm, heç kəsə heç nə deməyəcəm.

– Cabbar, məndə heç nə yoxdu. Ancaq paltarlarım var. Özün bax, axtar. Nəsə tapa bilsən, özünə götürərsən.

– Haraya gizlətmisən?

– Artıq məni təngə gətirirsən. Deyirəm ki, məndə heç nə yoxdu. Məndən əl çək!

– Əl çəkmirəm. – Dedi və məni yerə yıxdı.

Həmin an məni əsəb bürüdü. Bu vaxta qədər kiminləsə dalaşdığımı xatırlamıram. Məktəb yaşlarımdan sakit olmuşam. Heç kəslə işim olmayıb. Həmin an isə bu məhbusu öldürməyə belə hazır idim.

– Ay insan, deyirəm ki, məndə heç nə yoxdu. Heç nə yoxdu. Başa düşürsən? Yoxdu, yoxdu, yoxdu! – qışqırırdım və onun üstünə çıxaraq dayanmadan yumruqlayırdım.

Məhbuslar ətrafımıza yığışmışdı və məni Cabbardan ayırmağa çalışırdılar. Polis gözətçiləri məni kameradan çıxartdılar. Məni cərimə təcridxanasına apardılar və məni orada bağladılar.

– Bir həftə burada qalacaqsan! – gözətçi dedi və qapını bağladılar.

Otaq çox balaca və soyuq idi. Döşəmə betondan idi və ayaqlarımı dondururdu. Divarlar isə sanki insanın üzərinə gəlirdi, bumbuz idilər. Otaq havasız idi, ətrafdan iyrənc – rütubət qoxusu gəlirdi. Həbsxana həyatında ola bildiyim ən dəhşətli yerdə idim. Məni hələ nə hadisələr gözləyirdi, bilmirdim.

Həbsxana gözətçiləri tibb bacısı ilə içəri daxil oldular və məndən qan analizi götürdülər.

– Bunu niyə edirsiniz? – tibb bacısından soruşdum.

– Belə lazımdı. – Həbsxana gözətçisi cavablandırdı.

– Cabbar boş-boş danışır, yalan deyir. Məni özümdən çıxardır.

– Yaxşı. – Tibb bacı dedi və hər iksi otağı tərk etdi.

Başım partlayırdı. Cavadla, Almazla yaşadığımız gözəl anlarımızı düşünürdüm. Həqiqətən də çox xoşbəxt idik. Hər günümüz xoş keçirdi. Birlikdə yediyimiz yeməklər, Almazın hazırladığı gözəl süfrələr üçün çox darıxmışdım. Almaz necə də gözəl və qayğıkeş idi. Atam, anam üçün də çox darıxırdım. Həmin anda elə istərdim ki, anam saçlarımı sığallasın. Kaş bir günlük də olsa buradan çıxa bilsəydim, onlarla vaxt keçirə bilsəydim, necə də gözəl olardı. İnsan doğmalarının dəyərini onları itirdikdən sonra anlayır. Mən də çox gec anlamışdım. Gözümün önünə birgə keçirdiyimiz bayramlar, ad günləri gəlirdi. Mən atamın, anamın sevimlisi idim. Onların tək övladı, tək ümidləri idim. Cavad dünyaya gələndə atamın sevinci yerə-göyə sığmırdı. Elə mənim sevincim də az deyildi. Həyatımın ən gözəl günlərindən ən vacibi Cavadın dünyaya göz açdığı gündü. Çox istəyirdim ki, bir qızım da olsun. Xəyalım idi ki, mənə baxanda gülümsəsin, mən isə onun nazını çəkim. Bilirdim ki, daha xoşbəxt ola bilməyəcəyəm. Qızım heç bir zaman olmayacaqdı, hətta Cavadı belə itirmişdim.

Soyuq, qaranlıq otaq insanı vahiməyə salırdı. Qara divarlar insanı sıxırdı. Bəlkə də bu otaqda çoxlu sayda günahsız insan cəza çək-

mişdi və sonda intihar etmişdi. Həyatın ədaləti azdı, mənim həyatımın isə ümumiyyətlə heç ədaləti yoxdu. Nə günah etmişdim ki, bütün bunlar başıma gəlirdi? Mən ki, hər gün işə gedən, işdən evə gələn ailəcanlı bir ata idim. Necə oldu ki, mənə belə cinayətkar damğası vuruldu? Hansı günahımın bədəlini ödəyirdim? Mən ki, sadəcə oğluna nümunəvi ata olmaq istəyən Qara demiş "ofis qurdu" idim.

Cavadın səsini eşidirdim, oğlum məni çağırırdı.

– Cavad, Cavaaad, haradasan? – qışqırırdım.

– Ata, ata, ataaa… – Cavadın səsi otaqdan çöldə gəlirdi.

– Cavad, buradayam oğlum. Cavaaad… – Qışqırırdım və qapını döyəcləməyə başlayırdım.

– Səsini kəs! – həbsxana gözətçisi üstümə qışqırdı.

– Mənim oğlumdu, məni çağırır.

Cavadın məni çağırması səsini yenə də eşidirdim.

– Burada heç kəs yoxdu! Səsin çıxmasın!

– Cavaaad, Cavaaad… – Qışqırırdım.

Qapı açıldı, mən isə ümidlə həbsxana gözətçisinin Cavadı gətirməsini gözləyirdim. Əvəzində isə gözətçi əsəb dolu baxışları ilə üzərimə gəlirdi.

– Oğlum haradadı?

– Ay başdan xarab, səni çağıran yoxdu. Nə özündən şou göstərirsən?

– Cavaaaad... – Qışqırırdım.

Qışqıran kimi həbsxana gözətçisi mənə şillə vurdu, yerə yıxıl-

dım. Ayağa durmağa çalışırdım ki, bir daha şillə vurdu. Bu dəfə isə ayağa durmağa çalışmırdım, artıq ona təslim olmuşdum. Cavadın səsi hələ də gəlirdi. Sanki yanımda idi.

– Səs gəlir hə? Gic oğlu gic! – dedi və məni təpikləməyə başladı. – Oğlum məni çağırır. Cavad, Cavad. – Ağzımı əyirdi. – Dedim ki, sənə səsini kəs! İndi sənin nazınla oynayaq? – daha da hirslə təpikləyirdi.

Mən isə səsimi belə çıxarda bilmirdim. Bütün bədənim sanki dağılmışdı. Gözətçi isə illərlə başqalarına olan əsəbini məndən çıxırdı. Aşağı əyildi və saçımdan dartaraq başımı qaldırdı, gözümün içinə baxdı və pıçıldadı:

– Səsin bir daha gəlməsin! – dedi və yerə tüpürüb getdi.

Yerdə uzanmış vəziyyətdə qalmışdım. Mən artıq ikinci dəfə idi ki, döyülürdüm. Çox ağrıyırdım, sümüklərim sızıldayırdı, tərpənə bilmirdim, ağrıdan qışqırmaq istəyirdim. Qışqırmağa belə gücüm çatmırdı.

Bir anda Cavadı başımın üzərində gördüm. Oğlum mənə baxırdı.

– Mən ona dedim ki, sən buradasan. Mənə inanmadı. Qorxma oğlum, yaxşı olacaq. Gülümsəsən olar? – pıçıltı ilə kəkələyərək dedim.

Cavad isə gülümsəmirdi. Üz cizgiləri soyuq və donmuş idi. Başım dumanlandı, huşumu itirirdim.

– Ey sən, dur! – həbsxana gözətçisi gəldi və ayağı ilə məni yüngül təpiklədi. Huşum özünə gəlməyə başladı.

– Dura bilmirəm. – Öz səsimi özüm belə çətinliklə eşidirdim.

– Bilərsən, tez elə dur!

Çox böyük çətinliklə ayağa durmağa çalışdım. Bir neçə dəfə durmağa çalışdım, əvəzində isə hər dəfə yıxılırdım. Gözətçi isə qəhqəhə çəkirdi. Çox böyük çətinliklə divardan tutdum və ayağa dura bildim.

– Dedim axı, dura bilərsən. – İstehza ilə dedi.

Əlindəki balaca içərisində su ilə doğranmış çörək olan boşqabı önümə atdı və dedi:

– Al ye! Nuş olsun. İndi isə əyilməlisən ki, qabı götürəsən.

– Yaxşı.

– Dedim axı, əyil!

Dediyi kimi əyilməyə çalışdım. Belim sızıldayırdı, ağrıdan qışqırmamaq üçün özümü güclə saxlayırdım. Yemək qabını çətinliklə saxlayırdım.

– Hə, bax belə. Biz məhbusların qeydinə qalmalıyıq. Mən gəlməsəm aclıqdan öləcəkdin. Həm sənə yemək verdim, həm də yeyəcəyinə əmin oldum. – İstehza ilə dedi və getdi.

Mən təhqir olunmuşdum və döyülmüşdüm. Məni sındırmışdılar. Ağlayaraq çörək parçalarını yeməyə başladım. Qollarım, əllərim sözümə qulaq asmırdı. Məcbur qaldım, başımı yemək qabına yaxınlaşdırdım və it kimi yeməyə başladım. Göz yaşlarım iri-iri axırdı. Mən artıq insanlıqdan çıxmışdım. Anamın hazırladığı bəzi yeməkləri bəyənmirdim, digər yeməklərdən istəyirdim. İndi isə suda qurumuş çörək qırıntılarını it kimi yeyirdim.

## IX

Artıq zamanı, günün hansı vaxtının olduğunu bilmirdim. Burada qaldığım gündən artıq neçə gün keçmişdi, həyatda, dünyada nələr baş vermişdi, xəbərim yox idi. Oğlum böyüyürdü, valideynlərim qocalırdı. Heç birinin yanında ola bilmirdim. Almazı sevgilisi saxlayırdı. Belə çıxırdı ki, Cavada da Almazın sevgilisi baxırdı. Ağlıma gəlirdi ki, birdən onun sevgilisi oğluma əl qaldırardı və ya Cavada qarşı zorakılıq edərdi. Düşündüklərim gözümün önünə gələndə dəli olurdum. Cavadı hər dəqiqə düşünürdüm, yuxularımda belə onu görürdüm. Tez-tez onun şirin səsini eşidirdim, onun qəmgin üz cizgilərini görürdüm. Artıq oğlumun səsinə səs vermirdim. Bilirdim ki, oğlum əslində yanımda deyil. Ağrılarım da səngimişdi, lakin hələ də çox böyük çətinliklə hərəkət edirdim. Onsuz da bu dar otaqda hərəkət etməyə nə imkan, nə də ehtiyac var idi. Artıq bu iyrəncliyə öyrəşmişdim və adi gəlirdi. Özüm özümə danışmaq istəyirdim, gözətçidən çox qorxduğumdan səs çıxartmağa çəkinirdim.

Bərbad vəziyyətim gözətçini narahat etmirdi. Vəziyyətim ağır idi, ən pis halda daxili qanaxmadan dünyamı dəyişsəydim ona söz gələcəkdi. Elədiyi isə itin qabağına atılan kimi suda çörək qırıntılarını önümə atması idi. Gün ərzində xoş xatirələrə dalıb kövrəlirdim. Əvvəllər özümü xoşbəxt hesab etmədiyim həmin anlarda əslində necə də xoşbəxt idim. Həmin anlar mənə necə də şirin gəlirdi, həmin vaxt xoşbəxtliyimi anlamırdım. Çox gec anlamışdım ki, necə də gözəl həyatım olmuşdu. Həmin anlara qayıtmaq üçün hər şeyi verərdim. Onsuz da əlimdə demək olar ki, heç nə qalmayıb. Ofisin yorğunluğu be-

lə mənə çox şirin gəlirdi. Günlərlə xatirələri beynimdə yenidən canlandırmaq, həmin anlara həsəd aparmaq dözülməz idi. Hər bir insanın həyatında enişlər olur. Mənim həyatımda da çox oldu, mən də çox yıxıldım və məhv olmaq üzrə idim. Həyatda ən vacib amillərdən biri güvən qazanmaqdı. Mən çox danışmayan, sakit biri idim. Daxilimdə baş verənləri demək olar ki, heç kəs bilmirdi. Bu səbəbdən də insanlar belə hadisələr baş verəndən sonra məni mənfi xarakterli biri kimi qəbul etdilər və məni qatil kimi qəbul etdilər. Bəlkə də mən doğmalarım, dostlarım ilə səmimi olsaydım mənə güvənərdilər. Tək səhvim məgər bu idi? Məgər bu kiçik səhvə görə mənə belə nəhəng cəza verilməli idi?

Nə qədər müddət burada qaldığımı bilmədiyimə görə gözətçi qapını açanda bu dəfə də yemək atacağını gözləyirdim. Əvəzində isə içəri gözətçi ilə bərabər polis əməkdaşı daxil oldu. Polis əməkdaşı mənim bu vəziyyətdə olduğuma görə həbsxana gözətçisini cəzalandırmalı idi. Onun məni döyməyə, əl qaldırmağa belə haqqı yox idi. Yalnız polis əməkdaşı sakit idi və mənim vəziyyətim onu narahat etmirdi. Deməli döyülmək yazılmamış qanunlardan idi. Əlindəki sənədlərə baxdı və bir neçə dəqiqə sonra danışmağa başladı:

– Cəza müddətin bitib. Artıq kameraya qayıdacaqsan.

– Yaxşı. Çox sağ olun. – Dedim.

Beynimdə canlandırdığım xatirələr zamanı yemişdi. Artıq burada qalmağımdan bir həftə keçmişdi.

– Analizində çıxıb ki, narkotik istifadə edirsən. Nə məsələdi?

– Ola bilməz. – Nə baş verdiyini anlamırdım. – Bu sadəcə ola-

raq mümkünsüz idi.

– Mən yalan deyirəm? – polis hirsli baxışlarla dedi.

– Yox. Sadəcə mən heç nə qəbul etmirəm.

– Analizə inanıram, sənə yox. Sənin işin artacaq.

– Mən istifadə etmirəm. Başqa məhbus mənim yeməyimə əlavə edir. – Turqutun məni zəhərləməsinə artıq əmin idim.

– İnanıram sənə. – Dedi və qəhqəhə çəkdi. – Apar, kameraya!

– Yaxşı. – Gözətçi məni qolumdan tutdu və aparmağa hazırlaşdı.

– Baxın, mən həqiqətən də onu qəbul etmirəm.

– Səsini kəs! Burada bir həftə də əlavə qalmaq istəmirsənsə, tərpən! – gözətçi məni hədələdi.

– Yaxşı. – Dedim və qoca kişilər kimi belimdən tutaraq yürüməyə başladım.

Ayaqlarımı sürütləyirdim, normal yeriyə bilmirdim. Bədənimi belə dik saxlaya bilmirdim. Bütün bunlar məni kədərləndirmirdi, əsas odur ki, ən azından gəzə bilirdim. Məni əsəbləşdirən isə bu analiz məsələsi idi. Turquta hirsim sonsuz idi. Onunla tamam başqa formada danışacaqdım. Artıq ona qarşı olan qorxum hirsə çevrilmişdi.

Kameraya daxil olan kimi gözlərim Turqutu axtarırdı. Turqut isə sanki yox olmuşdu. Cabbar isə məni görən kimi ortadan yox oldu, bu o demək idi ki, məndən qorxurdu. İlk öncə Turqut ilə danışmalı idim, daha sonra Cabbar ilə söhbət edəcəkdim. Kameraya gələnə kimi ayaqlarım çox yorulmuşdu. Otura bilmirdim, çox ağrıyırdım. Yerimdə uzandım. Turqut məsələsini həll etməkdən ötrü özümü topar-

lamalı idim.

– Necəsən, İlkin? – Balaca yanıma gəldi və soruşdu.

– Yaxşıyam, çox sağ ol. Turqut hanı?

– Məhkəməsi oldu. Azadlığa çıxdı.

– Necə yəni? – ağrılarım çox olsa da yerimdən durdum, Balacaya daha çox yaxınlaşdım.

– Hə, günahsız imiş. Mən gedim, işim var.

– Yaxşı, get.

Artıq baş verənləri tam olaraq anlayırdım. Turqut məni zəhərləyirdi, ona bu işi tapşırmışdılar. Əvəzində isə ona azadlıq bəxş etmişdilər. Onu edən isə Qara idi. Başqa kim ola bilər ki? Qara niyə edib axı? Deməli onun adamını öldürdüyümə görə cəza verir. Bir dəfə də olsun mənimlə söhbət etməyib. Bəlkə də vəziyyəti ona danışanda mənə inanardı.

– İlkin, yadımdan çıxıb. Bu məktubu sənə göndəriblər. – Balaca mənə zərf verdi və getdi.

Zərfi götürdüm və kənara qoydum. Baş verənləri hələ həzm edə bilmirdim. Bu zərf isə məni çox qorxudurdu. Başıma gələn növbəti faciə nədir? Bəlkə atamın, anamın başına pis hadisə gəlib? Başım çox ağrıyırdı, əllərim ilə başımı tutdum. Zərfi açmağa, hətta kimdən gəldiyini oxumağa belə ürək etmirdim. Bir neçə dəqiqə donmuş vəziyyətdə baxışlarımı zərfdən çəkmədən qaldım. Bu bir neçə dəqiqədə çarəsiz vəziyyətdə idim, bu vəziyyət cəsarətsizlik deyildi. Dərindən nəfəs aldım və özümü toparlayaraq hazırlaşdım. Sanki məni yumruqlayırdılar, mən isə növbəti zərbəyə hazırlaşırdım. Təəssüf ki,

həyatın vurduğu zərbələr daha ağır və dözülməz olur.

Zərfi götürdüm və üzərindəki adı oxudum. Məktub Almazdan idi. Məni əsəb, hirs bürüdü. Bir zamanlar sevdiyim qadına necə də nifrət edirdim. Zərfi açdım və məktubu oxumağa başladım. Məktubda isə yazılmışdı:

*"İlkin, sən mənim oğlumun atasısan. Səninlə ayrılsaq da azadlığını istəyirəm. Sən Cavadı oğulluqdan çıxart. Artıq məni, Cavadı sevən biri var. Bu adam sənin müdirin Qaradı. Qara istəyir ki, Cavadı oğulla götürsün. Qara çox yaxşı insandı, mənə kömək oldu, indi də kömək olur. Cavadı çox istəyir, oğlu kimi qəbul edir. Cavadın üzülməyini görür. Cavada görə səni azadlığa çıxartmağa hazırdı. Səni azadlığa çıxartsa qorxur ki, sən çıxandan sonra Cavadı, məni onun əlindən alarsan. Ona görə deyir ki, Cavadın atalıq hüququ onda olsun. Qara bizə dayaqdı, sən oradasan, sənin oğluna baxır. Cavadı arada görərsən. Səninlə telefonla danışa bilmirik, səninlə görüşməyə də qorxuram. Ona görə yazıram. Ağlın olsun, qəbul et. Cavad üçün qəbul et."*

Almazın məktubunu oxuyandan sonra şoka düşdüm. Qara özü məni Almaza xəyanət etməyə istiqamətləndirdi, bəlkə də cinayət də onun teatrı idi, məni narkoman elədi, ailəmi əlimdən aldı. Bunları qəbul edə bilmirdim. Qəhqəhə çəkərək ağlayırdım. Nə etdiyimi belə bilmirdim. Ağrılarım çox olsa da yerimdən durdum, otağın mərkəzində olan masanı, oturacaqları yerə çırpırdım. Qəhqəhə ilə ağlamağım isə bir-biri ilə fasiləsiz əvəz olunurdu. Məhbuslar üzərimə gəldilər və məni saxlayırdılar. Məhbuslardan birinin qolunu dişlədim. Qəhqəhədən sonra qışqırmağa başladım, səsim ətrafa yayılmışdı.

Polis gözətçiləri içəri daxil oldu. Mənim qollarımdan tutub sürüyərək aparırdılar. Mən isə qışqıraraq söyürdüm, hər kəsi söyürdüm, həyatımı söyürdüm. Dəhlizdə başımın arxasında küt bir ağrı hiss elədim və huşumu itirmişdim.

## X

Gözlərimi açanda palataya bənzər ağ otaqda idim. Həbsxanadan fərqli olaraq ətraf təmiz idi, ifunət qoxusu gəlmirdi. Əvəzində dərman qoxuları gəlirdi. Əllərimi, ayaqlarımı tərpətmək istəyəndə onların bağlı olduğunu hiss etdim, hərəkət edə bilmirdim.

– Kimsə var? Bura haradı? – qışqırdım.

Xəstəxana otağında olmağım bəlli idi. Bəlkə də dəlixanada idim. Otağın bütün hissələri, ətrafda olan hər bir əşya köhnə idi. Ümumiyyətlə, otaq köhnə təmirli idi. Mənə cavab verən olmadı.

– Kimsə var? – var-gücümlə qışqırdım. Yenə də ucadan qışqırmaq sayılmırdı. Bədənimin zəiflədiyi kimi sanki səs tellərim də zəifləmişdi.

Saatlarla eyni vəziyyətdə uzanmış formada qalmışdım. Dəfələrlə qışqırmağıma baxmayaraq, səs verən olmadığından artıq vəziyyəti qəbul etdim.

Almazın yazdığı məktubundan yazılanları xatırlamamağa çalışsam da məktubda yazılan hər cümlə, hər söz gözümün önünə gəlirdi. Məni bu vəziyyətə kimin saldığı bəlli idi – bu Qara idi. Qara məni içizdirdi, nə etdiyini bilmirəm, amma Almaza xəyanət etməyimə şərait yaratdı. Cinayətin necə baş verdiyini hələ dəqiq anlamır-

dım. Onu da Qaranın etdiyini deyə bilmirdim. Bəlkə Qara inanırdı ki, bu cinayəti mən etmişəm və məndən qisas ala bilərdi. Turquta da Qara tapşırıq vermişdi ki, məni zəhərləsin. Çarəsizlikdən Turquta inanmışdım. Turqut isə mənim zəifliyimdən istifadə etdi və mənim vasitəmlə özümü zəhərlədi. Ona görə mənə əlavə narkoman, dəli damğası da vuruldu. Bəlkə də Qara mənim cinayət etmədiyimi bilirdi, cinayəti öz üzərinə götürməmək üçün mənim üzərimə atırdı. Məni də buraya ona görə saldırdı ki, cinayəti mənim etdiyimə dair sübut yoxdu. Almazı da əlinə aldı və mənə daha da ağır zərbə vurdu. Cavaddan belə istifadə etmək istədi. İlk öncə dəli olmadığımı sübut etməli idim.

Otağın ağ divarları məni qorxudurdu. Əllərimin, ayaqlarımın bağlı olmağı məni darıxdırırdı. Düşünürdüm ki, bəlkə də məhz Qaranın əlində idim. Var-gücümlə qollarımı açmağa çalışdım, ayaqlarımı isə ümumiyyətlə tərpədə bilmirdim. Elə yerimdə vurnuxurdum, heç bir irəliləyiş olmurdu.

– Məni buraxın! Qollarımı açın! Buraxın məni! – dayanmadan qışqırırdım. – Buraxın məni! Kimsə var? Kömək edin! Buraxın məni!

Çox uzaqdan səslər gəlirdi. Bəlkə də qulağıma səslər gəlirdi. Qaranın burada olduğunu düşündüm və qışqırmağa başladım:

– Lənətə gəlmiş Qara! Ailəmi, azadlığımı, sağlamlığımı əlimdən aldın. Əclaf Qara! Şərəfsiz Qara! – nə qədər qışqırsam da nə mənə səs verən oldu, nə də mən sakitləşirdim. Yenə də anlaşılmayan səslər gəlirdi.

Həbsxanada gördüyümdən daha real görünüşlə Cavad gözü-

mün önündə peyda oldu. Yenə də qəmgin, kədərli idi. Cavad dayanmışdı və mənə baxırdı. Gözünü belə qırpmırdı. Düşünürdüm ki, yenə də gözümə görsənirdi.

– Yox, sən yoxsan. Sən beynimin məhsulusan. Sən Cavad deyilsən.

Cavad tədricən mənə daha da yaxınlaşırdı. Ona toxunmaq istəyirdim.

– Gəl, yaxın gəl. Mənimlə danış, sirdaşım ol.

– Ata… – Cavadın dodaqları yüngül tərpəndi.

– Oğlum, Cavadım… – Göz yaşlarımı saxlaya bilmirdim. Titrəyən səsim özümə qəribə gəlirdi. – Səni çox sevirəm, Cavad. Bilmirəm sən Cavadsan, yoxsa yox. Mən oğlumu çox sevirəm. Sən Cavad deyilsənsə, ona necə sevdiyimi de, yalvarıram.

Cavaddan daha səs gəlmədi. Oğlum arxa-arxaya getdi və sanki yox oldu.

– Cavaaad… – Qışqırırdım və ağlayırdım.

Çox çarəsiz vəziyyətdə idim. Nə qədər qışqırsam da heç bir faydası yox idi. Məni eşidənlər olsa da səsimə gəlmirdilər. Məni eşitməməkləri mümkün deyildi. Mən onların sakit səslərini eşitdiyim halda onların mənim qışqırtı səsimi duymamaqları mümkün deyildi.

Həm cismim, həm də ruhum əzab çəkirdi. Ümidsiz şəkildə bağlı vəziyyətdə qalmaq çox çətin idi. Bilinmirdi ki, mən burada öləcəkdim və ya kimsə gələcəkdi və məni çarpayıdan azad edəcəkdi. Ən azından desəydilər ki, bir neçə saat belə vəziyyətdə qalacaqsan, o zaman insan dözərdi. Həmin anda olan vəziyyətim dəhşətli idi.

Həyatımda heç bir zaman ağlamadığım qədər içdən ağlayırdım. Hayqırırdım, qışqırırdım, Qaranı, həyatımı, özümü lənətləyirdim. Saatlarla ağladım. Bir müddət sonra daha gözümdən yaş axmırdı. Sanki göz yaşlarım qurumuşdu. Hava da qaralmağa başlamışdı. Saatlarla ac, susuz idim, üstəlik ayaqyolundan istifadə edə bilmirdim. Daha qışqırmırdım, heç kəsi çağırmırdım. Mənim səsləməyim ilə heç kəsin yanıma gəlməyəcəyi məlum idi. Gözlərimdən axan duzlu göz yaşları yanaqlarımda qurumuşdu, çatlamış dodaqlarımı yandırırdı. Gözümün önündə son günlərdə olduğu kimi Almaz və Cavad ilə birgə yaşadığımız xoş anlar canlanırdı. Həmin anlarda çox bəxtəvər idim. Xatirələrə dalırdım və gülümsəyirdim. Həmin anları yaşayan insana həsəd aparırdım. Mən xatirələr içində olarkən ölmək istəyirəm. Reallıqları qəbul edə bilmirdim. Keçmişimdə yaşayaraq ölmək istəyirdim. İnsan hər şeyini itirəndə itirmək sırası özünə gəlir.

## *III Fəsil*

### I

Xəbərim olmadan yatmışdım. Yuxudan oyananda hər iki tərəfində iki ağ xalatlı qadının əyləşdiyini gördüm. Onlardan biri mənə tərəf əyildi və soruşdu:

– Özünü necə hiss edirsən?

– Yaxşıyam. Bura haradı?

– Narahat olma. Sən daha da yaxşı olacaqsan. İndi isə söz ver ki, qollarını, ayaqlarını açdıqdan sonra sakit duracaqsan.

– Söz verirəm. Susamışam

Hər iki qadın qollarımı, ayaqlarımı açdılar. Uzun müddətdən sonra hərəkət edə bilməyim mənə rahatlıq verdi. Söz verdiyim kimi sakit uzanmışdım. Yüngül formada ayaqlarımı, əllərimi tərpədirdim.

– Tibb bacısı sənə yemək, su gətirəcək. Ayaqyolundan da istifadə edə bilərsən. – Həmin qadın otağın daxilində qapını göstərdi və dedi. – Rahatlanandan sonra səninlə söhbət edəcəyik. – Dedi və hər iki qadın otağı tərk etdi.

Başım ilə təsdiq etdim və həkimin göstərdiyi ayaqyoluna getdim. Orada güzgüdə özümə qəmli baxışlarla baxdım, özümə yazığım gəlirdi. Üzümü saqqal basmışdı. Son dəfə nə zaman saqqallı idim, xatırlamırdım. Görünüşüm çox dəyişmişdi, qoca görsənirdim. Sanki 32 deyil, 40 yaşımda idim, hətta mənə 40-dan da çox yaş vermək olardı. Oğlum məni bu vəziyyətdə görsəydi yəqin ki, qorxardı. Yazıq vəziyyətə düşmüşdüm, məni sındırmışdılar.

Otağa daxil olanda tibb bacısı artıq otaqda idi. Çox susamışdı və dəhşətli dərəcədə ac idim. Tibb bacısı gətirən suyu nəfəs almadan içdim, az miqdarda üstümə də tökdüm. Yeməyi isə dayanmadan ac gözlüklə yedim. Tibb bacısı isə baxışlarını yerə dikmişdi, mənim yeməyimi bitirməyimi gözləyirdi. Boşqabları ona qaytaran kimi otaqdan çıxdı.

Tibb bacısı otaqdan çıxandan sonra dərhal həkim otağa daxil oldu və çarpayımın kənarında oturacaqda əyləşdi. Mən də çarpayıda əyləşmişdim. Görkəmim həddən artıq dərəcədə yazıq vəziyyətdə idi, bəlkə də həkimin mənə yazığı gəlirdi.

– Hə, İlkin. – Həkim söhbətə başladı. – Mən sənin həkiminəm, adım Könüldü. Mənə sənin haqqında məlumatlar verdilər. Görünür ki, başına çox işlər gəlib. Bu otaqda müalicə alacaqsan. Biz də sənin yaxşı olmağın üçün əlimizdən gələni edəcəyik. Sən bu otaqdan çıxmayacaqsan. Unutma ki, sənin günahsızlığın sübut olunmayıb və polis gözətçiləri qapıdadılar.

Könül xanımın danışdıqları mənə sanki kiçik bir ümid verdi. İlk dəfə idi ki, mənim günahsız olma ehtimalını düşünən insan var idi.

– Anladım, Könül xanım.

– Elə isə keçək söhbətimizə. Hallusinasiyan tez-tez hallarda olur?

– Həbsxanaya düşəndən sonra olub.

– Həbsxanada məhbusa hücum etmisən. Narkotik vasitələrdən istifadə etmisən.

– Həmin məhbus mənim üstümə şər atdı. Mən istifadə etməmişəm, digər məhbus yeməyimə, içməyimə qatıb.

– Yaxşı, aydındır. Bəs burada dünən oğlunu gördün, düzdü?

– Bəli, elədi.

– Bəs özünü niyə döymüşdün?

– Məni gözətçi döyüb. Mən dəli deyiləm.

– Məhbuslar da sənin normal olmayan hallarını müşahidə ediblər. Üstəlik özün də təsdiq edirsən ki, vəziyyətin anormaldı.

– Məni bu vəziyyətə salan həbsxanadı. Əslində mən normalam.

– Yaxşı. Polis əməkdaşları yanına gəlməlidilər. Mən onların bu gün gəlməklərinə icazə verməyəcəm. Sən dincəl, fikirlərini, düşüncələrini toparla. Sabah sənin ilə danışmağa gələcəklər.

– Bəs müalicəm necə davam edəcək?

– Mütəmadi olaraq, gündə bir neçə dəfə tibb bacısı dərmanlar verəcək. Əsas çalış ki, özünü sakit apar. Nə deyilirsə, ona da əməl et. Bizə əlavə xoşagəlməyən işlər görməyə məcbur etmə.

– Yaxşı. Atamla danışa biləcəm?

– Biləcəksən.

– Çox sağ olun.

Könül xanım çıxan kimi tibb bacısı daxil oldu.

– Ağzınızı açın! – Nazik, şirin səsi ilə elə tərzdə əmr etdi ki, dediyini etməmək mümkün deyildi.

Ağzımı açdım. Ağzıma dərmanı atdı və içmək üçün su verdi.

Suyu içdim.

– Ağzınızı açın! – bir daha eyni tərzdə dedi. Ağız boşluğumun hər tərəfinə baxdı. Dərmanı udduğumdan əmin olduqdan sonra otaqdan çıxmaq üçün qapıya doğru getdi.

– Adınız nədi? – maraq gücüm qalib gəldi və mən soruşdum.

– Tibb bacısı müraciət edə bilərsiniz. – Dedi və qapını örtdü, getdi.

Tibb bacısı böyük ehtimal ki, mənim kimi məhbuslara nifrət edirdi. Mənim simamda qatil görürdü. Kaş buradan çıxa biləydim və günahsızlığım sübut olunardı. Hər kəs mənim günahsız olduğuma inanardı, məni qatil kimi tanımazdılar. Almazın məktubu yenə də gözümün önünə gəlirdi. Almaz çox tərbiyəli, gözəl, mədəni, incə, qayğıkeş bir xanım idi. İndi isə necə bu qədər alçala bildi, anlamırdım. Bəlkə də onun belə alçalmasının səbəbkarı mənəm. İlk xəyanəti Almaz etsəydi nə olardı? Mən də onun kimi alçalardım? Almaz oğluna görə etməməli idi. Razıyam ki, ailə qursun, xoşbəxt olsun. Sadəcə belə tez və belə əxlaqsız formada ona yaraşmırdı. Cavad necə olacaq? Onun tərbiyəsi, təhsili necə olacaq? Qara oğlumun həyatını da məhv edəcək? Ümumiyyətlə, Qara nə səbəbə bunları etdi? Bəlkə Almazı əlinə almaq üçün etdi? Almaz kimi qadını daha asan yolla əldə edə bilərdi. Adam öldürməyə nə ehtiyac var idi ki? Mən ki, sakit insan idim. Heç kəs ilə düşmənçiliyim yox idi, küsdüyüm insan belə yox idi. Bütün bu olanlar mənim başıma gəlməli deyildi.

Dəhşətli dərəcədə yuxum gəlirdi, tam formada uzanmağa macal tapmamış oturmuş vəziyyətdə yuxuya daldım.

Gözəl bir yuxu görürdüm. Ailəm ilə birgə keçirtdiyim son günü yuxumda yenidən yaşayırdım. Valideynlərimin məni qucaqlamasını, Almazın, Cavadın şirin gülüşlərini görürdüm.

– Siz mənə inandınız? Mən sizə demişdim axı, günahsızam.

– Bilirik, İlkin, bu həftə də bizim yanımıza gəlməyə Cavad məcbur edib. – Atam qəhqəhə çəkərək dedi.

– Mən həbsxanada olanda sən Qara ilə nə edirdin? – Almazdan hirsli şəkildə soruşdum.

– Hansı filmdəndi, İlkin? – Almaz keçmişdə olduğu kimi qolumdan vurdu, zarafatlaşdı.

– Ata, ata, gələn dəfə dənizdə qumdan evi elə böyük tikək ki, babayla nənə də girə bilsin. – Cavad qucağıma atılaraq dedi.

– Cavad, biz bəyəm belə kökəlmişik? – anam zarafatcasına inciyərək soruşdu.

– Hə nənə. Sənin qarnın var.

Həmin an Almazın qarnı böyüdü. Sanki hamilə idi.

– Anamın da qarnı var, bacımı yeyib. – Cavad qəhqəhə çəkdi.

Almazın qarnına əlimi vurmağa çalışırdım. Əlimi qarnına vurmaq istədikcə Almaz məndən uzaqlaşırdı. Nəinki Almaz, hər kəs məndən uzaqlaşırdı.

Qışqıraraq oyandım. Gördüyüm yuxu çox real idi. Artıq saatlar idi ki, yatmışdım. Pəncərədən havanın qaralmağı axşamın düşdüyünü göstərirdi.

Xəyallarımı xatırlayırdım. Bir qızımın olmağını dəhşətli dərəcədə çox istəyirdim. Kaş Qaradan uzaq olardım, tanımadığım insana

inanmazdım. Hər şey tamahkarlığıma görə oldu. Razı idim, çox işləyərdim, çox yorulardım. Ən önəmlisi – ailəm yanımda olardı, azad olardım.

Tibb bacısı içəri daxil oldu, əlindəki bir boşqab yeməyi mənə tərəf uzatdı. Bəlkə qışqırmağımı eşitmişdilər və ona görə gəlmişdilər. Bəlkə də onlara bu tərz qışqırtıları eşitmək adi hal idi. Yalnız yeməyin yarısını yeyə bildim və boşqabı ona qaytardım. Tibb bacısı isə boşqabı kiçik masanın üzərinə qoydu və yenə eyni tərzdə:

– Ağzınızı açın! – dedi.

Dərmanı qoydu və bu dəfə suyu özü içirtdi. Anlamırdım ki, yeni yuxudan oyanmağıma baxmayaraq nə səbəbə yenidən mənə dərman verirdilər və yatızdırırdılar. Tibb bacısının qaşqabaqlı baxışlarından çəkindiyimə görə onun dediyini edirdim. Bəlkə də buraya yeni gəlmişdim və məni sakitləşdirməyə çalışırdılar.

– Ağzınızı açın! – dərmanı udduğumdan əmin olduqdan sonra qapını örtdü və getdi.

Bu dəfə qapıya diqqətlə baxanda qapının kənarında ayaqüstə dayanan gözətçiləri gördüm. Artıq təcrübəli idim və uzandım. Bir neçə dəqiqə sonra yeni yuxudan oyanmağıma baxmayaraq, ağır yuxu üzərimə çökdü.

– Kaş Cavadı görüm, oğlumu görüm… – Pıçıldayaraq yuxuya daldım.

Həmin anda ən böyük istəyim Cavadın gülən üzünü bir daha yuxuda görmək idi.

## II

Yuxudan oyananda həkim ilə tibb bacısını yanımda gördüm.

– Özünü necə hiss edirsən? – həkim soruşdu.

– Yaxşıyam.

– Özünə gəl. Polislər bir azdan gələcəklər.

– Yaxşı.

Səhər yeməyindən sonra tibb bacısı mənə dərman vermədi. Dünən olduğu kimi nə üzümə baxırdı, nə də ki, əlavə söz deyirdi. Sakit, öz dünyasında imiş kimi işini görürdü. Bəlkə də onun özünə də psixoloji dəstək lazım idi? Belə vəziyyətdə olmağı normal idi. Dəlixanada işləyən başqa necə olmalı idi?

Tibb bacısı otaqdan çıxandan sonra iki polis əməkdaşları otağa daxil oldular.

– Salam, İlkin. – Yaşda nisbətən daha böyük olanı dedi.

– Salam.

Təxmini 50 yaşlarında olardı. Bəlkə də 32 yaşım olan mən onunla eyni yaşda kimi görsənirdim. Yaşı böyük olan polis stulda əyləşmişdi. Mənim yaşımda olan digər cavan polis isə ayaqüstə dayanmışdı, əllərini arxasında birləşdirmişdi və otaq boyu səbrsizcəsinə gəzişirdi.

– Deməli belə. – Bir neçə dəqiqə fasilədən sonra əsas polis söhbətə başladı. – Adam öldürmək işin qalıb, hələ istintaq davam edir. Bu öz yerindədi. Hələ narkotik məsələn də var. Bu məsələ barəsində hər şeyi danış! Həbsxanada onu necə əldə etmisən? Nə qədər müddətdir ki, işlədirsən?

– Mən işlətməmişəm.

– Bəs analizin cavabı?

– Mən ondan istifadə etməmişəm. Mənə oyun oynayıblar. Bu vaxta qədər heç kəsi satmamışam. Mənə satqın desələr də mən hər şeyi sizə anladacağam.

– Hə, danış görək. – Dedi və digər polisə tərəf çönüb əlavə etdi:

– Sən də qeyd elə, ora-bura fırlanma.

Cavan polis isə blaknotunu, qələmini əlinə aldı və digər yanımda əyləşdi.

– Mən həbsxanaya düşəndə məni hər kəs tərk etdi. İndi də elədi. Tək atam ilə danışırdım. Ondan da yemək gətirməsini xahiş edə bilmirdim, üzüm yox idi. Məhbuslardan Turqut mənə yemək-içmək verirdi.

– Nə demək istəyirsən? Yəni həbsxanada səni ac saxlayıblar? Nə nağıl danışırsan? – əsas polis əsəbləşdi. – Sən də yazırsan, ay axmaq? – köməkçi polisə qışqırdı.

– Qısaca, Turqutun mənə yemək verməyinə görə mən onun tanışı vasitəsilə iki dəfə içəri mal salmışam və ona vermişəm. Turqut isə onun vasitəsilə məni zəhərləyib. Səbəbkar isə Qaradı. Hər şeyi Qara edib, qətli də mən eləməmişəm. – Onun qışqırmağına baxmayaraq, baş verənlərin qısa məzmununu sürətlə, bir nəfəsə danışdım.

– Bu doğurdan dəlidi. Bəlkə özünü gicliyə qoymusan, hə?

– Mənə inanın. Mən hər şeyi necə olubsa elə də danışıram. Araşdırın, görəcəksiniz ki, düz deyirəm. Hər şeyi Qara edib.

– Qaradı, qırmızıdı nədi, sənin düşmənindi yoxsa dostun?

– Əlbəttə ki, düşmənim.

– Bəs hər şeyi Qara edibsə, niyə səni həbsxanadan çıxartdırıb, tək adamlıq təmiz otağa saldırıb? Hələ də sənə qulluq edirlər. Qalmışdın da xarabada.

– Səbəb odur ki, cinayətin mənim etməyim haqqında heç bir sübut yoxdu. Günahsızlığım ortaya çıxacaqdı, mən azad olunacaqdım. Qara isə məni dəli kimi qələmə verdirdi, ikinci cinayəti də üstümə atır ki, azadlığa çıxa bilməyim.

– Necə uydurursan a... Sən elə bilirsən ki, bizi rahat gic yerinə qoya bilərsən? Yəni biz sənə burada dəyə bilmərik?

– Mən olanları deyirəm.

– Bu dəlidi, yazıq adamdı. Gəl gedək. – Köməkçi polis dedi.

– Sən məni axmaq yerinə qoyursan. – Dedi və əyilib məni boğmağa başladı.

– Mən düz deyirəm. – Boğultulu səslə tək bunu deyə bildim.

– Burax onu! Görmürsən ki, dəlidi? – köməkçi polis əsas polisi arxaya itələdi. – Neyləyirsən? Məni də zibilə salmaq istəyirsən? Yazarıq ki, dəlidi. Danışığını bilmir, ağlı yerində deyil.

Əsas polis boğmağı dayandırsa da hələ də boğulurdum. Durmadan, fasiləsiz olaraq öskürürdüm. Əsas polis hələ də hirsli baxışları ilə mənə baxırdı, köməkçisi isə hələ danışırdı:

– Bunu öldürsəydin nə olacaqdı? Bunun üzünə bax hələ. Görmürsən ki, ağlı yerində deyil? Adama belə oxşamır.

– Uşaqsan, otur yerində! – əsas polis onun üstünə də qışqırdı.

– Mənə problem yaratma! Mən olmayanda öldür.

– Sən axmaqsan, qorxaqsan.

– Buradan gedək. Bunun halı pisdi, bizim üstümüzdə qalacaq.

– Əclaf, heyvan, məni gic yerinə qoyur. – Dedi və hər ikisi otağı tərk etdi.

Onlar çıxan kimi həkim və tibb bacısı içəri daxil oldular.

– İlkin, yaxşısan? – həkim soruşdu.

Əl işarələri ilə boğulduğumu göstərdim. Ürəyim çox sıxılırdı, boğulurdum. Öskürəyim fasilə vermirdi.

– İynə vuraq? – tibb bacısı həkimdən soruşdu.

Həmin an həkim cavab vermədi və ayaqyolundan ləyən gətirdi və tibb bacısına verdi.

– İynə yox. Bunu ağzının altında tut.

Sanki ürəyim də çıxacaqmış kimi qaytardım. Yazıq tibb bacısı başını yana çevirmişdi və bu iyrənclikləri görməmək üçün gözlərini bağlamışdı. İstəmədən üstümü də batırdım. Qaytarandan sonra sakitləşdim və normal nəfəs almağa başladım.

Tibb bacısı tək məni ayağa durquzdu və ayaqyoluna apardı. Bədənim çox zəif idi, qaytarmağım zəif bədənimi daha da zəiflətmişdi. Tibb bacısı mənə beldən yuxarı hissəmi yumaqda kömək elədi. Özümü təmizləməyə belə taqətim qalmamışdı. Məni yatağıma uzatdı və təmiz paltar geyindirdi. Könül isə kömək etmirdi, pəncərənin önündə dayanmışdı və olanları müşahidə edirdi.

– Çox sağ olun, çox bağışlayın. Sizdən üzr istəyirəm. Çox iy-

rənclik etdim.

– İlkin, – Könül söhbətə başladı. – Bir neçə gündür ki, buradasan. Hələ polislər çox yanına gələcəklər. Hər dəfə biz səni özünə gətirməyəcəyik, təmizləməyəcəyik. Sənin şəxsi tibb bacın yoxdu. Sanatoriyada yaşamırsan. Bu son dəfə olsun. Bir daha təkrarlansa belə olmayacaq.

– Məni polis boğdu.

– Səbəbi isə sənin dirəşməyindi. Nə deyirlərsə, hə de.

– Axı düzünü…

– Sən ruhi xəstəsən. Sən nəyin düz olduğunu bilmirsən. – Könül sözümü kəsdi.

Hər ikisi otağı tərk etdi. Mən artıq özümü idarə edə bilmirdim. Məni tibb bacısı təmizlədi, geyindirdi. Bütün bunları özüm eləyə bilmirdim. Polisin dediyi sözlər beynimdə fırlanırdı. Onun dediyi kimi yazıq, adama oxşamayan, heyvan idim. Bəlkə də məni təhqir etsəydilər bu sözlərdən daha yaxşı olardı. Bir insan daha nə qədər bədbəxt ola bilərdi, daha nə qədər alçala bilərdi? Mən artıq ölü kimi idim. Bundan sonra kimə lazım idim mən?

Özümü ağlamamaq üçün sıxsam da bacarmırdım. Həkimdən, tibb bacısından çox utanırdım. Ağzımı bağlayıb səssiz ağlayırdım. Hələ heç kəsin qarşısında bu dərəcədə köməksiz, çarəsiz olmamışdım. Ölməyim üçün daha nə lazım idi? Daha nə hadisə başıma gəlməli idi ki, mən yox olum? Bundan artıq başıma nə gələ bilərdi ki? Həyatda qazandığım hər şeyi itirdim. İşimi, oğlumu, yoldaşımı, valideynlərimi, azadlığımı, sağlamlığımı, gücümü, vicdanımı, qüruru-

mu, arzularımı, insanların mənə olan güvənini, həyat eşqimi, ümidlərimi, mənliyimi itirdim. İlkin artıq yox idi, İlkin hər mənada ölüb. Bütün bunlar niyə oldu? Səbəb nə idi axı? Uşaq kimi ağlayırdım. Çarəsiz, aciz idim. Bu qədər də bədbəxtlik olmaz idi axı. Məgər mənim tək günahım daha yaxşı işdə işləməyi qəbul etməyim idi?

Pəncərənin çox çirkli olmasına baxmayaraq, buludları görürdüm. Onlar belə ağlayırdılar. İri su damlaları şüşədə sürüşürdü, aşağı düşürdü. Boz buludlar sanki bərbad vəziyyətimi ağlayaraq müşahidə edirdilər. Son dəfə açıq səmaya, buludlara baxmağı xatırladım. Çox gözəl idilər. Kaş mənə cəmi bir gün azadlıq verərdilər. Həmin bir gündə buludlara baxardım, Günəşin isti şüaları altında qızınardım. Valideynlərimi qucaqlayardım, Cavad ilə çoxlu oynayardım. Cavadı söz verdiyim çimərliyə hava soyuq olsa da son dəfə aparardım, dənizi seyr edərdik. Kaş günün sonunda sonsuz dalğalanan dənizin qoynunda yuxuya dalardım, son dəfə buludlara baxaraq sonsuzluğa qovuşardım.

## III

Qəflətən qapı açıldı və otağa iki gözətçi ilə birgə atam daxil oldu. Atam üçün çox darıxmışdım. Onun gəlməyini gözləmədiyimdən özümü itirmişdim. İstəmədən kövrəldim və gözlərim yaşardı. Atam mənimlə görüşmək istəyən tək insan idi. Ola bilər ki, atam da mənimlə görüşmək istəmirdi. Sadəcə tək övladı olduğum üçün məcbur idi. Atam otağa daxil olarkən ilk addım atdı və dayandı, sanki ayaqları kilitlənmişdi. Atam bu aylarda çox qocalmışdı. Hansı ata belə oğul

ilə qocalmazdı ki? Onu mən – yeganə övladı qocaltmışdım. Atam qamətini düzəltdi və ağır addımlarla mənə tərəf yaxınlaşdı, yanımdakı oturacaqda əyləşdi. Polislər isə qapının önündə dayandılar. Atam baxışlarını aşağıya dikmişdi və bir söz söyləmirdi. Ağır-ağır nəfəs alırdı.

– Salam, ata. Çox sağ ol ki, gəldin.

– Salam, İlkin, necəsən?

– Yaxşıyam, ata.

– Yerindən ayağa dura bilmirsən. Yaxşı olmağın budur?

– Yaxşı olacam.

– Mənə həbsxanada olanları danışdılar. Sən niyə etmisən?

– Məcbur idim.

– Narkotik istifadə etməyə məcbur idin?

– Mənə başqa məhbus yeməyimə qatırdı.

– Bəs yemək gətirməyi mənə niyə demirdin?

– Sənə onsuz da çox böyük yük idim.

– Bəs bu vəziyyətin yaxşıdı?

– Ata, mən sənə hər şeyi danışacam. Sən sadəcə mənə inan. Mənim buradan çıxmağıma kömək ol, yalvarıram.

– Oğlum, sənin problemlərin var. Həbsxanada qalmaqdansa burada qal.

– Mən buradan çıxsam günahsızlığım sübut olunacaq.

– İlkin, bəsdi. Elədiklərini boynuna al!

– Doğurdan mən etməmişəm. Qara məni bu vəziyyətə salıb.

– Qara sənin oğluna atalıq edir. Sənin etməli olduğun işi görür. İlkin səhvlərini boynuna al, cəzanı çək, zamanı çatanda azadlığa çıxacaqsan.

– Sən mənə heç bir zaman inanmayacaqsan.

– Hər şey göz önündədi. Elə bilirsən ki, səni bu vəziyyətdə görmək mənə asandı? – atam göz yaşlarını saxlaya bilmədi.

– Ağlama, ata. Başını dik tut. Bir gün günahsızlığım sübut olunacaq. Hər kəs də səndən üzr istəyəcək. Bilirəm, sizə çox ağırdı. Bir daha yanıma gəlmə. Əsas başını dik tut. Deyilən boş fikirlərə də fikir vermə. Sənin övladın qatil deyil.

– Mənə çox ağırdı.

– Bilirəm, ata. Səni çox sevirəm. Məni bağışla. Son dəfə məni qucaqlaya bilərsən?

Atam ağlayaraq məni qucaqlayırdı, bağrına basırdı. Bir neçə dəqiqə elə vəziyyətdə qaldıq. Son vaxtların ən xoşbəxt anını yaşayırdım. Sanki bir neçə dəqiqəlik keçmiş həyatıma geri dönmüşdüm. Atamın tanış qoxusu mənə rahatlıq verirdi. Bu anların heç bitməməsini istəyirdim. Kaş zaman durardı, biz də bu vəziyyətdə əbədi qalardıq. Dəfələrlə atamı qucaqlamışdım, amma bu hissi heç bir zaman hiss etməmişdim. Kaş azad olardım və hər gün bu anı yaşayardım. Ya da bir gün azad olardım, saatlarla atamla, anamla vaxt keçirdərdim. Sonra ölsəm də olardı.

Atam məni buraxdı və göz yaşlarını sildi.

– Bir daha gəlmə, ata. Sənə buraya gəlmək ağırdı, bilirəm. Mən azad olacağam. Hər şey əvvəlki kimi olacaq. Sadəcə mənə inanın.

– Yaxşı, İlkin. Anan burada olduğunu bilmir.

– Hə bilməsin. Cavadla çox vaxt keçirdin. Onun tərbiyəsinə, təhsilinə diqqət yetirin. Qara cinayətkardı, oğlumu korlamasın.

– Yaxşı, İlkin. Sağ ol.

– Sağ ol, ata. Özünüzə yaxşı baxın. Sizi sevirəm.

Atam otağı tərk edəndə də ağır addımlarla addımlayırdı. Atam otağa daxil olarkən otağa daxil olmağa çətinlik çəkdiyi kimi otaqdan çıxanda çətinlik çəkirdi. Ona çox ağır idi, onun vəziyyətini anlayırdım. Həyatımda ilk dəfə idi ki, onun ağlamağını görürdüm. Dəhşətli hadisələr baş versə də atam məni sevirdi. Bütün iyrənc hərəkətləri etdiyimə inanırdı, lakin məni yenə də sevirdi. Kaş mən də Cavada atam kimi yaxşı ata ola bilərdim, oğlumun hər anında ola bilərdim. Mən artıq oğlumun gülümsəmə səbəbkarı yox, qəm-kədər səbəbkarı olmuşdum. Çiyinlərimdə çox ağır yük, məsuliyyət var idi. Üstəlik mən də başqalarına da yük olmuşdum. Artıq tibb bacısından da utanırdım, onun qarşısında xəcalət çəkirdim. Mən son dəfə Qara ilə söhbət etməli idim. Bütün elədiklərinin səbəbini bilməli idim. Daha sonra ölə bilərdim.  Atam bəlkə də anlamışdı ki, ona dediyim pozitiv sözlər boş sözlər idi və onunla vidalaşırdım. Mən olmayandan sonra atam, anam çox pis olacaqlar. Belə vəziyyətdə də pisdilər, həm də onlara əlavə yükəm. Həyatda olmasam onlara daha rahat olacaq.

Tibb bacısı otağa daxil olanda ondan həkimi çağırmasını xahiş etdim. Heç bir söz söyləmədi, yeməyimi verdi və getdi. Bir neçə dəqiqədən sonra Könül otağa daxil oldu.

– Üzrlü sayın ki, sizi narahat etdim. – Utana-utana dedim.

– Nə istəyirsən? – narazı tərzdə soruşdu.

– Bilirəm ki, sizin səlahiyyətinizdə deyil. Sadəcə mən bir nəfərlə danışmalıyam. Kimə deyə bilərəm?

– Bu səbəbdən məni çağırmısan? Qarşında uşaq var?

– Bağışlayın, amma…

– Bizi barmağına dolayırsan? – əsəbi şəkildə sözümü kəsdi.

– Yox, heç vaxt.

– Aparın bunu tez cəza otağına! – Könül qapının önündəki gözətçilərə dedi.

Gözətçilər məni ayağa durquzdular, hər iki qolumdan tutdular və qapıya doğru apardılar.

– Məni niyə aparırsınız? Orada mənə nə edəcəksiniz?

Heç kəs cavab vermədi. Buraya gəldiyim gündən ilk dəfə idi ki, məni otaqdan çıxardırdılar. Məni başqa bir otaqda uzandırdılar. Gözətçilər əllərimi, qollarımı, hətta belimi də kəmər ilə çarpayıya bağladılar. Könül və tibb bacısı sinəmə müxtəlif naqillər ilə əlaqələndiriciləri yapışdırdılar.

– Siz mənə nə edirsiniz? Mən sizə nə etdim? Cavab verin! – çox əsəbləşmişdim, yerimdə vurnuxdum. – Nə edirsiniz mənə? – qışqırırdım. – Kömək edin! – qışqırırdım.

Tibb bacısı başımı yuxarı qaldırdı və elə vəziyyətdə başımı saxladı. Könülün isə nə etdiyini görə bilmirdim. Sümüklərimi belə sızıldayan bir ağrı hiss etdim, sanki öləcəkdim. Bütün bədənim titrədi. Çox əzablı və dəhşətli idi. Üç dəfə təkrarlandı. Bitəndən sonra huşumu itirmişdim.

Ayılanda artıq öz otağımda idim. Elektrik cərəyanı məni bərbad vəziyyətə salmışdı. Başım, bədənim partlayırdı. Gözlərimi bağladım, yatmaq istəyirdim. Bəlkə yuxuda ağrılarımı hiss etməzdim. Kaş tibb bacısı gələrdi, mənə dərman verərdi. Könüldən və tibb bacısından bu vəhşiliyi gözləmirdim. Sanki tamam başqa insanlar idilər, mən pis olanda kömək edən insanlar deyildilər. Artıq bilirdim ki, bu da Qaranın işi idi. Mən burada olmağımın tək səbəbkarı Qara idi. Qara istəyirdi ki, mən burada əzablı şəkildə ölüm. Mənim tək istəyim isə səbəbini bilmək idi. Səbəbini bildikdən sonra özümdə güc toplayacaqdım və həyatla vidalaşacaqdım. Onsuz da günbəgün bura məni ölümə yaxınlaşdırır, sadəcə hər dəfə əlavə əzab çəkirdim. Daha əzab çəkməyə gücüm yox idi. Atam gəlməmişdən öncə Könül ilə tibb bacısı mənə qarşı normal davranırdılar. Atamın ilk və son gəlişindən sonra onlar əsl üzlərini mənə göstərdilər.

Çox qəribə idi ki, bir neçə saat əvvəl atamın isti qoynunda çox xoşbəxt idim. Bir neçə saat sonra isə bədbəxt idim. Körpə uşaq kimi ağlayırdım. Anamı istəyirdim, onunla da vidalaşmaq istəyirdim. Onun qoxusunu duymaq, nəvazişini, isti nəfəsini hiss etmək, məni sığallamasını istəyirdim.

Gözlərimin önünə Cavad gəlirdi. Başımın üzərində dayanmışdı və mənə baxırdı. Çox real idi, hafizəmdə olan Cavad necə də oğluma bənzəyirdi. Tək çatışmayan cəhəti gülümsəməməsi idi. Niyə axı? Heç olmasa bir dəfə gülümsəsəydi, nə olardı ki? Cavad mənim yaddaşımda gülərüz və pozitiv idi.

– Xoş gəldin, Cavad. – Pıçıltı ilə dedim.

Əvvəl həkim və tibb bacısından utanırdım və səssiz olurdum. İndi isə onlardan çox qorxurdum. Yenə də əllərim ilə ağzımı bərk-bərk sıxaraq ağlayırdım. Göz qapaqlarım ağırlaşmışdı, yatmaq istəyirdim. Yuxum ağrılarıma qalib gəlmişdi. Bəlkə də oyananda ağrılarım azalar ümidi ilə yatırdım. Özümü aldadırdım ki, oğlum yanımdadı. Cavad isə yerindən tərpənmirdi. Pıçıltı ilə gülümsəməsini xahiş edərək yatdım.

## IV

Artıq tibb bacısı normal yemək gətirmirdi. Əslində çox yemək yeməyimə ehtiyac yox idi. Demək olar ki, hərəkət etmirdim, enerji itirmirdim. Günün çox saatını yatırdım və uzanırdım. Yaşadıqlarımın səbəbi mənə çox maraqlı idi. Bəlkə də məni həyatda saxlayan bu maraq idi.

Könül otağa daxil olanda içimi qorxu bürüdü, diksindim. İlk dəfə idi ki, bir qadından bu dərəcədə qorxurdum. Çarpayıda arxaya sıxıldım, sanki orada gizlənə biləcəkdim.

– Al, İlkin. Səninlə danışmaq istəyən var. – Könül mobil telefonu mənə tərəf uzatdı.

Başım ilə təsdiq etdim, telefonu qulağıma qoydum və heç bir söz söyləmədən dinləyirdim.

– Alo, İlkin. – Almazın səsini eşitdim. Bütün bədənimi əsəb bürüdü.

– Nə istəyirsən? – hirsli tərzdə soruşdum.

Könül isə otaqdan çıxmamışdı, qollarını sinəsində çarpazlayıb

diqqətlə söhbətimizə qulaq asırdı.

– Necəsən?

– Sözünü de!

– Məktubumu oxudun? Qara dedi ki, zəng edim sənə. Onun təklifi ilə razısan?

– Qaraya ver telefonu!

– Evdə yoxdu.

– Gələndə de yanıma gəlsin, ya da zəng eləsin.

– Ona nə sözün var?

– Əlindən almayacağam sevgilini.

– Cavadın necə olduğunu da soruşmayacaqsan?

– Atamdan soruşuram. Sən Qaraya de onunla danışmaq istəyirəm.

– Yaxşı.

– Bir daha zəng eləmə. Sənin səsin belə iyrənc gəlir.

– Sənin özün iyrəncsən, qatil.

– Mən qatil deyiləm. Sənə elə sözlər demək istəyirəm ki… Yanımda həkim var.

Həmin an Könül mənə təhdit edən baxışları ilə baxırdı. Mən isə özümü saxlamaq gücündə deyildim. Almaza qışqırdım, ona təhqiredici ifadələr söylədim. Könül telefonunu əlimdən aldı və otaqdan çıxdı. Bir neçə dəqiqə sonra Könül ilə birgə gözətçilər otağa daxil oldular.

– Yenə çaşdı. Aparın dünən apardığımız otağa! – həkim bar-

mağı ilə məni göstərərək dedi.

– Mən sizə heç bir söz demədim.

– Sən qışqırdın, söyüş söydün. Burada söyüş söymək, qışqırmaq qadağandı. Sözə qulaq asmadın, cəzanı almalısan.

– Məni buraxın! Sizə yalvarıram, buraxın məni! Daha etməyəcəyəm. – Məni aparanda qışqırırdım.

Eyni formada gözətçilər məni uzandırdılar və bağladılar. Yerimdə vurnuxurdum. Öz istədiyim kimi ölmək istəyirdim.

Bu dəfə mənə cərəyan cəzası vermədilər. Ağzımı xüsusi cihaz ilə bağladılar. Tədricən nəfəsim kəsilirdi və mən boğulurdum. Yerimdə vurnuxurdum, çox əziyyət çəkirdim. Bir neçə müddət sonra aparatı çıxartdılar və nəfəs almağıma imkan verdilər. Mən isə danışa bilmirdim, fasiləsiz olaraq öskürürdüm. Yenidən eyni proseduru yerinə yetirdilər. Könül bu müddətdə başını kənara çevirirdi, boşluğa baxırdı. Tibb bacısı isə həmişə olduğu kimi baxışlarını aşağı dikmişdi. Üçüncü dəfə də eyni proseduru etdilər və bu dəfə son oldu. Ağzımı açanda bir neçə dəqiqə danışa bilmədim, öskürürdüm, öskürəyim dayananda acgözlüklə hava alırdım, təngənəfəs olmuşdum. Gözlərimdən yaş gəlirdi. Çox utanırdım, çəkinirdim, lakin zəifliyimi gizlədə bilmirdim. Bir kişi üçün qadınların önündə ağlamaqdan daha aşağılayıcı hərəkət ola bilməzdi.

Nəhayət danışmağa güc tapdım və Könüldən soruşdum:

– Almaz dedi ki, mənə cəza verəsiniz?

– Yox, Qara. Almaz sadəcə ona güvənir.

– Bir daha onunla məni danışdırmayın.

– Deyəsən bir neçə dəqiqə əvvəl olduğun vəziyyətin yadından çıxdı. Sən mənə əmr edirsən?

– Yox, xahiş edirəm. – Onunla danışanda üzünə baxmırdım. Onun utanmalı olduğu vəziyyətdə mən utanırdım.

– Sizdən bir xahişim var.

– Sən doğurdan dəlisən, həm də manyaksan. Ağrı çəkmək xoşuna gəlir.

– Sadəcə Qara ilə danışmalıyam, sizdən sadəcə xahiş edirəm.

– Deyəsən dördüncü dəfə də istəyirsən?

– Yox. Üzr istəyirəm.

– Sonuncu olsun. – Dedi və gözətçiləri məni aparmaqları üçün çağırdı.

Gözətçilər məni qaldığım otağa gətirdilər və otağı tərk etdilər. Ayaq üstə çox az dayanırdım, çox az ayaqlarımı hərəkət elətidirirdim. Heç nə etmədən ayaq üstə dayanmaq artıq mənə çox qəribə gəlirdi. Həm də ayaqlarım, bütün bədənim sızıldayırdı. Keçmişdə doyunca yatmağı çox istəyirdim. Həftəsonlarını gözləyirdim ki, bir neçə saat çox yatım. İndi isə nələr etməzdim ki, həmin günlər geri gəlsin. Çox ayaq üstə dayanmağa gücüm qalmadı və uzandım.

Almazın mənə nə səbəbə zəng etdiyini anlamırdım. Almaz məni düşünmürdü, mənim üçün narahat deyildi ki, öz istəyi ilə zəng etsin. Doğurdan da zəng etməyini Qara istəmişdi. Bu yolla da mənə ağrı vermək istəyirdi. Almazın onunla birlikdə olması mənə dəhşətli dərəcədə əzab verirdi. Qara hər dəfə yaralarımı yenidən qanadırdı. Qara hər şeyi əvvəldən planlamışdı. Mənim üçün ən şərəfsiz həkimi

seçmişdi. Atam gələnə kimi mələk rolunu oynayan, özü kimi ürəksiz həkim tapmışdı. Tibb bacısına pis olurdum. Danışmırdı, dinmirdi, daim fikirli, kefsiz idi. Cavan qadındı, xoşbəxt ola bilərdi. Burada cəmiyyətin tör-töküntülərini görməkdən məhv olmuşdu. Görəsən Könülün mənim başıma gətirdiklərinə görə pis olurdu? Bəlkə də Könülün dediklərini elədiklərinə görə vicdan əzabı çəkirdi. Həqiqətən də insanlar çox qəribədilər. Vəziyyətim çox acınaqcaqlı olan halda yenə də başqalarına görə pis olurdum. Mən həqiqətən də pis insan deyildim. Başıma gələnlərin 1%-i belə çəkməli deyildim. Bəs niyə bu qədər əzab çəkirdim? Bəs haqq, ədalət harada idi?

Tibb bacısı otağa daxil oldu, dərmanımı verdi, onu udduğumu yoxladı və getdi. Artıq ilk vaxtlar olduğu kimi iki dəfə ağzını aç demirdi. Onun dediyini gözləmədən ağzımı açırdım. Tibb bacısı isə yoxlayırdı və gedirdi.

Bir müddət sonra dərin yuxum gələcək və dərin yuxuya dalacaqdım. Hər dəfə yuxumda Cavadı görməyi arzulayırdım. Cavadın tərbiyəsi, təhsili məni çox narahat edirdi. Valideynlərim bir müddət onun qayğısına qalacaqdılar. Sonra baş verəcəklər isə hələ məlum deyildi. Almaz kimi ananın oğlumun gələcəyini puç etməsindən çox qorxurdum. Cavadı yemək, içmək, geyimlər, oyuncaqlar ilə Qara təmin edirdi. Qara mənim oğluma atalıq edir, mənim yoldaşım ilə sevişirdi. Bir insan necə bu dərəcə alçaq ola bilərdi? Qara mənim ailəmi oğurladı. Cavadımın gələcəyi üçün çalışdığım halda ona normal bir gələcək bəxş edə bilmədim. Çox maraqlı idi ki, mən olmayandan sonra Cavad məni xatırlayacaqdı? İlk öncə üz cizgilərimi, daha sonra sə-

simi unudacaqdı, bəlkə də kölgə kimi dumanlı şəkildə yaddaşında qalacaqdım. Oğlum məni günahlandıracaqdı, mənə nifrət edəcəkdi. Onu tək qoyduğum, anasını ağlatdığım, qatil, narkoman olduğum üçün mənə nifrət edəcəkdi, mənim onun atası olduğum üçün utanacaqdı. Bəlkə də hər kəsə Qaranın onun atası olduğunu deyəcəkdi. Əslində onun hansı işlərlə məşğul olduğunu bilməyəcəkdi, onunla qürurlanacaqdı. Mənə nifrət etsə də mən hər şeyi ona görə etdim. Ona görə də hələ də ümidlərim var idi. Bu səbəbdən də onun cismini gözümün önündə görürdüm.

Ölmədən öncə Cavada məktub yazmaq istəyirdim. Problem o idi ki, məktubu ona necə çatdıra bilərdim? Atam daha buraya gəlməyəcəkdi, burada da hər kəs Qaranın adamıdı. Cavad heç bir zaman doğru olanları bilə bilməyəcəkdi.

Yuxumun tədricən gəldiyini hiss edirdim. Artıq tək ümidim yuxularıma idi. Hər şeydən və hər kəsdən ümidlərimi kəsmişdim. Kaş yuxuda da olsa özümü xoşbəxt hiss edə biləydim. Bir gecə yuxuda xoşbəxt olmağım mənə bir günboyu bəs edirdi. Günboyu yuxumu yada salardım və növbəti gecə də xoş yuxu görməyə ümidlənərdim. Vəziyyətimin belə olacağını bir neçə ay əvvəl kimsə desəydi, inanmazdım. Bədbəxt olduğum vəziyyətdə yazıq insanlar görəndə də onlara yazığım gəlirdi, amma özümü onların yerinə qoya bilmirdim. Artıq nəinki özümü onların yerinə qoyurdum, hətta daha bərbad vəziyyətdə idim.

Yuxu sanki üzərimə çökmüşdü. Göz qapaqlarım ağırlaşırdı. Cavad önümdə dayanmışdı və mənə tamaşa edirdi. Yuxum çox olsa

da gözlərimi açıq saxlamağa çalışırdım, oğluma baxırdım. Hər dəfə gözümü bağlayandan sonra açanda Cavad daha da mənə yaxınlaşırdı. Son dəfə gözümü açanda artıq Cavad yox idi. "Cavadımı görüm, oğlumun şirin gülüşünü görüm." – Sakit pıçıldadım və gözlərimi bərk bağladım.

## V

Zaman ötdükcə sağlamlığım çox zəifləyirdi. Çox arıqlamışdım, çətinliklə hərəkət edə bilirdim. Hətta saçlarım da tökülürdü. Çox nadir hallarda çimə bilirdim, əsasən hissə-hissə yuyunurdum. Bəlkə də məndən üfunət iyi gəlirdi. Saqqalım çox uzanmışdı, yemək yeyəndə çirklənirdi. Belimdə donqar əmələ gəlmişdi. Qısaca vəziyyətim bərbad idi və daha da bərbad olmağa davam edirdi. Bəlkə də atamdan savayı məni kimsə görsəydi tanımazdı. Sanki on, bəlkə də daha çox yaş qocalmışdım. Mənim yerimdə cinayət edən biri olsaydı bu dərəcədə bərbad olmazdı. Həmin insan nə zəif olardı, nə də dəli olardı. Ən azından cinayətkarlar cinayətlərini həyata keçirəndə başlarına gələcəklərini əvvəldən gözlərinin önünə gətirirlər, hazırlıqlı olurlar. Ən azından haqq etdiklərini yaşayırlar, çəkməli olduqları cəzaları çəkirlər. Könül qapını açdı, məni dərin düşüncələrimdən ayırdı və əllərini belinə qoyaraq dedi:

– Yanına gələn var. Özünü ağıllı apar!

– Qara gəlib?

– Yox. – Dedi və getdi.

Bir neçə dəqiqə sonra gözətçiləri ilə birgə bir xanım otağa daxil

oldu. Bu xanım Qaranın katibəsi Gültəkin idi. Məni görən kimi gözləri yaşardı. Göz yaşlarını sildi və yanımdakı oturacaqda əyləşdi.

– Salam, xoş gəldiniz, Gültəkin xanım. Düzü bura xoş yer deyil.

– Nə yaxşı ki, məni tanıya bildiniz.

– Mən dəli deyiləm. Sizi Qara göndərib? Ona deyin ki, onunla danışmaq istəyirəm.

– Hə, Qara bəy deyib ki, mən sizinlə danışım.

Daha sonra isə qapının önündə dayanan gözətçilərə çöndü və dedi:

– Mən Qara bəyin xüsusi sözünü İlkinə çatdırmaq üçün buradayam. Qara bəy də istəməz ki, siz bunlardan xəbərdar olasınız.

Gözətçilər başları ilə təsdiqlədilər və otağı tərk etdilər.

– Gültəkin xanım, mən günahsızam.

– Bilirəm. – Pıçıltı ilə dedi. – Sakit danışın, bizi dinləyirlər. – Eyni pıçıltı ilə davam etdi.

– Mənə kömək edə bilərsiniz ki, buradan çıxım? – mən də eyni pıçıltı ilə dedim.

İçimdə ümid qığılcımı yarandı.

– Edə bilmərəm, sübutum yoxdu. Həm də mən ona işləyirəm, onun əlinin altındayam. Heç bir sübutum olmadığım halda kim mənə inanar? Qara məni öldürər.

– Mən də ümidlənmişdim.

– Mən sizə heç bir formada köməklik edə bilmərəm. Bircə Ca-

vad barəsindən başqa.

– Oğlumu haradan tanıyırsınız?

– Almazın işi çox olur. Bəzən də Cavada mən baxıram. Cavad sizin üçün darıxıb.

– Necədi oğlum? Məndən nə danışır?

– Yaxşıdı. Deyir ki, atası, evi üçün çox darıxıb.

– Ah, oğlum. Qara ona pis davranmır?

– Yox, Qara onunla yaxşı yola gedir.

– Telefonumu götürdülər, yoxsa videoları, şəkilləri sizə göstərərdim. Amma məndə bir şəkil var, hazırlıqlı gəlmişəm. – Dedi və cibindən bir şəkil çıxartdı. – Buyurun. – Dedi və şəkli mənə verdi.

Gültəkinin verdiyi şəkildə Cavad, atam və anam birlikdə idi. Cavad valideynlərimin arasında oturmuşdu və gülürdü. Qabaq dişi yox idi. Necə də şirin görsənirdi. Valideynlərim də gülümsəyirdilər. Anam üçün çox darıxmışdım. O zaman ən böyük istəyim anamı görmək idi. Çox xoş bir şəkil idi. Bəlkə də artıq on dəqiqə idi ki, şəklə baxırdım. Kövrəlmişdim və göz yaşlarımı saxlaya bilmirdim.

– Üzrlü sayın, mən özümü saxlaya bilmədim. – Göz yaşlarımı silə-silə söhbətə davam etdim.

– Eybi yox. Mən gedəndə şəkli sizdən götürərəm, buradakılar şəkli görsələr, Qara məni öldürər.

– Yaxşı, siz gedənə kimi baxım. Şəkil yaddaşımda uzun müddət qalsın.

– Qara məni göndərdi ki, sizi razılaşdırım ki, Cavaddan imtina edəsiniz.

– Qələt eləyir. Heç bir zaman imtina etmərəm.

– İmtina etsəniz də Qara sizi buradan çıxartmayacaq.

– Əclafın biridi. İfadəmə görə üzrlü sayın.

– Eybi yox.

– Qaranın bunları etməsinin səbəbi nədir?

– Bilmirəm. Tək bildiyim sizdən nəyinsə qisasını alır.

– Nəyin qisasını? Kimin qisasını?

– Həqiqətən bilmirəm.

– Mənim sizdən xahişim var.

– Buyurun. Mən də sizin başınıza gələnlərdə günahkaram. Qaranın sizinlə bağlı planları ətraflı bilmirdim, tək bildiyim sizdən qisas almaq istəməsi idi. Sadəcə onun necə bir insan olduğunu sizə deməli idim. Onun sizdən qisas almaq istəyini sizə deməli idim. Məni bağışlayın.

– Eybi yox, Gültəkin xanım. Sizdən tək xahişim odur ki, oğlumun yanında olun. Almaz kimi qadın ona analıq edə bilməz. Oğlum Qara kimi cinayətkar olmasın. Cavad çox ağıllı, saf uşaqdı. Daim belə olsun. Mənim evim var. Həmin ev mən olmayanda Cavadın olacaq. Tək arzum Cavadın təhsilli, savadlı olmasıdı. Həmin evi satılmağa vasitəçi olarsınız, pulu oğluma yatırarsınız. Almaz nə desə də oğluma sərf edilməsinə kömək edərsiniz. Tərbiyəsinin yaxşı olacağına nisbətən rahatam. Hələ ki, valideynlərim yanındadı. Bir gün valideynlərim də olmayacaq. Tək ümidim sizədi. Cavad böyüyəndə mənim başıma gələn faciələri ona anlatın. Atasının günahsız olduğunu bilsin. Doğma atasından utanmasın, Qaraya ata deməsin. Baş verən-

ləri danışanda Qara sağ olarsa, onun adını deməyin. Oğlum mənə görə qisas almasın, qatil olmasın. Siz mənə söz verin, mən sizi bağışlayacağam.

– Sizə söz verirəm. – Məni diqqətlə dinləyəndən sonra dedi.

– Siz həyatda mənim günahsız olduğumu bilən və inanan tək insansınız.

– Gözünüz arxada qalmasın. Cavadı çox istəyirəm, bu gündən mənim də oğlum sayılır. Hər zaman onun yanında olacağam, zamanı gələndə də baş verənləri ona deyəcəyəm.

– Çox sağ olun. Çalışın ki, Qara buraya gəlsin.

– Siz çox sağ olun. Onu necə edə bilərəm?

– Ona deyin ki, sizin təklif ilə razı olmadım. Təklif edin ki, özü gəlsin. Bəlkə onda qorxaram, razı olaram.

– Yaxşı, mən gedim. Şəkli də verərsiniz.

– Bir dəqiqə də qalın. Şəklə baxım.

– Yaxşı, İlkin bəy.

Diqqətimi şəkildən kənarlaşdıra bilmirdim. Onları xoşbəxt görmək həqiqətən də çox xoş idi. Şəkildə həkk olunan hər xırda detalı belə yaddaşıma yazırdım. Şəklin çəkilmə anını yaddaşımda təsəvvür edirdim. Kaş mən də orada ola bilərdim.

– Şəkli siz çəkmisiniz?

– Bəli, mən çəkmişəm.

– Bir daha çox sağ olun, Gültəkin xanım.

– Siz sağ olun. Cavad mənə əmanətdi. Tam rahat ola bilərsiniz.

– Çox sağ olun. Hər gün yatanda yuxuda onu gülümsəyən vəziyyətdə görməyimi arzulayıram, pıçıltı ilə təkrar edirəm ki, oğlum yanıma gəlsin. Tək ümidim artıq yuxularıma qalıb. Onun hafizəmdə olan əksi isə qəmlidi.

Gültəkinin gözləri yaşarmışdı, kövrəlmişdi.

– Mən gedim, sağ olun. – Dedi, otaqdan çıxmaq üçün qapıya tərəf getdi və geriyə döndü gülümsədi, otağı tərk etdi.

Gültəkin otağı tərk edən kimi Könül içəri daxil oldu.

– Siz niyə danışmırdınız? – əllərini sinəsində çarpazladı.

– Danışırdıq, qız utancaqdı.

– Almazı bununla aldatmışdın?

– Yox.

– Sevgilindi?

– Yox. Qara göndərib.

– Sözünü Qaraya çatdırdıq, İlkin bəy. – Yuxarıdan aşağıya baxaraq dedi.

– Çox sağ olun.

Könül aşağılayıcı tərzdə baxdı və otaqdan çıxdı. Bəlkə də gözləyirdi ki, Gültəkin ilə danışanda da qışqırım, dalaşım və mənə əzab versin. Mənə çox maraqlı idi ki, məni dəfn edəcəkdilər? Yoxsa Qara meyidimdən də qisas alacaqdı? Bütün bunlar nəyin qisası idi? Ola bilər ki, Qara məni kiminləsə səhv salmışdı. Digər tərəfdən də düşünəndə Qara axmaq deyildi. Gültəkin bu gün mənə xoşbəxtlik, rahatlıq gətirdi. Artıq Cavada görə nisbətən rahat idim. Həmin gözəl şəkildən aldığım həzz çox böyük idi. Həqiqətən də insan həyatı çox

qəribədir. Hər gün gördüyüm, əzizlədiyim oğlumu bir neçə ay sonra yuxularımda görməyi xəyal edirdim. Onun şəklini kağız parçasında görəndə isə sanki sevincimdən uçurdum. Həmin şəkli gözümün önünə gətirirdim. Mən ailəmi həqiqətən çox sevirdim. Onlara olan sevgim məni həyatda saxlayırdı.

Tibb bacısı qovrulmamış, suda bişmiş vermişel boşqabı ilə otağa daxil oldu. Qabı mənə verdi və adəti üzrə döşəməyə baxırdı, yeməyimin bitməyini gözləyirdi. Boşqabda yeməyin az olmağına baxmayaraq, yalnız yarısını yeyə bildim. Həm iyrənc yemək idi, həm də ki, ac deyildim. Boşqabı ona verdim. Tibb bacısı isə boşqabı götürdü və dərmanı qablaşdırmasından çıxartdı.

– Niyə adınızı demirsiniz?

– Ağzınızı açın! – sanki sual verməmişəm kimi əmr etdi.

Mən isə ağzımı açmadım və sual verməyə davam etdim:

– Niyə burada işləyirsiniz? Bura sizə pis təsir etmir?

Bir söz demədi, göz yaşlarını saxlaya bilmədi və dərman ilə suyu yanımda olan balaca masaya qoydu, otağı tərk etdi.

Əslində çox gözəl qız idi, Könül kimi qəddar, vicdansız da deyildi. Çox sakit idi, görünür ki, məcburiyyət qarşısındadı və öz işini görür.

Artıq vərdiş etdiyim dərmanı su ilə uddum. Mən bu dərmana qarşı deyildim. Dərman mənə yuxu verirdi, məni yatızdırırdı. Əvəzində Cavadı xoşbəxt şəkildə yuxuda görə bilmək şansım artırdı. Gözümün önünə gələn Cavad isə çox qəmli idi, onu görəndə ürəyim sıxılırdı. Mən oğlumu şəkildə gördüyüm kimi görmək istəyirdim.

## VI

Tənhalıq insanı daxilindən məhv edir. İnsan zaman keçdikcə hər bir ağır şəraitə uyğunlaşdığı kimi tənhalığa da uyğunlaşır. İnsan tənha olanda yaşadığı keçmiş həyatını daha düzgün anlayır, baş verən hər bir hadisəni daha dəqiq analiz edə bilir. Tənha olanda nə etmək mümkündür? Yalnız yaşadıqlarını xatırlamaq, xatirələrə dalmaq olar. Keçmişdə fikir vermədiyim hər xırda detalı burada düşünürdüm, onları daha aydın anlayırdım. Aldığım təmiz havanın, isindiyim Günəşin belə dəyərini çox gec anlamışdım. Hər gün şikayətləndiyim hadisələr artıq mənə şirin, əlçatmaz gəlirdi. Həftənin hər günü belə ofisdə işləməyə razı idim, bu qədər uzanmaq, dincəlmək, yatmaq mənə yetərdi. Cəmiyyətə geri dönmək, dayanmadan işləmək istəyirdim. Çox gec anlamışdım ki, keçmiş İlkin çox xoşbəxt və şanslı idi. Yaşadığım həyatımın dəyərini çox gec anlamışdım. Mən artıq sınmış insan idim, məni cəmiyyət geri almazdı. Mənim kimi insanları cəmiyyət qəbul etmir, mənim kimi insanlara heç kəs hörmət etmir, yaxınlıq etmir, hətta mənim kimilərdən hər kəs qorxur, öz əzizlərini mənim kimilərdən qoruyurlar, mənim kimilərə cəmiyyətin tullantısı kimi baxırlar. Amma insanlar anlamırlar ki, insanın yaşadıqlarını, nə etdiklərini bilmədən mühakimə etmək olmaz. Bəlkə də mənim kimi günahsız yüzlərlə insanlar əziyyət çəkiblər və hələ də çəkməyə davam edirlər. Sanki həyatda mən ilk yaşlarımdan bədbəxt olmalı idim, nə isə iş səhv gedib və mənim normal həyatım olub, kimsə bunu qəflətən anlayıb və həyatımı məhv edib. Anam hər zaman mən şikayətlənəndə daha bədbəxtləri, daha pis vəziyyətdə olanları nümunə gəti-

rərdi və şükür etməyimi deyərdi. İndi isə məndən pis vəziyyətdə yalnız ölü insan olmalı idi. Bəlkə də ölü insan məndən daha şanslı idi. Ən azından əzab, ağrı çəkmirdi. Qara mənə hər cür – həm fiziki, həm də mənəvi əzab yaşatdı. Qara bütün prosesləri əvvəldən planlamışdı və sıralamışdı. Heç bir zaman düşünməmişdim ki, bu dərəcədə dəhşətli əzablara dözə bilərəm. Bütün bu olanların bir zaman baş verəcəyi ağlıma belə gəlməzdi.

Tibb bacısı əlində boşqab ilə içəri daxil oldu, yeməyi mənə verdi və yanımda əyləşdi. Çox həyəcanlı, həm də kədərli idi. Daxilində nə baş verdiyini anlamaq olmurdu, sanki həm danışmaq istəyirdi, həm də ağlamaq istəyirdi. Yeməyin yarısından az miqdarda yedim və boşqabı ona qaytardım. Tibb bacısı bu dəfə mənə dərman vermədi və yerindən də durmadı. Əllərini ovuşdururdu və həmişə olduğu kimi baxışlarını yerə dikmişdi.

– Demək istədiyiniz bir şey var? – onun danışmayacağını, lakin danışmaq istədiyini anladım və soruşdum.

– Var. – Baxışlarını döşəmədən çəkmədən dedi.

– Danışın. Mən təhlükəli, pis insan deyiləm. Bunu özünüz də bilirsiniz.

– Bilirəm. Mən isə əksinəyəm. Siz pis insan olmadığınız halda cinayətkar olduğunuzu hesab edirlər. Mən isə sizin kimi insanlara əzab verilməyə kömək etdiyim üçün pis insanam.

– Sizin başqa yolunuz yox idi.

– Vicdanım sızıldayır.

– Sızıldamasın. Siz mənə yemək gətirirsiniz, mənə dərman ve-

rirsiniz. İlk günlər məni təmizlədiniz.

– Könül sizə əziyyət verəndə mən də ona kömək edirdim.

– Sizin işiniz onun dediklərini etməkdi.

– Düzdü. Mən gedim.

– Dayanın. Sizdən bir xahişim var.

– Buyurun.

– Mən istəmirəm ki, öləndə kimsəsizlər qəbrstanlığında dəfn olunum. Sizdən tək istəyim odur ki, məni öləndə atam bilsin və məni atam dəfn etsin.

– Bəs atanız pis olmayacaq?

– Hər bir vəziyyətdə pis olacaq. İstəyirəm ki, atam məndən ötrü darıxanda yerimi bilsin, oğlum da yerimi bilsin.

– Yaxşı. Atanıza xəbər edərəm. – Dedi və telefonunu mənə verdi. – Buyurun, atanızın nömrəsini qeyd edin.

– Çox sağ olun. – Dedim və atamın nömrəsini yazdım. – Atamın adı Ayxandı. – Siz sağ olun. – Dedi, dərman ilə suyu balaca masada qoydu və otağı tərk etdi.

Tibb bacısı çox gözəl qız idi. Həm də ki, Könül kimi qəddar deyildi. Ona belə bir yerdə işləməyi yaraşdıra bilmirdim. Onunla söhbət etmək xoş gəlmişdi. Ən azından söhbətə başımı qarışdırmışdı.

Gün ərzində başımı fikirlər, düşüncələr dağıdırdı. Tibb bacısını masaya qoyduğu dərmanı su ilə içdim. Artıq dərmana öyrəşmişdim və dərhal yuxum gəlirdi. Gözlərimi yüngül bağladım. Tam yatmamışdım, yarı yuxulu vəziyyətdə anamı görürdüm. Anamın dizlə-

rində uzanmışdım və anam saçlarımı sığallayırdı, yanaqlarıma öpüş verirdi. Mən isə onun əllərini öpdüm və ürəyimin üzərinə qoydum. Onun saçları ağarmışdı, üzündə qırışları artmışdı. Anam mənə baxırdı və qayğıkeş şəkildə gülümsəyirdi.

– Dur! Tez elə! – Könül qışqırmağının səsi ilə iki-üç dəqiqəlik yuxumu pozdu.

– Nə olub? – qorxa-qorxa soruşdum.

– Bu səninlə nə danışıb? – tibb bacısının saçından tutdu və yerə itələdi.

– Heç nə. Niyə belə edirsiniz?

– Mən özüm bilərəm. Bunda niyə sənin atanın nömrəsi var? – Könül yenə qışqırırdı.

– Mən vermişəm, onluq deyil. Bilmirdim ki, olmaz. – Sakit səslə dedim.

– Sən niyə verdin? Məndən atana şikayət etsin?

– Yox, hər ehtimal verdim ki, nəsə olarsa, atama xəbər edəsiniz.

– Mən yoxam?

– Varsınız.

– Sən qovulursan. Sabah səni rəhbərliyə şikayət edəcəyəm. Rədd ol buradan! – yerdə uzanmış tibb bacısına qışqırdı.

Tibb bacısı ağlayaraq otaqdan çıxdı. Könül isə bir neçə saniyə sonra otağı tərk etdi. Bir neçə dəqiqə sonra Könül gözətçilər ilə birgə otağa daxil oldular. Gözətçilər iplər və iki su ilə dolu olan vedrə gətirdilər.

– Mənə nə edəcəksiniz?

– Cəzanı alacaqsan. – Könül otaqda olan oturacağı otağın ortasına qoydu.

Gözətçilər məni ayağa durquzdular və oturacağa əyləşdirib, əllərimi, ayaqlarımı bağladılar. Mən isə sakit əmrə tabe olurdum. Əlimdən gələn yalnız sakit şəkildə suallar vermək idi, nə qədər kəskin sual versəydim, söz desəydim daha çox işgəncə verəcəklər.

– Mən nə etdim? Sadəcə qıza atamın nömrəsini verdim.

Gözətçilər bir vedrə buz kimi suyu başımın üzərindən boşaltdılar.

Bir anlıq sanki beynim belə dondu. Bütün bədənim donurdu, titrəyirdim, dişlərimin bir-birinə dəyməsini belə eşidirdim.

– Necədi? – Könül başını əydi və üzümə baxaraq soruşdu.

Ardınca gözətçilər digər vedrə suyu da üzərimə boşaltdılar, əllərimi, ayaqlarımı açdılar və otağı tərk etdilər. Könül də onlar ilə birgə otağı tərk etdi.

Soyuqdan titrəyərək ayaqyolunda suya baxdım, orada da su buz idi. Elə sulu vəziyyətdə çarpayıya uzandım. Yataq da məni isitmirdi, titrəməyim dayanmırdı, donurdum. Ayaqlarımı sinəmə sıxaraq bükülü vəziyyətdə uzanmışdım. Soyuq iliklərimə qədər işləyirdi. Köhnə pəncərənin çərçivəsinin kənarından soyuq payız küləyi otağa daxil olurdu və daha da soyuq olurdu.

– Kömək eləyin! – çarəsiz qalmışdım, yalvararaq qışqırırdım. – Kömək eləyin! Donuram.

Könül dərhal otağa daxil oldu, ona yalvarmağım xoşuna gəlir-

di.

– Vay, vay. Bütün otaq sudur ki. Sən də yaşsan? – Könül məni dolayırdı.

– Kömək edin! – titrəyərək, kəkələyərək dedim.

– Necə edim?

– Donuram.

– Elə biz də donmağın üçün etmişik.

– Quru paltar verin, ya da dərman verin, yata bilim.

– Sənin üçün heç nə yoxdu. Səsin gəlməsin! – dedi və qapını çırparaq otaqdan çıxdı.

Gecə yata bilmədim, artıq dərmanıma öyrəşmişdim. Gecə boyu gözümün önündə gördüyüm Cavadın qəmli simasına baxaraq heç nə düşünmürdüm. Sanki nəhəng boşluqda idim. Soyuğa öyrəşmişdim, daha titrəmirdim. Bu cəzanı da keçmişdim. Könülün növbəti cəza planı hələ ki, məlum deyildi.

## VII

Artıq tibb bacısının soyuq davranışlarının, hərəkətlərinin səbəbini anlayırdım. Mənə görə burada sona qədər tab gətirə bilmədi, işsiz qaldı. Bəlkə daha yaxşı iş tapacaqdı və həyatı daha gözəl olacaqdı. Bəlkə də iş tapa bilməyəcəkdi və vəziyyəti pis olacaqdı. Yanıma gələn yeni tibb bacısı da onun kimi idi: söhbət etməzdi, danışmazdı. Yemək ilə dolu boşqabı verirdi, yemək yeməyimi gözləyirdi, dərmanı içizdirirdi, yoxlayırdı və otağı tərk edirdi. Tənhalıqdan çox sıxıldığım üçün tibb bacısının "aç ağzını!" ifadəsi belə xoş gəlirdi. Ən azın-

dan insan səsi eşidirdim. Burada iki tibb bacılarını müşahidə edərək qərara gəlmişdim ki, onların baxışları, ünsiyyətsizlikləri, yalnız eyni cümlələri təkrar etmələri onlara xüsusi olaraq öyrədilmişdi. Bəlkə də hər iki tibb bacılarının xasiyyətləri eyni idi. Eyni şəraitdə uzun müddət işləyən insanların davranışlarının uyğun olması normal idi. Mənim fikrimcə həm tibb bacılarına burada deyirdilər ki, xəstələrlə soyuq davranın, həm də tibb bacılarının özləri mənim kimilərdən uzaq olmaq istəyirdilər.

Könül otağa daxil oldu və ardınca qapını çırpdı. Çox qorxdum, diksindim, çarpayıya var-gücümlə sıxıldım. Sanki yatağın içərisində gözə görünməz olmaq istəyirdim.

– Qorxma, qorxma! – əllərini belinə qoyaraq dedi.

– Qorxmuram. – Çarpayıdan dikilərək dedim.

– Görsənir. Az qalsın ki, gözlərin yerindən çıxacaq. – Qəhqəhə çəkdi.

Cavabında bir söz söyləmədim və susdum. Oturacaqda əyləşdi, aşağılayıcı tərzdə baxırdı. Mən isə baxışlarımı ondan qaçırırdım.

– Həbsxanaya düşməmişdən əvvəl olan şəklinə baxdım. Keçmişdə adama oxşayırdın.

– Ola bilər.

– Çox dəyişmisən.

– Elədi.

– Nə gündə olduğunu bilirsən?

– Bilirəm.

– Artıq heç kəsə lazım deyilsən.

– Onu da bilirəm.

– Bizə əlavə yüksən.

– Məni öldürmək istəyirsiniz?

– Yox. Biz həkimik. Öldürmürük, sağaldırıq.

– Siz Qaraya deyin ki, gəlsin. Mən onunla danışandan sonra ölümə hazıram.

– Sən elə bilirsən ki, sən Qaraya nəsə edə biləcəksən?

– Mən qatil deyiləm. Mən sadəcə baş verənlərin səbəbini anlamaq istəyirəm.

– Sən Qaranı görəndə üstünə cumacaqsan. Ona görə də əllərini, ayaqlarını bağlamalı olacağıq.

– Bağlayın. Siz çalışın ki, Qara gəlsin. O zaman məndən də tez can qurtaracaqsınız.

– Yaxşı. Mən istəyirəm ki, məsələ tez həll olunsun. Sən mənə problem ola bilərsən.

– Çox sağ olun.

Könül cavabında heç bir söz söyləmədi və otağı tərk etdi.

Bir insan ona heç bir pis hərəkət etməyən insana qarşı necə belə qəddar ola bilərdi ki? Könül məni tanımırdı, mənə cəza verirdi, bununla bərabər məni aşağılayırdı, hətta ölmümü də gözləyirdi. Tibb bacıları da böyük ehtimal ki, onun qəddarlığından dəhşətli dərəcədə qorxurdular.

Düşünürdüm ki, Qara gələndə onunla rahat söhbət edə bilərik. Çox ümidli idim ki, bəlkə məni anlayardı, bəlkə də səhv etdiyini

anlayardı və mənim azad olmağım üçün şərait yaradardı. O zaman azad ola bilərdim və günahsızlığım aşkar oluna bilərdi. Bəs azad olsaydım keçmişdəki İlkin kimi ola biləcəkdim? Qaranı bağışlaya bilərdim? Heç bir zaman onun etdiklərini nə bağışlaya, nə də unuda bilərdim. Könül düz deyirdi ki, özümdən asılı olmadan onu görsəm üstünə cumardım. Mənim yerimdə hər kim olsaydı onu əlləri ilə boğardı.

Ayağa durdum və ayaqyoluna getdim. Öz əksimə güzgüdə baxdım. Qarşımda sanki ölü bir insan görürdüm. Məndə həyat əlamətləri zaman ötdükcə azalırdı. Çox ağır xəstəliyə düçar olmuş insanlara bənzəyirdim. Hər gün daha da son günümə yaxınlaşırdım. Əslində çox istəyirdim ki, yaşayım. Kiçik ümidlər belə məni yaşada bilərdi. Əsas bilsəm ki, ailəm mənə güvənir və mənim yanımdadı hər əzaba, hər ağrıya dözərdim.

Əllərim ilə üzümə toxundum. Qırışlarım çox vaxtsız əmələ gəlmişdi. Dişlərim belə sınırdı, saçlarım çox tökülürdü. Gözlərimin altında olan torbacıqlara əlimi vuranda sanki əllərim başqasının üzündə gəzirdi. Əllərimi sabit şəkildə saxlaya bilmirdim, əsirdi. Onlar belə qocalmışdı və qırışmışdı. İlkin artıq ölmüşdü və güzgüdə gördüyüm digər bir insan idi. Qızarmış və şişmiş gözlərimdən axan yaş bozumtul üzümdə aşağıya doğru axırdı. Mən ki, özümü ağlayan görməmişdim. Güzgüdəki əksimdən dəhşətə gəlirdim və sıxılırdım. Artıq kimsəsiz, evi olmayan insanlara bənzəyirdim. Onların pulu, evi yox idi. Mənim isə azadlığım, ailəm belə yoxdu. Hər birimiz yoxsul idik. Onlar maddi cəhətdən, mən isə mənəvi cəhətdən yoxsul idim. Onların pula, çörəyə, evə mənim isə havaya, Günəşə, isti qucağa ehti-

yacım var idi. Vəziyyəti mənim kimi olan insanları gördükdə onları sərxoş, cinayətkar, özlərini məhv edən axmaq kimi baxırdım. Bəlkə də həmin insanlar arasında da mənim kimi günahsızlar var idi. Son dəfə güzgüyə baxaraq göz yaşlarımı sildim və otağa daxil oldum. Ayaq üstə çox qalmışdım və yorulmuşdum. Ayaq üstə bir neçə dəqiqə dayanmaq belə məni yorurdu. Yerimə uzandım və çirkli pəncərəyə – qaçışan buludları tamaşa edirdim. Buludlar işlərindən evlərinə gedirlərmiş kimi tələsirdilər. Buludların hər biri müəyyən bir əşyanı və ya canlını xatırladırdı.

Anam üçün çox darıxmışdım. Son günlər onu yuxumda görürdüm. Bilirdim ki, anam atamdan mənim vəziyyətimi soruşurdu. Atam isə yəqin ki, yalan söyləyirdi və yanıma gəldiyini deyirdi. Böyük ehtimal ki, atam yanıma gəlmək istəyirdi. Sadəcə oğlunu belə vəziyyətdə görməyə ürəyi tab gətirmirdi. Atama çox ağır idi, hər bir ataya ağır olardı ki, onun tək övladını hər kəs qatil, narkoman, xəyanətkar, dəli kimi tanısın. Valideynlərim mənə qarşı çox əsəbi və incidilmiş idilər. Onlar məni hər kəsin hesab etdiyi kimi hesab edirdilər. Bu cür oğlun yanına bir neçə dəfə gəlmək, hətta qucaqlamaq belə böyük ürək tələb edirdi. Ancaq mən çox darıxmışdım, onlarsız bacarmırdım. Anamın nəvazişi, isti qucağı, şirin sığalları üçün, atamın xoş qoxusu, hətta zəhmli baxışları üçün belə çox darıxmışdım. Uşaqlar kimi yorğanı başıma kimi çəkmişdim və anam, atam üçün səssiz ağlayırdım. Uşaq olanda adətən bağçaya gedəndə belə ağlayırdım. Çalışardım ki, yatanda yorğanın altında ağlayım. Çünki istəmirdim ki, uşaqlar məni ağlayan görsünlər, mənə gülsünlər. 30 ilə yaxın müddət

artıq keçib və artıq həmin yaşda oğlum var. Mən isə balaca uşaqlar kimi valideynlərim üçün ağlayırdım. Yorğanın altında sanki boğulurdum. Yorğanı başımın üzərindən çəkdim və tez-tez nəfəs almağa başladım, nəfəs almağım bir müddət sonra öz normasına döndü. Pəncərəyə doğru baxanda isə Cavadı gördüm. Bu dəfə də həmişə olduğu kimi mimikasız üz ifadəsi ilə mənə baxırdı. Göz yaşlarım da artmışdı. Valideynlərimdən əlavə oğlum üçün də ağlayırdım. Cavada tamaşa edirdim. Onun önündə dayandığı pəncərədən buludların sürətlə qaçışdıqlarını görürdüm. Onlar qaçışsalar da Cavad yerində donmuşdu. Sanki otaqda zaman dayanmışdı. Otağın səssizliyi mənə onu fikirləşməyə vadar edirdi ki, bir neçə müddət sonra mən həyat olmayanda da bu otaqda belə sükut olacaq. Məndən əvvəl burada nə qədər insan həyatı məhv olub və gələcəkdə də məhv olmağa davam edəcək. Məni haraya dəfn edəcəklərindən belə xəbərim yox idi. Bildiyim tək o idi ki, orada da daim sükut olacaq. Səssizlik insanı daxildən məhv edir. Cavadın pəncərənin önündə görsənən cismi də elə idi – səssiz və hərəkətsiz. Onun bu vəziyyəti mənim daxilimi parçalayırdı. Hər gün olduğu kimi bu gün də sükunətdə olan Cavada, qaçışan buludlara tamaşa edir və yuxuya dalmağa hazır idim.

## VIII

Günlər monoton formada biri digərini əvəz edirdi. Artıq tarixi belə çox zaman unudurdum. Bəzən Könüldən tarixi soruşurdum. Könül məndən çox bezmişdi, məndən can qurtarmaq istəyirdi. Könül çox nadir hallarda gələrdi, gələndə də səbri çatmırdı, tez otağı tərk

edirdi. Daha mənə əzab vermirdi, cəzalandırmırdı. Bəlkə də mənə əzab vermək üçün şərait axtarırdı. Mən isə gün ərzində səssiz olurdum, yerimdə uzanırdım. Mənə yemək veriləndə yeyirdim, dərman veriləndə isə içirdim.

Könül sevincli vəziyyətdə qapını açdı və gözətçiləri otağa çağırdı.

– Gəlin, gəlin. Onu stula otuzdurun, əllərini, ayaqlarını bağlayın. Ağzını da mən deyəndə bağlayarsınız. – Könül gözətçilərə əmr etdi.

Gözətçilər isə başları ilə Könülü anladıqlarını təsdiqləyirdilər. Könül isə qaçaraq otağı tərk etdi.

– Məni niyə bağlayırsınız? – sakit şəkildə soruşdum.

Gözətçilər mənə fikir vermədən məni oturacağa bağlamaq üçün ipləri hazırlayırdılar. Mən isə çarpayıda əyləşmişdim və baş verənlərə sakit şəkildə tamaşa edirdim. Mənə cəza versələr də artıq hərəkət etməyim mənasız idi. Artıq onlardan asılı idim və mən nə eləsəm də onların dedikləri olacaqdı.

– Qara gəlir. İşinizi gecikdirməyin! – Könül sevincli şəkildə otağa daxil oldu, dedi və getdi.

– Gəlsin. Mən özüm ayağa dururam, məni rahat bağlaya bilərsiniz.

Ayağa durdum və oturacağa əyləşdim. Əllərimi arxada birləşdirdim ki, rahat bağlaya bilsinlər. Gözətçilər məni çox rahat şəkildə bağladılar və otağı tərk etdilər. Onlar otağa dəsmal da qoymuşdular. Yəqin ki, onunla ağzımı bağlayacaqdılar.

İlk dəfə idi ki, Könülü sevincli görürdüm. Çox sevinirdi, sanki sevincindən uçacaqdı. Məndən canının qurtarması üçün yalnız bayram etməyi qalmışdı. Bəlkə də Qaranın gəlişinin səbəbi mənim Könülə, Gültəkinə, Almaza deməyimə görə deyil. Mənim fikrimcə Qara öz istəyi ilə gəlirdi. Bir insandan qisas alınırsa, ona son sözlər deyilməlidir.

Gözətçilərin məni bağlaması düzgün təşəbbüs idi. Mən Qaranı görəndə üstünə cuma bilərdim və ya ağzımı bağlamasalar onu sonsuza qədər söyə bilərdim. Artıq taleyimə boynumu əymişdim. Mənim vəziyyətimin düzəlməsi mümkün deyildi, düzəlsə də normal yaşamağım üçün artıq gec idi. Tək istəyim başıma gələn faciələrin səbəbini bilmək idi. Tək istəyim məndən nə səbəbə qisas alınmasını bilmək idi.

Gözətçilər otağa daxil oldular və dəsmal ilə ağzımı bağladılar. Otaqdan çıxdılar və qapını açıq saxladılar.

Qara içəri daxil oldu və mənimlə üzbəüz oturacaqda əyləşdi. Onu görən kimi dərhal özümdən asılı olmadan yerimdə vurnuxmağa başladım. Əsəb, hirs, qəzəb içimi bürümüşdü. Başıma gələn bütün faciələrə səbəbkar olan insan qarşımda əyləşmişdi və heç bir şey edə bilmirdim. Belə vəziyyət məni içdən dağıdırdı. Qara həmişə gördüyüm kimi bahalı kostyumda idi və qolunda çox böyük saat var idi. Daim olduğu kimi üzü təmiz qırxılmışdı və çox səliqəli görsənirdi.

Qara uzun müddət heç bir söz söyləmədi və mənim yerimdə vurnuxmağıma tamaşa etdi. Mənə elə baxırdı ki, sanki mən ona əzab vermişdim. Mənim ağır vəziyyətimə hirslə baxırdı və baxışları onu

ifadə edirdi ki, mən səndən qisas aldım.

– Salam, İlkin. – Dedi və oturacağını mənə qarşı irəli çəkdi. – Almaz, Gültəkin, Könül mənə demişdilər ki, sən məni görmək istəyirsən. Mən də səni belə vəziyyətdə görmək istəyirdim. Sadəcə tam hazır deyildim.

Qara yaxınlaşdı və dəsmalı ağzımdan açdı.

– Əclaf, şərəfsiz… Məndən nə istədin? Əclaf! – dedim. Qara isə tez ağzımı yenidən bağladı. Ürək sözlərimi, ifadələrimi deməyə imkan vermədi.

– Sənin ağzın elə bağlı qalsa yaxşıdı. Sən burada çürüyəcəksən, öləcəksən. Almaz, Cavad artıq mənimdilər. Atan da yəqin ki, sənin dərdindən ölər. – Dedi və danışığına fasilə etdi.

Cavadın, Almazın adlarını Qaranın dilindən eşidəndə sanki ürəyimi çıxartmışdılar. Daha tab gətirə bilmirdim, onun həyasızlığı məni özümdən çıxardırdı. Əvəzində yerimdə vurnuxmaqdan savayı heç nə edə bilmirdim.

– Deməli belə, Almaza, Cavada görə rahat ola bilərsən. Onlar artıq mənim ailəmdi. Mənim ailəm ən gözəl şəraitdə yaşamalıdı və onlara heç kəs tərəfindən zərər gələ bilməz. Atan isə sənin dərdindən öləcək. Onun ölümü də mənim işimə yarayır. Çox uzatmayım, mənə dedilər ki, başına gələnlərin səbəbini bilmək istəyirsən. Bir azdan biləcəksən. Mən çox kiçik yaşlarımdan atamı itirmişəm. Anam çox böyük çətinliklə məni böyüdüb. Mən uşaqlıqdan işləməyə məcbur olmuşam, oxumağa şəraitimiz olmayıb. Bu səviyyəyə öz gücüm, iradəm ilə qalxmışam. Atam çox yaxşı insan idi. Bəlkə də atam ölməsəy-

di mən də onun kimi yaxşı insan olardım. Çəkdiyim hər acı məni içdən gücləndirdi. Həm də içim kin ilə doldu. Atamı kimin öldürdüyünü cəmi iki il əvvəl möcüzəli şəkildə bildim. Atamın dostunun oğlu yanıma gəldi. Məndən pul istədi ki, atamın qatilinin adını desin. Düşünürdüm ki, həmin adam pul üçün yalan deyə bilərdi, bu səbəbdən də araşdırmalı idim. Qatil haqqında çox maraqlandım. Daha doğrusu onun ailəsi ilə. Qatil öz gözəl həyatını artıq yaşamışdı və ölmüşdü. Qatil ailəsini araşdırarkən oğlu ilə maraqlandım və fikrim Ayxan kişinin üzərində toplandı. – Dedi və pəncərəyə doğru getdi, aşağıya baxaraq yarpaqları tökülmüş ağacı seyr etməyə başladı.

Beynim bu informasiyanı qəbul etmirdi. Mənim babam qatil idi? Bəs atam bunu bilirdi? Mən bir qatilin nəvəsi idim? Babama görə mən əzab çəkirdim, ona görə mənim həyatım məhv olmuşdu. Daha yerimdə vurnuxmurdum, sadəcə olaraq donmuşdum.

– Hə, atanla tanış oldum. – Dedi və söhbətə başladı. Daha doğrusu mən yox, adamımı göndərdim. Ona atanla dostlaşmaq çətin olmadı. Atan səndən fərqlidi, dostsevərdi. Məhəllədə nərd, domino oynayırdı. İndi isə evdən çölə çıxmağa üzü yoxdu. Cəmi üç ay sonra göndərdiyim adamla içəndə atan hər şeyi danışdı. Atan öz atasına necə nifrət etdiyini, ondan necə utandığını danışdı. Mən isə ona dəymədim. Özümə söz vermişdim ki, qatilin nəslini məhv edəcəm. Düşündüm ki, sənin əzablı ölümün atanı da öldürəcək. Hər ikinizi məhv edəcəyəm. Səni araşdırdım, sənin inamını qazanmaq üçün yollar tapdım. Sənin məhv olmağın üçün plan hazırladım. Bu plan ilə həm atan, həm də oğlun da məhv olmalı idi. Tək Cavad plan üzrə getmə-

di. Onun ölümünə səbəb ola bilmərəm. Sənin ölməyin ilə Cavadın sənə aid olan hissəsini də öldürmüş olacam. Cavad çox ağıllı uşaqdı və artıq sənin deyil, mənim oğlumdu. Bilirəm ki, atamın ölümündə sənin, atanın günahı yoxdu. Baban sağ olsaydı onunla hesablaşardım. Sən sadəcə qurbansan. Mən səni öldürməyəcəm, bunu sən özün edəcəksən. Mən sadəcə səni çürüdürəm. Mənim məqsədim odur ki, sənin yerin boş olsun. Sanki sən heç dünyaya gəlməmisən, heç yaşamamısan. Digər məqsədim isə atanın əziyyət çəkməyidir. Utansın, məhv olsun! Utansın ki, qatil atası, qatil oğlu var. Bir neçə ay sonra ürəyi partlayar, partlasın! Cavad isə mənim oğlumdu, Almaz isə yoldaşımdı. Tək sən yoxsan, atan da olmayacaq. Bəlkə elə bilərsən ki, bunları kiməsə deyərsən və sənə inanarlar. Yox, İlkin. Hamı səni dəli kimi tanıyır. Doğma atan, anan belə sənə inanmır. Heç bir möcüzə səni azad edə bilməz. – Dedi və pəncərənin önündən uzaqlaşdı və mənə tərəf gəldi. – Mənə bax! – dedi və əyilərək üzümə baxdı və davam etdi, – sən qatil nəslinin qurbanı oldun. Mənim yerimdə sən də olsaydın mənim etdiklərimi edərdin. Üstəlik mən səni öldürmədim.

Qara bir neçə dəqiqə heç bir söz söyləmədi. Cibindən siqarını çıxartdı və alışdırdı. Bir siqarı çəkdikdən sonra cibindən ikinci siqarını çıxartdı və onu da alışdırdı. Tozlu pəncərədən hər hansı bir nöqtəyə baxaraq fikrə getdi. Qəflətən fikirlərindən uzaqlaşdı, yenidən oturacaqda əyləşdi və söhbətinə davam etdi:

– Mən bu anı illər idi ki, gözləyirdim. Bilirəm, çox gecikdim. Qatilin özünü cəzalandıra bilmədim. Son illər ümumiyyətlə qisas ala bilməyəcəyimi qəbul etmişdim və ümidimi kəsmişdim. Cəmi iki il

əvvəl istəmədən qatilin ailəsini tapa bildim. Sənin babanın mənə, atama elədiklərini bəlkə də Cavad da mənə edə bilər. Bu səbəbdən də Cavadı özüm böyüdəcəm, tərbiyələndirəcəm. Onu tanımamışdan əvvəl fikrim onu öldürmək idi. Tanıyandan sonra isə dərhal bu fikri beynimdən çıxartdım. Əslində sən də yaxşı insansan. Sadəcə bədbəxtsən. Sən də, sənin atan da, baban da axmaqsınız. Həyatda sənin gücündən qorxmayan heç kəsə güvənməli deyilsən. Sən tanımadığın mənə, atan tanımadığı mənim adamıma, baban isə dostuna inandı. Sizdə yəqin ki, nəsillikdə əksinədir. Doğmalara deyil, kənar insanlara güvənirsiniz. Atan səni atdı, sənin bir sözünə belə inanmadı. Mənə çox maraqlıdır ki, Cavad kimi ağıllı uşaq sizdən necə əmələ gəlib? Yəqin Almaza oxşayıb. Sənə bir məsləhət verim və gedirəm. Həyatda elə belə heç kəsə güvənməməlisən, həmin insana o halda güvənməlisən ki, həmin insan səndən qorxsun, sənin gücünü görsün. Həm də artıq sənə əhəmiyyətli olan tək məsləhət az ağrılı intihar yolunu deməkdi. Təəssüflər ki, bu mövzuda heç bir fikrim yoxdu. – Dedi və geriyə baxmadan otağı tərk etdi.

Bir neçə dəqiqə eyni vəziyyətdə qaldım. Bədənim boşalmışdı, fikirlərim dağınıq idi. Özümü yuxuda olduğum kimi hiss edirdim.

Bir müddət sonra qapı açıldı və Könül otağa daxil oldu. Könülü döymüşdülər. Onun gözlərinin altı göyərmiş, dodağı partlamış, biləklərində göy izlər var idi. Görünürdü ki, Qara verdiyi məsləhəti Könülə qarşı tətbiq etmişdi. Könül qarşımda olan oturacağa çətinliklə əyləşdi.

– Sənə görə məni də döydülər. Mən onların dediklərini edir-

dim, üstəlik də susuram. Səndən artıq bezmişəm. – Dedi və ayaqlarını sürüyərək otaqdan çıxdı.

Onun ardınca gözətçilər otağa daxil oldular və ilk öncə ağzımı, daha sonra əllərimi, ayaqlarımı açdılar və otağı tərk etdilər. Ayağa durdum və çarpayıma uzandım. Qaranın dediklərini həzm edə bilmirdim. Hələ də başım dumanlı idi. Pəncərədən ağ buludlara tamaşa etməyə başladım. Pəncərənin çərçivəsində dayanan göyərçinin malik olduğu azadlığına həsrətlə baxırdım.

## IX

Həyatda edilən heç bir pis hərəkət əvəzsiz qalmır. Çox təəssüflər olsun ki, bəzən böyüklərimizin etdikləri səhvlərə görə biz cəzalanırıq. Qətl hadisəsi baş verən zaman mən anadan olmamışdım, atamın isə yaşı çox az idi. Hər kəs etdiyi hadisələrə görə belə yol ilə deyil, qanunu yol ilə özü cavabdeh olmalıdır. Qaranın da içi yanır, həyatı çətin olub, onu anlamaq olar. Sadəcə mənim heç bir günahım, xəbərim olmadığı halda cəza çəkməyim babamın onun atasına etdiklərindən fərqli deyildi. Bu hadisədən xəbərim olsaydı belə əlimdən heç nə gəlməzdi. Babam artıq çoxdan dünyasını dəyişmişdi. Sağ olsaydı belə yaşı çox olardı. Uyğun zamanda qanuni cəzasını çəkməli idi. Mən isə xəbərim belə olmadığım hadisəyə görə, ömrümün ilk on ilini gördüyüm insanın səhvinə görə həyatım məhv olmuşdu və öz ölümümə hazırlaşırdım. Qara mənə bu faciələri yaşatmadan birbaşa öldürsəydi daha yaxşı olardı. Elə olsaydı hər kəs məni əclaf, cinayətkar, dəli kimi hesab etməzdilər. Hər bir halda yolun sonunda mənim

ölmüm var idi. Hər kəs onu gözləyirdi. Mən isə bütün bu cəzalara, əzablara dözərək yaşaya bilərdim. Sadəcə daha gücüm tükənmişdi və yox olmağı çox istəyirdim. Məni bu qədər müddət həyatda saxlayan o idi ki, bəlkə Qara cinayəti mənim etməyimi anlayardı və mən azad olardım. Heç bir zaman azad ola bilməyəcəkdim. Əzab içində çürüməkdənsə intihar daha üstündü. Belə də zamanla sağlamlığım pisləşirdi, bir-iki il gec və ya tez fərq etməzdi. Ən azından daha əzab çəkməyəcəkdim.

Bu gün buludlar çox ağır şəkildə hərəkət edirdilər. Daha heç bir zaman buludları, Günəşi, ağacları, ümumiyyətlə işığı görməyəcəkdim. Daha heç bir zaman xoş güllərin ətrini, evdə bişirilən dadlı yeməklərin ətrini, anamın qoxusunu hiss etməyəcəkdim. Daha heç bir zaman Cavadın gülüşünün səsini, quşların xoş cəh-cəhini, gözəl musiqiləri duymayacaqdım. Dənizi, dağları, meşələri daha görməyəcəkdim. Anamın hazırladığı gözəl yeməkləri, Almazın hazırladığı dadlı şirniyyatları dadmayacaqdım. Daha qaçmayacaqdım, daha gəzməyəcəkdim, daha hərəkət belə etməyəcəkdim. Bundan sonra heç bir zaman səhər yuxudan oyanıb yeni günə yeni ümidlərlə başlamayacaqdım, axşamları ailəm ilə birgə etdiyimiz şam yeməklərini gözləməyəcəkdim. Evimiz boş qalacaqdı və heç bir zaman gülüş səsi eşitməyəcək, heç bir zaman isinməyəcəkdi. Həmin ev Almaz gedən gündən artıq viran qalmışdı. Daha həyatda İlkin olmayacaqdı və heç kəs İlkini xatırlamayacaqdı. Mən həyatda heç nəyə nail olmadım. Qara düz deyirdi ki, mən axmaq idim və onun kimi əclafa inanmışdım. Mənim çox xəyallarım var idi, bir neçə ay öncə Almaz ilə birgə qızı-

mızın dünyaya gəlməsini belə planlaşdırırdıq. Qızım dünyaya göz açmadan getdi. Hələ Cavadıma çox vədlər vermişdim. Oğlum bəlkə də hələ də havanın soyuq olmağına baxmayaraq, onu çimərliyə aparmağımı ümid ilə gözləyirdi. Ona bir məktub belə yaza bilmirdim. Tək ümidim, inamım Gültəkinə idi, ona sonsuz dərəcədə güvənirdim. Həm də ona Qara əl vurmazdı. Ən azından neçə il idi ki, yanında işləyir və sağ-salamatdı.

Həyatda nə ədalət, nə də haqq var. Narkotik işinə qurşanan, insan qatili, müxtəlif cinayətlərlə məşğul olan insan mənim həyatımı əlimdən aldı və mənim ailəm ilə birgə xoş anlar yaşayırdı. Mən isə bu xarabada intihara əl atmağa məcbur edilirdim. Səbəb isə mənim babamın onun atasının qatilinin olması idi. Qaranın elədiyi sanki hər hansı bir uşağın etdiyi məntiqsiz hərəkətlər idi. Günahsız bir insanın cəzalandırılması absurd idi.

Dünyadan köçmək çox çətin idi. Əllərimi, ayaqlarımı tərpədə, gəzə, hərəkət edə bilirdim. Gözlərim görürdü, dilim isə danışırdı. Ruhum isə məhv olmuşdu, daha yaşaya bilmirdim. Qarışıq, sıxıcı düşüncələrdən, fikirlərdən artıq bezmişdim.

Tibb bacısı otağa daxil olanda gördüm ki, Qara Könülü döydüyü kimi olmasa da ona da əl gəzdirmişdi. Qızın dodağı partlamışdı. Yemək boşqabını mənə verdi və adəti üzrə yeməyimi bitirməyimi gözlədi. Çox az miqdarda yemək yedim və boşqabı ona qaytardı. Dərman ilə suyu birgə kiçik masanın üzərinə qoydu və otağı tərk etdi.

Qıza bir söz deyə bilmədim. Digər tibb bacısı kimi qovulma-

ğından və bir daha döyülməyindən qorxdum. Böyük ehtimal ki, digər tibb bacısını da döymüşdülər. Keçmiş tibb bacısı da hər şeyi görürdü və bilirdi. Mənə görə insanlar əzab çəkirdilər. Qara bunları etməklə mənə əlavə vicdan əzabı çəkdirirdi. Kaş Qara özü məni öldürərdi. Bütün bu əzablara dözmək, intihara hazırlaşmaq və onu etmək çox çətin və ağır idi. Yaşamaq istəmək, yaşaya bilməmək və intihar etmək dəhşətli dərəcədə ağır işgəncə idi.

Cavad gözümün önündə görsənirdi. Oğlumun hafizəmdə olan cismini belə heç bir zaman görməyəcəkdim. Cavad ilə söhbət etməyə başladım:

– Çox sağ ol ki, belə ağır günlərdə yanımda oldun. Bilirəm ki, məni eşitmirsən və anlamırsan. Bilirəm ki, sən mövcud deyilsən. Səni gördüyümə görə hər kəs məni dəli hesab edir. Sən isə mənə ümid verdin. Bu gün son günümüzdü. Sən də mənim ilə birgə hafizəmdə yox olacaqsan. Son dəfə gülümsə, son dəfə mənə xoşbəxtlik yaşat. Yalvarıram sənə. – Dedim və yerə diz çökdüm. – Yalvarıram, gülümsə. Son dəfə gülümsə. – Deyərək ağlayırdım. – Bağışla məni, oğlum, sənə çox vədlər verdim. Səni hər kəsdən çox sevdim. Sən mənim ürəyimsən oğlum. Məni unutma. Unutma ki, atan səni hər kəsdən çox sevirdi. – Dedim, ayağa durdum və çarpayımda uzandım və pıçıltı ilə özüm özümə danışmağa başladım:

– Cavad, yalvarıram yuxuma gəl, yuxumda mənə gülümsə, son dəfə səni xoşbəxt görə bilim. Anamı da görmək istəyirəm, onun üçün də çox darıxmışdım. Anamın isti qucağı üçün darıxmışdım. Kaş anamı da yuxumda görə bilsəydim.

Dərmanı su ilə içdim və göz yaşları içində gözlərimi bağladım. Bu son yuxum olacaqdı, tək istəyim bu yuxumda xoşbəxt ola bilmək idi. Elə xoşbəxt yuxumda da əbədi sonsuzluğa qərq olardım. Dərin yuxuya dalırdım ki, Könül otağa daxil oldu. Könül otağa daxil olan kimi Cavadın əksi yox oldu.

– Nə edirsən? – əsəbi tərzdə soruşdu.

– Yatıram.

– Bəs nə vaxt daimi yatacaqsan?

– Sabah. Sizə söz verirəm.

– Sənə görə məni…

– Bilirəm. – Dedim və sözünü kəsdim. – Daha bunları yaşamayacaqsınız.

– Məni də anlamağa çalış. Mən bütün bunlara məcbur oldum. Həm də ki, mən olmasaydım başqası olacaqdı. Hər bir vəziyyətdə bunları yaşayacaqdın.

– Anlayıram sizi.

– Yaxşı. – Dedi və otağı tərk etdi.

Bəlkə də Könüldə də dərində vicdan var idi. Könül peşman ola da bilərdi. "Həm də ki, mən olmasaydım başqası olacaqdı" bu ifadə insanı fəlakətə sürükləyir, insanın insanlığını əlindən alır. Bəlkə də bu ifadə ilə razı olmasaydım həmin anda ailəm ilə birgə bir süfrə arxasında idik. İnsan elədikləri səhvlərə görə bəhanə gətirməli deyil. Hər hansı bir hərəkəti etməmişdən öncə düşünməlidi, mən bunu çox gec anlamışdım.

İntiharım çox ağrılı, əzablı olacaqdı. Bəlkə də həmin an Cavadı

gülümsəyən şəkildə görə bilərdim. Bəlkə də əbədi getdiyim yuxuda Cavad ilə ailəmi görəcəkdim. Onlar ilə birgə yaşayacaqdım, xoş anlar yaşayacaqdım. Dərman məni yuxuya verirdi. "Yuxuda Cavadı, valideynlərimi görüm" pıçıldayaraq yuxuya daldım.

## X

Yuxudan çox erkən oyandım. Nə doyunca yata bildim, nə də ki, yuxu gördüm. Ayaq üstə çox dayana bilməməyimə baxmayaraq, güzgünün önündə bir saata yaxın müddətdə özümə baxırdım. Sanki üz cizgilərimi əzbərləyirdim, əllərimi qocalmış, solğun üzümdə gəzdirirdim. Güzgüdə olan əksim özümə çox yad gəlirdi. Bir neçə ay əvvəl mövcud olan İlkin ilə aramızda çox fərq var idi. Özüm ilə vidalaşmağım uzun müddət çəkdi. Hətta ayaqlarımın ağrısını belə unutmuşdum. Əllərimi qızarmış, torbalanmış gözlərimdə, arıqlamış, solğun yanaqlarımda, çatlaq dodaqlarımda gəzdirirdim. Qeyri-ixtiyari olaraq əllərim ilə başımı sığalladım. Saçlarım xeyli tökülmüşdü. Özüm ilə vidalaşmağı bitirdim və otağa daxil oldum. Artıq çox müddət idi ki, güzgüdəki əksimə uzun müddət baxırdım. Başıma gələnlərdən çox heyfslənirdim. Çox tez yaşımda dünyadan köçməyə məcbur qalmışdım.

Hava hələ tam işıqlanmamışdı. Cavad da yox idi. Dünən onunla vidalaşandan sonra onu görməmişdim. Artıq intihar zamanı idi və mən bunu etməli idim. Şüşə stəkanı əlimə götürdüm və döşəmədə oturdum. Stəkanı yerə vuraraq qırdım. Şüşə qırıntısını qoluma yaxınlaşdırdım, daha sonra isə uzaqlaşdırdım. Anamı, atamı xatırla-

dım. Uşaqlıqda onlarla birgə getdiyimiz gəzintiləri, atam ilə birgə oynadığımız oyunları, anamın şirin səsini xatırladım. Ali təhsil müəssisəsinə daxil olarkən yaşadığım sevinci xatırladım. Almaz ilə ilk görüşümüz gözümün önündən keçirdi. Almaz necə də utanırdı və çox şirin idi. Toyumuzda necə də gözəl görsənirdi. Almazın hamilə olması xəbərini eşidəndə sevincimdən sanki qanad açıb uçacaqdım. Cavadı ilk dəfə qucağıma götürəndə keçirdiyim həyəcan necə də şirin idi. Bəlkə də çox insanların həsrət çəkdiyi həyatı yaşamışdım.

Pəncərənin önündə ayaq üstə dayanmışdım və buludlara tamaşa edirdim. Səhər yeni doğan Günəş necə də gözəl idi. Artıq yeni gün başlayırdı. İnsanlar yuxudan oyanırdılar və daha gözəl yaşamaq üçün çalışacaqdılar. Kaş insanlar yaşadıqları anı düşünərdilər, o zaman necə xoşbəxt olduqlarını anlayardılar.

– Çox sağ olun, buludlar. – Sanki otaqda məndən savayı kimsə var idi və mən onunla danışırdım. – Çox sağ olun ki, məni tənha qoymadınız.

Düşünürdüm ki, əzab çəkərək, ağrı çəkərək yaşamaqdansa yaşamamaq daha yaxşıdır. Üstəlik məni durmadan təhqir edirdilər, məni alçaldırdılar. Bunlar isə dözülməz idi. Mənim yaşamağım səbəbindən üç qadın döyülmüşdü. Bunu düşünmək vicdanımı sızıldadırdı. Daha da alçalmamış, daha da insanlıqdan çıxmamış ölməli idim. Həm də ki, mən artıq yaşamırdım. Deyirlər ki, təmiz havada olmayan insan yaşamır, sürünür. Mən nəinki təmiz havada olmurdum, hətta qaldığım otaqda pəncərə belə açılmırdı. Ailəm artıq yox idi. Anlayırdım ki, valideynlərim pis olacaqdılar. Onlar üçün burada sürün-

məyim ilə ölməyim arasında nə fərq ola bilərdi ki? Onlara deyilən əlavə təhqirlərdən, iyrənc sözlərdən qurtulmuş olarlar. İnsanlar qorxduqlarına görə artıq ölmüş insanları tənqid etmirlər. Hər hansı bir insan cani olsa belə həmin insan öləndən sonra onu tənqidedici ifadələr ilə yad etmirlər. Çox istəyirdim ki, atama babamın elədiyi qətlin cəzasını çəkdiyimi deyim. Düşünürdüm ki, bütün bunları desəydim atam da hər hansı bir iş görə bilərdi. O zaman qisas zənciri daha da uzanacaqdı və üstəlik bu qisas oyunu sonda oğluma da təsir göstərə bilərdi. Həm də heç bir zaman istəməzdim ki, atam cinayətkar olsun. Onun elədiklərinin mənə heç bir xeyri olmayacaqdı. Əlavə atam da əziyyət çəkərdi. Bəs ona inanardılar? Əlbəttə ki, inanmazdılar. Deyərdilər ki, oğlunun cinayətini gizlədir. Artıq mənim azad olmağım üçün heç bir möcüzə yox idi. Ümidim yox idi və itirmək sırası özümə gəlmişdi. Qara dediyi kimi mən qurban idim və bu qisasçılıq mənim ölümüm ilə bitməli idi.

Özümü toparladım və qəti addımlarla ayaqyoluna getdim və orada olan güzgünü dirsəyim ilə sındırdım. Sınmış güzgü parçalarından birini götürdüm və otağa daxil oldum. Döşəmədə pəncərədən buludları görə bildiyim bir yerdə oturdum. Güzgü parçasında öz əksimə baxanda Qaranın verdiyi əzablar, mənə deyilən təhqiredici sözlər, həyatda necə alçalmağım, sınmağım fasiləsiz olaraq bir-birini əvəz edərək yadıma düşdü. Onsuz da heç yaddaşımdan çıxmırdı. Düz deyirdilər ki, mən heyvana oxşayırdım, insanlığa aid olan hər bir xüsusiyyət məndə artıq yox idi. Daha da adamlıqdan çıxmamaq üçün intihar etməyə məcbur idim.

Gözlərimi bağladım və güzgü parçası ilə sol qolumu kəsdim, gözlərimi açmadan yenidən sol qolumu bu dəfə daha dərin güzgü parçasını sıxaraq kəsdim. Gözlərimi açanda qollarımdan axan qan su kimi axırdı. Kəsdiyim yer çox ağrıyırdı və əzab verirdi. Qara gözümün önünə gəldi. Ona qarşı olan qəzəb məni digər qolumu da kəsməyə məcbur etdi. Gözlərimi bağladım və bu qolumu ehtiyatla deyil, daha tez-tez bir neçə dəfə ardıcıl tərzdə kəsdim. Gözlərimi açanda isə Qara artıq yox idi. Qollarımdan qan bulaq kimi axırdı. Süst vəziyyətdə döşəmədə uzanmışdım və buludlara tamaşa edərək ölümümü gözləyirdim. Zaman ötdükcə bədənim zəifləyirdi, halsızlaşırdım. Bəlkə də hələ də gec deyildi, məni xilas edə bilərdilər. Sadəcə bunu istəmirdim. Çox əzab çəkirdim və əzabımın tezliklə bitməyini istəyirdim. Mən ölürdüm və ölümüm belə həyatım kimi əzablı idi. Qəflətən pəncərənin önündə buludların fonunda Cavadı görürdüm. Oğlum mənim yaxınlığımda idi və gülümsəyirdi. Mən bu anı artıq aylar idi ki, gözləyirdim, xəyal edirdim. Çox sevinirdim və çəkdiyim ağrı da tədricən azalırdı. Cavad isə arxa-arxaya gedərək yox oldu.

– Cavaaaad, aaaaa… – Son dəfə var-gücümlə qışqırırdım.

Gücüm artıq yox idi, qışqırmağıma baxmayaraq, səsim zəif gəlirdi. Ətrafı çox bulanıq görürdüm və bu bulanıqlıq tədricən artırdı. Artıq son idi və sonunda bu an gəlmişdi və mən ölürdüm.

– Kaş qan dənizini yox, Cavadın sevdiyi dənizi seçərdim. – Pıçıldadım və əbədi yuxuya daldım.

## *Epiloq*

– Cavad, deyəsən buradı.

– Dəqiq bilirsən Gültəkin? Səhərdən bütün döngələri gəzdik.

– Hə, hə. Buradı, gəl. Bax buradı. Burada sənin atan yatır.

– Bəs onun şəkli niyə yoxdu?

– Onu hər kəs atmışdı. Al bu suyu, dəsmalı və tozu sil!

– Yaxşı. Onun üçün çox darıxmışam.

– Ağlama Cavad. İlkin daim səni gülümsəyən şəkildə görmək istəyirdi, sənin həsrətini aylarla çəkmişdi, dəli olmuşdu. İstəkləri sənin gözəl gələcəyinin olması və sənin onu anlamağın idi.

– Atama bunları kim edib?

– Bilmirəm Cavad. Hə, yaxşı sildin. İndi gülləri qoy!

– Məndən gizlədirsən ki, mənə təhlükə olmasın?

– Yox, həqiqətən bilmirəm.

– Kaş anam onu atmazdı. Bəlkə də sağ qalardı.

– Heç kəsi günahlandırmağın mənası yoxdu. Sən xoşbəxt ol ki, atanın ruhu da şad olsun. Sən bilirsən ki, İlkinin son aylarında ən böyük arzusu nə idi?

– Nə?

– Yuxusunda olsa belə səni gülümsəyən şəkildə görmək istəyirdi. Hər dəfə yatanda pıçıltı ilə təkrar edirdi ki, səni yuxusunda xoşbəxt görsün.

– Necə də çarəsiz idi.

– Hə. İndi göz yaşlarını sil! Elə oturduğun yerdə ona gülümsə.

– Alınmır.

– Atan üçün elə!

– Belə?

– Ay sağ ol, afərin. Bax İlkin, oğlun necə böyüyüb. Söz verdiyim ki, zamanı gələndə oğluna baş verənləri anlatdım. Bax, necə də sənə gülümsəyir, həm də ki, sənə güvənir.

– Ata, səni çox sevirəm.

– Ağlama Cavad.

– Gültəkin, buludlara bax. Sanki hava açıldı.

– Hə, gözəldi. Tam zamanında gəldik.

– Kaş atam yanımızda olaydı…

İnsan özünün təsəvvür belə etmədiyi ağır şəraitdə olanda hər vəziyyətə uyğunlaşır. Empatiyasız insanın həyatı anlaması, sağ qalması ağır və əzablıdır. Bəzən adi məişət problemi səbəbindən ağlayırıq, dünyanın sonu imiş kimi əzab çəkirik. Halbuki həyatda şirin bir gülüşə, isti bir qucağa ehtiyacı olan sonsuz sayda insanlar var.

Həyatın möhtəşəmliyini anlamaq üçün səmaya tamaşa etmək kifayətdir. Qaçışan buludların gözəlliyini anlamaq üçün səmaya tozlu pəncərədən baxmağa ehtiyac yoxdur. Biz məhz buludlarda görmək istədiklərimizi görə bilirik.



Rəhimova Sara Fərhad qızı. 13 yanvar 1997-ci il tarixində Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini 20 saylı məktəb-liseydə bitirmişdir. BDU-nun Coğrafiya fakultəsində Hidrometeorologiya ixtisasının bakalavr pilləsini və Fiziki okeanologiya ixtisasının magistratura pilləsi üzrə təhsil almışdır.